# Qafqaz evi: Prinsipiallığımız illüziyanı reallığa çevirir

## *Ermənistanın itirdikləri və İrəvan üçün yaşam şansı*

**Prezident İlham Əliyev aprelin 9-da ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumda vahid Qafqaz evi modelini canlandırdı. Elə bir modeli ki, məsələ yalnız indinin düşüncə məhsulu deyil. Bununla bağlı müzakirələr regionun üç ölkəsinin sabiq SSRİ-dən ayrılaraq dövlət müstəqilliklərinə qovuşduqları vaxtdan başlanıb və indi də əhəmiyyətini saxlayır. Amma...**

Diqqət yetirək, Beynəlxalq Sülh İnstitutunun təmsilçisi Stefani Fenkart dövlətimizin başçısına ünvanladığı sualda Cənubi Qafqazın timsalında Avropa İttifaqı kimi institusional formatdan söz açır, onu yeni dünya düzəninin seqmenti kimi vurğulayır, məsələnin həyata keçməsi baxımından regionda sülhün qərarlaşmasını vacib sayır.

*(ardı 3-cü səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 70 (30764) 11 aprel 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfərə gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatik Forumunda iştirak etmək üçün aprelin 10-da Türkiyəyə işgüzar səfərə gəlib.**

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan–Gürcüstan: Mehriban qonşuluq və strateji tərəfdaşlıq

## *Prezident Mixeil Kavelaşvili xaricə ilk səfərini Azərbaycana edəcək*

**Azərbaycan və Gürcüstanın enerji və nəqliyyat-logistika sahələrində reallaşdırdıqları nəhəng layihələr ikitərəfli əməkdaşlığın inkişafından xəbər verir. Bu əməkdaşlıq regionun hüdudlarını aşaraq qlobal enerji təhlükəsizliyi və qitələrarası nəqliyyat qovşaqlarında müstəsna rol oynayır. Bakı – Tbilisi – Ceyhan, Cənub Qaz Dəhlizi kimi transmilli layihələr Avropanın enerji təhlükəsizliyinə töhfələr verir. Həm də Azərbaycan və Gürcüstanın maraqlarına xidmət edir. İki ölkənin geosiyasi mövqeyinin möhkəmlənməsinə, gəlirlərinin artmasına, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsinə şərait yaradır.**



Bakı – Tbilisi – Qars dəmir yolu isə Şərqlə Qərb arasında qısa və səmərəli alternativ əlaqə yaradır. Bəli, yalnız energetika sahəsində deyil, həm də infrastruktur sahəsində əməkdaşlıq genişlənir. Artıq ölkəmizdə müasir logistika infrastrukturu yaradılıb. Xəzər və Qara dənizlərin sahillərində ən böyük limanlar tikilir. Onların inkişafında Bakı – Tbilisi – Qars dəmir yolu böyük əhəmiyyətə mallikdir. Dəmir yolu yük və sərnişinlərin birbaşa Gürcüstan ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, dünyaya inteqrasiya prosesinin sürətlənməsinə, Qərblə qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın inkişafına, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edir.

*(ardı 3-cü səhifədə)*

## Zəfərə zəmin hazırlayan seçki



Səhifə ⇨ 4

## Qardaş mediası, yoxsa Azərbaycana qarşı qərəz xoru...




Səhifə ⇨ 5

## "Aİ-yə üzvlük İrəvanın növbəti siyasi fırıldağıdır"



Səhifə ⇨ 7

## BVF-nin Azərbaycanla bağlı proqnozları nikbindir




Səhifə ⇨ 9

## Süni intellekt – gələcəyin möcüzəli güc mənbəyi



Səhifə ⇨ 13

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Birləşmiş Ştatlar adından Sizi və Azərbaycan xalqını gözəl Novruz bayramı münasibətilə təbrik edirəm. Novruz hamı üçün sülh, çiçəklənmə və yenilənmə bayramıdır.

Ölkələrimiz birgə işləmək sahəsində zəngin tarixə malikdir və mən qarşıdan gələn illərdə əldə edə biləcəyimiz möhtəşəm məqamları səbirsizliklə gözləyirəm. Azərbaycanın tərəfdaşımız İsrailə dəstəyini və onunla dostluğunu dəyərləndirir, ölkənizin və Ermənistanın regiona sülh gətirmək üçün atdığı addımları alqışlayıram.

Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır.

**Səmimiyyətlə,**

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***





# R.S.Qvaladzenin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının məhkəmə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rafael Sergeyeviç Qvaladze 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 aprel 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Sizi mübarək Ramazan bayramı münasibətilə təbrik edirəm.

Zati-alinizə ən xoş arzularımı bildirirəm.

Bayramınız mübarək!

**Hörmətlə,**

***Prabovo SUBİANTO,***
***İndoneziya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə və bütün ailə üzvlərinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Uca Allahdan oruc və dualarımızı qəbul etməsini və bütün İslam ümmətinə səadət, cansağlığı, xeyir-bərəkət nəsib etməsini diləyirəm.

Bayramınız mübarək!

**Hörmətlə,**

***Musa Al-KUNİ,***
***Liviya Dövləti Prezident Şurası Sədrinin müavini***

***

**Hörmətli İlham Heydər oğlu!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qoy Ramazan ayında görülmüş xeyirxah işlər və edilmiş dualar qəbul olunsun, bu bayram hər bir ailəyə xeyir-bərəkət gətirsin. Böyük Yaradanımız qəlblərimizi iman ruhu ilə işıqlandırsın, ölkələrimizə sülh, xalqlarımıza həmrəylik bəxş etsin.

Hörmətli İlham Heydər oğlu, yüksək dəyərləri aşılayan bu bayram münasibətilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq diləyirəm.

**Səmimi arzularla,**

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Zati-aliləri!**

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi təbrik edirəm.

Sizə xoşbəxtlik və rifah arzulayıram.

Bayramınız mübarək!

**Hörmətlə,**

***Gibran Rakabuminq RAKA,***
***İndoneziya Respublikasının vitse-prezidenti***

# Baş nazir Əli Əsədov Moldova Baş nazirinin müavini ilə görüşüb



**Aprelin 10-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Moldova Respublikası Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Vladimir Bolea ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Azərbaycan-Moldova dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub.

Bakıda keçiriləcək Azərbaycan Respublikası və Moldova Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 6-cı iclasının iki ölkənin qarşılıqlı faydalı əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Ticarət, investisiyalar, neft-qaz, yaşıl enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar və bir çox digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Görüşdə Azərbaycanın kənd təsərrüfatı naziri, Birgə Hökumətlərarası Komissiyanın həmsədri Məcnun Məmmədov da iştirak edib.

***XQ***

# Qərbi azərbaycanlı qadınların BMT-yə müraciəti

**Xəbər verdiyimiz kimi, 2025-ci il martın 1-də Qərbi Azərbaycan İcması Qadınlar Şurasının təşkilatçılığı ilə onlayn formatda “Qaçqınlıq və Qadınlar” mövzusunda beynəlxalq konfrans keçirilib.**

8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində keçirilmiş konfransın məqsədi beynəlxalq ictimaiyyətin diqqətini Qərbi azərbaycanlı qadınların etnik təmizləməyə məruz qalmaları və öz evlərinə qayıda bilməmələrindən irəli gələn hüquq pozuntularına cəlb etmək idi. Konfrans iştirakçıları adından beynəlxalq ictimaiyyətə müraciət qəbul edilib.

İcmadan bildirilib ki, sözügedən müraciət BMT-nin Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb. Bu da Qərbi Azərbaycan məsələsi üzrə beynəlxalq məlumatlılığın artmasında mühüm rol oynayır.

***XQ***

# Prezident İlham Əliyevin son çıxışı dünya mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 9-da ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda çıxışı dünya mediasının diqqət mərkəzində olub.**







Nüfuzlu “Reuters” agentliyinin “Azərbaycan Aİ-ni qaz dəhlizinin genişləndirilməsi ilə bağlı maliyyə məhdudiyyətlərini yenidən nəzərdən keçirməyə çağırır” sərlövhəli məqaləsində Prezident İlham Əliyevin aşağıdakı fikirləri təqdim edilib: “Avropanın enerji təhlükəsizliyi problemləri bizə məlumdur. Hazırda onların təhlükəsiz şəraitdə olmasına baxmayaraq, orada sənayenin tələbatları bizə bəllidir. Hətta “yaşıl enerji”yə olan tələbatı da bilirik. “Yaşıl enerji”yə böyük sərmayələrin yatırılmasına baxmayaraq, Avropa İttifaqında yenə də elektrik enerjisi çatışmır və bu məqsədlə hazırda Azərbaycandan Qara dənizin dibi ilə Rumıniyaya çəkiləcək “yaşıl enerji” kabeli üzərində işləyirik”.

Agentlik əlavə edib ki, Prezident İlham Əliyev Avropa İnvestisiya Bankının faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini tam dayandırdığını diqqətə çatdırıb. O qeyd edib ki, faydalı qazıntıya tətbiq edilən embarqo aradan qaldırılmalıdır. Azərbaycanın dövlət başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın tədbirlərinə diqqət çəkib.

Rusiya mediası Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda çıxışını geniş işıqlandırıb, dövlətimizin başçısının çıxışında dünya nizamında baş verən transformasiya, ABŞ ilə münasibətlər, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri, Ermənistan–Azərbaycan münasibətləri mövzularına diqqət çəkib.




TASS agentliyi Azərbaycan Prezidentinin çıxışını əhatə edən bir sıra materiallar dərc edib. Materiallarda vurğulanır ki, regionda vəziyyətin inkişafı Ermənistanın mövqeyindən asılıdır. Bildirilir ki, Azərbaycan Ermənistan tərəfi ilə qarşılıqlı etimada əsaslanan mexanizmlərin qurulmasına hazırdır, lakin Bakı təhlükəsizlik məsələlərində prinsipial mövqeyini qoruyur.

TASS, həmçinin Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın komandasına USAID-in qanunsuz fəaliyyəti ilə bağlı faktların təqdim ediləcəyi barədə bəyanatına diqqət çəkib.

“RIA Novosti” agentliyi də Prezident İlham Əliyevin çıxışı ilə bağlı bir neçə material yayımlayıb. Burada USAID-in fəaliyyəti ilə bağlı sərt tənqidlər, Qərbin müdaxilə cəhdləri və Trampın qələbəsindən sonra ABŞ–Azərbaycan münasibətlərindəki dəyişikliklər əksini tapıb. Prezident İlham Əliyev bildirib ki, Bakı yeni administrasiyadan daha praqmatik yanaşma gözləyir.

“İnterfaks” agentliyi Prezident İlham Əliyevin ABŞ-ın yeni administrasiyasına konkret faktların ötürülməsi barədə bəyanatının beynəlxalq əhəmiyyətinə diqqət yetirib. “Lenta.ru” portalı Prezident İlham Əliyevin ABŞ ilə münasibətlərin yaxşılaşması barədə bəyanatını oxuculara təqdim edib. “İzvestiya” qəzeti USAID-in fəaliyyəti ilə bağlı kompromat xarakterli materialların Tramp komandasına təqdim olunacağı fikrini ön plana çəkib. “Vestnik Kavkaza” agentliyi ABŞ-da keçirilən prezident seçkilərində Donald Trampın qələbəsinin Ermənistan üçün məyusedici nəticə olduğunu vurğulayıb.

Belarusun “Belta” dövlət informasiya agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq forumundakı çıxışına dair məqalə dərc edib. “Əliyev: Bakı USAID-in qanunsuz fəaliyyəti ilə bağlı faktları Trampın komandasına təqdim edəcək” sərlövhəli materialda dövlətimizin başçısının USAID-in qanunsuz fəaliyyəti ilə bağlı fikirlərinə geniş yer verilib.

Moldovanın nüfuzlu “Noi” xəbər portalında Prezidenti İlham Əliyevin beynəlxalq forumdakı çıxışına dair geniş məqalə dərc edilib. Rumın və rus dillərində dərc olunan “İlham Əliyev: Sülh sazişi ilə bağlı top Ermənistanın tərəfindədir” sərlövhəli məqalədə sülh sazişinin imzalanması perspektivinə dair dövlətimizin başçısının fikirlərinə geniş yer ayrılıb.

Türkiyənin rəsmi “Anadolu” agentliyi və geniş auditoriyaya malik “Sabah” qəzetinin “Əliyev Müstəqilliyinin tanınması üçün ŞKTC-nin yanında olacağını söylədi” və “Əliyev ŞKTC-yə dəstəyini ifadə etdi” sərlövhəli materiallarnda qeyd olunur ki, Azərbaycan Prezidenti 44 ölkədən 80-dən çox ekspertin iştirak etdiyi “Yeni dünya nizamına doğru” beynəlxalq forumundakı çıxışında ŞKTC ilə münasibətlərə toxunaraq Şimali Kiprin lideri Ersin Tatarla təmasları davam etdirdiyini bildirib. “İlham Əliyev Azərbaycanın ŞKTC-nin Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi üzv olmasında fəal rol oynadığını, Ersin Tatarı Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşünə dəvət etdiyini deyib.

Qardaş ölkənin “Haber7” portalında dərc olunmuş “Əliyev: Türkiyə və İsrail münasibətləri bizi narahat edir” sərlövhəli məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev hər iki ölkənin Azərbaycanın dostu olduğunu vurğulayaraq qeyd edib: “Biz Türkiyə ilə müttəfiqik. Biz 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışıq və rəsmi surətdə müttəfiq olmuşuq”.

Türkiyənin “Milliyet” qəzeti isə dövlətimizin başçısının beynəlxalq forumda çıxışı barədə “Əliyev: Rusiya ilə Ukrayna arasında yaxın gələcəkdə sülhün təmin ediləcəyi real görünmür” sərlövhəli məqalə dərc edib. Geniş məqalədə Prezident İlham Əliyevin Rusiya–Ukrayna münaqişəsinə, həmçinin türk dövlətləri ilə əməkdaşlığın dərinləşdirilməsinə dair fikirləri yer alıb.

Qardaş ölkənin “Haber Global” telekanalı isə “İlham Əliyevdən Türkiyə ilə müttəfiqlik mesajı” adlı reportaj yayımlayıb. Aparıcı dövlətimizin başçısının beynəlxalq forumdakı çıxışında Türkiyə ilə müttəfiqlik əlaqələrinin möhkəmlənməsinə dair fikirləri fonunda diqqəti iki qardaş ölkənin liderləri – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Qarabağda, Şuşada görüşlərini əks etdirən videomateriallara çəkib.

“Yeni Şafak” qəzetinin birinci səhifəsində dərc olunmuş “Əliyev qətiyyətlə bildirdi: ŞKTC-nin yanında olacağıq”, “Cümhuriyyet” nəşrinin “İlham Əliyev: Hər zaman ŞKTC-nin yanındayıq və onun müstəqil dövlət qurmasını təmin edəcəyik”, həmçinin “Türkiye”, “Hibya” və qardaş ölkənin digər mətbuat orqanları, həmçinin Şimali Kiprin TAK rəsmi agentliyi, “Kıbrıs Postası” qəzeti dövlətimizin başçısının Şimali Kipr haqqında fikirlərini ön plana çıxarıblar.

Rumıniyanın və Bolqarıstanın qabaqcıl mediası Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən “Yeni dünya nizamına doğru” beynəlxalq forumdakı çıxışını geniş işıqlandırıb və onunla bağlı məqalələr dərc edib.

Rumıniyanın “AGERPRES” milli xəbər agentliyi, “G4media”, “Bursa”, “Income”, “Stiripesurse”, “Profit”, “Capital”, “Flux24” və digər nüfuzlu nəşrləri, Bolqarıstanın “Dnevnik”, “5 minuti”, “News.bg” nəşrləri, “BNT1” milli televiziya kanalı Azərbaycan Prezidenti İlham Əiyevin çıxışına istinadla “Azərbaycan Avropa İttifaqını qaz ixracının genişləndirilməsinə dair maliyyə məhdudiyyətlərini yenidən nəzərdən keçirməyə çağırır” sərlövhəli məqalələr dərc edib. Məqalələrdə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə görə, Avropa İttifaqı Azərbaycandan təbii qaz idxalını davam etdirmək istəyirsə, uzunmüddətli qaz alqı-satqı müqavilələri və maliyyə modellərini yenidən nəzərdən keçirməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq forumda çıxışı ərəbdilli mediada da geniş işıqlandırılıb. “Əl Hərir” portalında dərc olunmuş məqalədə dövlətimizin başçısının Çinlə iqtisadi əlaqələrin əhəmiyyətinə dair fikirləri yer alıb. “Addiyar” nəşri isə Prezident İlham Əliyevin ölkəmizin İslam dünyasında yeri ilə bağlı fikirlərini təqdimi edib.

***XQ***

# Qafqaz evi: Prinsipiallığımız illüziyanı reallığa çevirir




**(əvvəli 1-ci səhifədə)**

Deməli, strateji əhəmiyyətli Qafqaz evi ideyası dayanıqlı barış mühiti formalaşmadan mümkünsüzdür. Şübhəsiz, ekspertin dedikləri onun şəxsi qənaətindən yox, ümumi strateji yanaşmadan qaynaqlanır. "Əmma"sı ondadır ki, bu nəticəyə gec gəlinib. Gecikən bütövlükdə Avropa, daha böyük anlamda yanaşsaq, beynəlxalq ictimaiyyətdir. Əlbəttə, başqa "əmma"lar da var və yazımızda onlara aydınlıq gətirəcəyik.

Qərb dünyası ötən əsrin 90-cı illərinin sonlarına doğru nisbətən passiv, hazırda yaşadığımız əsrin ilk illərində isə aktiv məcrada reallaşdırmağa girişdiyi Qafqaz evi ideyasını müxtəlif donor qurumların və fondların regional layihələrinin başlıca mövzusuna çevirmişdi. Yəqin, Azərbaycan və Ermənistan cəmiyyətlərini yaxınlaşdırmaq yönümlü "xalq diplomatiyası" adlı illüziya bir çoxlarının xatirindədir. Təşəbbüsün məğzi bu idi: hər iki ölkənin ziyalıları, əsasən, media təmsilçiləri bir-biri ilə təmaslar quracaq, nəticədə ziddiyyətlər səngiyəcək, hər şey unudulacaq, Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevriləcək. Başlıca sual belə bir məkana nə üçün ehtiyacın duyulması ilə bağlı idi.

Əlqərəz, Qafqaz evi ideyasının reallaşması naminə Qərbdən Azərbaycandakı, Ermənistandakı və Gürcüstandakı müxtəlif ictimai birliklərə, media təşkilatlarına layihə şəklində külli miqdarda vəsait yönəlirdi. Ziddiyyətlərin, münaqişələrin, habelə işğal faktının düşüncələrdən silinməsini təmin edəcək bu vəsait hər üç ölkənin cəmiyyətində yetişdirilmiş beynəlmiləlçi zənguləli pasifistlər ordusu tərəfindən xərclənirdi. Bakıda, Tbilisdə və İrəvanda düzənlənmiş çoxsaylı konfranslar, seminarlar isə formal xarakter daşıyır, çıxışçılar boş söz yığını ilə kifayətlənirdilər. Habelə, Qərbin "xalq diplomatiyası"na ictimai dəstəyi həmin tədbirlərdən sonra keçirilmiş banketlərdəki boğazdanyuxarı tostlardan o yana keçmirdi. Gürcüstanla bağlı durum fərqli idi. Azərbaycandakı və Ermənistandakı "sülh qaranquşları"na gəlincə, onlar üzərilərinə düşən "missiyanı" yerinə yetirə bilmədilər. Yəni nə Ermənistandakı şovinist ab-havanı səngitdilər, nə də Azərbaycanın geniş kütlələrinə xitab edib işğalı ikinci plana atmağı bacardılar. Nəhayət, Qərb durumun səmərəsizliyini anladı.

Onu da bildirək ki, Qafqaz evi təşəbbüsünün yekun məqsədi Azərbaycan, Ermənistan və Gürcüstan arasında sərhəd və gömrük nəzarəti olmayan vahid məkanı yaratmaq idi. Elə məkan ki, onun şərtləri üç region ölkəsini Avropa İttifaqına üzvlük üçün hazır duruma gətirsin. Axı Qərb həm özünün ənənəvi tarixi stereotiplərinə, həm də səmərəlilik faktorlarına görə, Cənubi Qafqaza ayrılıqda yanaşa bilməzdi. Buradakı quruluşların Aİ ideyalarına yalnız müştərək xidməti nəzərdə tutulurdu.

Əlbəttə, detallarını açıqladığımız təşəbbüs səmiyyətdən uzaq idi. Təkcə ona görə yox ki, regionda erməni işğalının mövcudluğu nəzərə alınmır, dinc azərbaycanlıların qətlinə biganə yanaşılırdı. Həm də o səbəbdən ki, təşəbbüs qlobal məqsədin gerçəkləşdirilməsinə – Cənubi Qafqazın Rusiyaya tarixi bağlılığının sarsıdılmasına, yəni bölgənin Moskvanın təsir dairəsindən tamamilə uzaqlaşdırılmasına hesablanmışdı.

Azərbaycan özünün müstəqil siyasi xətti ilə hadisələrin belə cərəyan etməsinə razılıq verə bilməzdi. Əvvəla, hansısa azərbaycanlı, məsələn, Xankəndiyə, yaxud Şuşaya Aİ-də təmsil olunacaq vahid Cənubi Qafqaz məkanının nümayəndəsi statusunda getmək istəməzdi. Çünki qədim şəhərlərimiz Ermənistanda idi, işğal barışılacaq reallıq sayıla bilməzdi. Azərbaycan iqtidarı da buna razılıq verməzdi.

Balanslı siyasət kursuna sadiq dövlətimiz, eyni zamanda, Qərbin "Çörək və tamaşa" vədina inanmır, regionun qlobal rəqabət meydanına çevrilməsinin mümkünsüzlüyünü rəhbər tuturdu. Axı o zaman da aydın idi ki, Rusiya özünə qarşı qurulmuş oyunla barışmayacaq. Ölkənin prinsipiallığının ağır nəticələrini bu gün Ukraynadakı müharibə təsdiqləyir. Üstəlik, İran amili də diqqətdən yayına bilməzdi. Axı Qərbin anti-İran köklənişi o zaman da olub, indi də var.

Bəli, Qərb səmimiyyətdən uzaq davrandı, işğal faktına göz yumdu, Ermənistanın təcavüzkar əməlinə biganə yanaşdı. Ancaq Qərb Qafqaz evi təşəbbüsündə uğursuzluq yaşasa da, istəyindən geri durmadı, fərqli taktika seçdi. Tezliklə onun qrantlar hesabına formalaşdırdığı pasifist "sülh göyərçiləri" inqilabçılara çevrildilər.

Qərb üç Cənubi Qafqaz ölkəsində özünə uyğun hakimiyyətlərin formalaşmasına cəhd göstərdi və Gürcüstanda istəyinə nail oldu. Amma uğur müvəqqəti xarakter daşıdı. Mixeil Saakaşvili demokratiyasına Qərbin bu demokratiyanı saxlamaq üçün ayırdığı vəsait bitən kimi son qoyuldu. Daha doğrusu, xaricdə kimlərsə daimi əli cibində Gürcüstana pul ayırmaqdan yoruldu. Hər halda, quyuya su tökməklə sulu olmaz.

Yaşananlardan nəticə çıxarmayan ambisioz Qərb üzərindən illər keçdikdən sonra bu dəfə Ermənistan adlı "quyuya su tökmək" qərarına gəldi. Demokrat qiyafəsinə bürünmüş baş nazir Nikol Paşinyanın iqtidara yiyələnməsi fikrimizin sübutudur. Paşinyan hakimiyyəti üzərinə siyasi sərmayə yatıran Qərb Ermənistanı Cənubi Qafqazda demokratiyanı qalası, Nikolu isə cəngavər kimi qələmə verdi. Mövcud istiqamətdəki təbliğat o qədər güclü oldu ki, Paşinyan reallıq hissini itirdi. Ən əsası, Qərb erməni avantürizminə demokratiyanı Ermənistandan Azərbaycana yaymaq aləti qismində baxdı.

Nəticədə İrəvan yeni işğallara həvəsləndi. Paşinyan 2019-cu ildə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını elə-belədən verməmişdi. O, xaricdəki ağalarının təlimatına uyğun hərəkət kursu götürmüşdü. O ağaların ki, Azərbaycan müstəvisində "istəklərinə" çata bilməmiş, ölkəmizdəki xalq-hakimiyyət vəhdəti qarşısında çarəsiz qalmışdılar. Yeri gəlmişkən, Nikol yenə öz ampluasındadır. Qərb isə əvvəlki illərdən fərqli olaraq, hazırda daha açıq oyuna üstünlük versə də, uğur qazanmayan saxta beynəlmiləlçilikdən uzaq durur.

Qətiyyətlə demək olar ki, Azərbaycan Cənubi Qafqaz müstəvisindəki məkrli planları pozdu. Ölkəmiz bunu 44 günlük müharibədə qalib gəlməklə etdi. Zəfər dövlətimizə Qərbin siyasi şantajlarına əhəmiyyətsiz yanaşmaq, onlara məhəl qoymamaq imkanı və potensialını qazandırdı. Ərazi bütövlüyünə və suverenliyinə qovuşmuş Azərbaycan, həmçinin Cənubi Qafqazda diktə edən tərəfə, aktora çevrildi.

*

Bəli, hazırda Prezident İlham Əliyev mahiyyətində Qafqaz ideyası dayanmış suala məhz müzəffər rəhbər, regionda söz sahibinə çevrilmiş Azərbaycanın lideri kimi cavab verir və bildirdikləri həm də Qərbin vaxtilə tutduğu yolun yanlışlığının izahıdır. Məsələn, dövlətimizin başçısı bildirir: "Əfsuslar olsun ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı Cənubi Qafqaza nisbətən inteqrasiya olunmuş region kimi inkişaf etməyə imkan vermədi. Bizim hamımızın buna imkanı var idi. Lakin Azərbaycan xalqına qarşı təcavüz və onun iztirabı bunun reallaşmasına imkan vermədi. Beləliklə, Cənubi Qafqaz inteqrasiya olunmamışdı. Buna baxmayaraq, iqtisadi və nəqliyyat marşrutları və əlbəttə ki, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən bu, baş verə bilərdi. Azərbaycanla Gürcüstan arasındakı münasibətlərə baxsaq, indicə qeyd etdiyim enerji təhlükəsizliyi, daşımalar, siyasi dialoq, investisiyalar, iqtisadi üstünlüklər kimi bütün bu seqmentləri görə bilərik".

Prezident İlham Əliyev Beynəlxalq Sülh İnstitutunun təmsilçisi S.Fenkartın sualını cavablandırarkən onu da bildirib ki, Ermənistan işğalçılıq siyasəti, illər ərzində tutduğu qeyri-konstruktiv mövqeyi ilə özünü Azərbaycanın enerji resurslarından faydalanmaqdan, nəqliyyat marşrutları üçün önəmli tranzit məmləkətə çevrilməkdən məhrum etdi. Halbuki, ölkənin bunun üçün real şansları var idi. Elə bir şanslar ki, onlardan bəhrələnmək təkcə Ermənistanın iqtisadi potensialını, əhalisinin rifahını gücləndirməyəcəkdi, eyni zamanda, onun daha çox dividend vəd edən Qafqaz evi təşəbbüsündə oturuşmuş davamlı iştirakçılığını şərtləndirəcəkdi. Əlbəttə, söhbət həmin təşəbbüsün Qərb trayektoriyasında deyil, müstəqil xəttində təmsilçilikdən gedir. O xətt ki, prinsip etibarilə heç kəsə qarşı yönəlməyib, siyasi məqsəd güdmür, yalnız iqtisadi inkişafı və rifahı rəhbər tutur.

Bəli, məhz bu formulun yaradılması imkanları olub və yenə var. Diqqət yetirək, hazırda Cənubi Qafqazın qlobal ticarət imkanlarından söz açan beynəlxalq ekspertlər region ölkələri arasında sadələşdirilmiş sərhəd keçidi və gömrük şərtlərinin tətbiqinin əhəmiyyətini qabardırlar. Mövzu bu günlərdə Özbəkistanda düzənlənmiş Avropa İttifaqı – Mərkəzi Asiya Forumunda da müzakirə olunub. Prezident İlham Əliyev isə bildirib ki, neft, qaz və ya yük daşımaları məntiqindən asılı olmayaraq, Azərbaycandan gələn bütün tranzit Gürcüstandan keçir. Deməli, Bakı ilə Tbilisinin sağlam təməllərə əsaslanmış münasibətləri sərhəd xətlərinin asan aşılması üçün qarşılıqlı inam və etimada əsaslanmış münbit zəmin formalaşdırır. Tam mümkündür ki, gələcəkdə iki ölkə arasında sərhədlər tamamilə aradan qalxsın. Eynilə Avropa ölkələrindəkitək. Çünki Azərbaycan hakimiyyəti kimi, Gürcüstan iqtidarı da regional məsuliyyətin parametrlərini düzgün qiymətləndirmək bacarığındadır. Müstəqil mövqeyi olmayan Ermənistan isə illər ərzində bütün siyasi sərmayəsini yalnız bəsit yanaşmalı, keçmişin qalığına çevrilmiş avantürizmi bəsləməyə yönəldib. Ona görə də dövlətimizin başçısı vurğulayır ki, proqmatizmdən uzaq yanaşma və "böyük Ermənistan" xülyası həqiqi müstəqilliyin qurban verilməsinə gətirib və bunun təqsirkarı ölkəni idarə edənlərdir.

Ermənistan otuz ilə yaxın müddətdə avantürist yolu Rusiyaya arxalanmaqla gedib. İndi onun sığındığı Qərbdir. O Qərb ki, anti-Rusiya mövqeyinə ara vermir. Rəsmi İrəvan isə hazırda Bakının sülh şərtləri ilə razılaşmamaqla, xəstə təfəkkürün təzahür formalarını qorumaq istiqamətində aciz cəhdlər göstərməklə, əvvəllərdəki kimi, Cənubi Qafqazın tam funksionallığını zədələyir, inkişafını əngəlləyir.

Bəli, indi də Qərbin Rusiyaya qarşı çıxdığını görürük. Birincinin əvvəl erməni işğalına dolayı haqq qazandırdığı məlumdur, indi isə onun hay məkrinə istinad nöqtəsi saxlamaqla, avantürizmə dəstək cəhdi diqqətimizdən yayınmır. Belə bir şəraitdə Qafqaz evi təşəbbüsü yalnız nəzəri ideya kimi qalır. İstər-istəməz sual yaranır: Tutaq ki, Qərbin və ya Rusiyanın öz məqsədləri var və bu, müəyyən mənada təbiidir. Görəsən, Ermənistan müstəqil orqanizmə malik Cənubi Qafqaz platformasında iştirakçılığın əhəmiyyətini niyə dərk etmir? Belə suallar çoxdur və onlara vaxt sərf etmək mənasızdır. Çünki vaxt itkisi yolverilməzdir. Əslində, Prezident İlham Əliyevin bildirdikləri də bu yolverilməzlik haqqında düşünmək çağırışıdır. Amma rəsmi İrəvan yaşadığımız coğrafiyanın perspektiv inkişaf imkanlarından söz açan dövlətimizin başçısının "Azərbaycan və Ermənistan arasında saziş imzalananda və imzalandığı təqdirdə, əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq" fikrinə həssas yanaşmır. Şansı qaçırmaq məhz budur.

Dövlətimizin başçısı son günlərdə Bakı – İrəvan barış sazişinə toxunarkən, artıq ikinci dəfədir topun Ermənistanda olduğunu bildirir, paralel surətdə prinsipial məqam açıqlayır: Ölkəmizin sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərt yerinə yetirilməlidir. O iki şərt ki, erməni avantürizminin perspektivdə yenidən baş qaldırmayacağına maksimum təminat mahiyyəti daşıyır. O şərtlər ki, onlara həssas münasibət həm də Bakı ilə İrəvan arasında etimad quruculuğuna müstəsna töhfədir.

*

Sonda belə qənaətə gəlmək mümkündür ki, Prezident İlham Əliyevin Beynəlxalq Sülh İnstitutunun təmsilçisi S.Fenkartın sualına cavab olaraq vurğuladığı məqamlar Cənubi Qafqaz evi təşəbbüsünün həm müstəqil strukturunun təsviri, həm də sözügedən təşəbbüsün indiyədək gerçəkləşməməsinin izahı baxımından son dərəcə vacibdir. Dövlətimizin başçısının bu cür izahdan sonra "Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq" şəklində fikir bildirməsi isə təkcə Ermənistanı yox, eyni zamanda, dünyanın mütərəqqi kəsimini düşündürməlidir. Çünki ölkəmizin lideri hadisə və proseslərə real müstəvidə yanaşır.

Ümumən, Azərbaycanın irəli sürdüyü, konfiqurasiyasını hazırladığı real düzən "Cənubi Qafqazın üç ölkəsinin xeyrinə" olsa da, onun özünün də obyektiv çalarları var. Ona görə Prezident Əliyev vurğulayır ki, "biz dərhal Ermənistanla dost olacağımızı təsəvvür edə bilmərik". Yəni Bakı – İrəvan sülh sazişi imzalanacağı təqdirdə də, bir vaxtlar Qərbin israrla sırımağa çalışdığı beynəlmiləlçi, ultra liberal qiyafəyə bürüdüyü kosmopolit ab-havanın formalaşması mümkünsüzdür. Bununla belə, müştərək Qafqaz evi təşəbbüsü, daha doğrusu, həmin təşəbbüsün kənar təsirlərdən uzaq formulu naminə işləmək lazımdır. Yəni, regionun iqtisadi dinamizminin tam təminatı üçün nədənsə, haradansa başlamaq lazımdır. Yəni, Prezident Əliyevin topun Ermənistanda olduğunu vurğulaması kimi, "Ermənistan tərəfinin mövqeyini gözləyəcəyik" şəklində fikir bildirməsi adi məsələ deyil. Əgər İrəvan avantürizmi yaşatmaq niyyətindən uzaq dursa, sülh müqaviləsi imzalanacaq.

Nəzərə alaq ki, Prezident İlham Əliyev real barış mühiti üçün etimad quruculuğu tədbirlərinin mövzularını da açıqlayır. Söhbət, jurnalistlərin və ziyalıların təmaslarından, qarşılıqlı səfərlərindən və digər regional əhəmiyyətli məsələlər ətrafında müzakirələrin düzənlənməsindən gedir. Şübhəsiz, belə tədbirlər etimad quruculuğu baxımından praktik təsir gücünə malikdir və bunu dövlətimizin başçısı da diqqətə çatdırır: "Bu kiçik addımlarla biz etimadsızlığı azaltmağa çalışa bilərik. Etimadı qurmaq üçün illər tələb olunur, lakin ən azından etimadsızlığı azaltmaq olar, biz buna hazırıq".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–Gürcüstan: Mehriban qonşuluq və strateji tərəfdaşlıq

**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, dərindən düşünülmüş daxili və xarici siyasət, neft-qaz strategiyası nəticəsində Azərbaycan və Gürcüstan Avropa və Asiya arasında ticarət əlaqələrinin genişləndirilməsində mühüm rol oynayan, dünyanın neft və qaz mərkəzlərindən birinə çevriliblər. Bu, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa İttifaqı və Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin, əmtəə, kapital dövriyyəsinə və iqtisadi əlaqələrin inkişafına təkan verir.

İki ölkə arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə artır. Bu ilin yanvar – fevral aylarında Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin dəyəri 213 milyon 195 min ABŞ dolları təşkil edib. Gürcüstanın ümumi xarici ticarət dövriyyəsində Azərbaycanın payı 6 faiz təşkil edir.



Azərbaycan–Gürcüstan ikitərəfli əlaqələri beynəlxalq təşkilatlar çərçivəsində də uğurla inkişaf edir. Ölkərimiz bir-birinin milli maraqları ilə bağlı məsələlərə hər zaman həssaslıqla yanaşır və dəstək nümayiş etdirirlər. Əməkdaşlıqda hər iki xalqın qarşılıqlı təhlükəsizliyi, sabitliyi, ərazi bütövlüyü, inkişaf və rifahı önə çəkilir. Ekoloji, təhsil, rabitə və digər sahələr üzrə əməkdaşlıq genişlənir. Bakı ilə Tbilisi arasında mədəni əlaqələrdə də canlanma var. Bundan başqa, rəhbərlik səviyyəsində iki ölkə arasında xarici siyasət məsələləri ilə bağlı daim müxtəlif səviyyələrdə məsləhətləşmələr aparılır. BMT, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində Azərbaycan və Gürcüstan bir-birinə dəstək verirlər. Məhz bunun nəticəsidir ki, Azərbaycan Gürcüstanın ərazi bütövlüyü məsələsində birmənalı şəkildə Tbilisini dəstəkləyir. Gürcüstanın ərazi bütövlüyü Azərbaycan qədər heç bir ölkə tərəfindən dəstəklənməyib. Gürcüstan da Azərbaycana qarşı eyni addımı atır. Beynəlxalq qurumlarda Azərbaycanın mövqeyindən çıxış edir.

Azərbaycan Prezidenti İlham Əliyev qonşu dövlətlə əlaqələrin inkişafına xüsusi önəm verir. Dövlət başçımız ADA Universitetində "Yeni dünya düzəninə doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı dedi ki, Gürcüstan bizim üçün strateji əhəmiyyətə malikdir: "Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı anlaşma, dostluq və tərəfdaşlıq yüksək səviyyədədir. Bunun sayəsində biz Cənubi Qafqaz regionunu strateji əhəmiyyətli bölgəyə çevirə bildik. Bunu, sadəcə, özümüz – Azərbaycan və Gürcüstan etdi. Xəzər dənizi və Qara dəniz arasında yerləşdiyimizdən biz müxtəlif region və qitələr ilə təmasda olmaq üçün bir növ keçid rolunu oynayırıq. Əminəm ki, perspektivlər cari vəziyyət qədər parlaq olacaqdır. İki ölkə arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunəsi kimi Gürcüstan Baş nazirinin ölkəmizə səfərini qeyd edə bilərəm. Bu, onun seçkilərdən sonra ilk xarici səfəri idi. Adətən, seçkilərdən sonra ilk xarici səfərin rəmzi mənası var. Beləliklə, ilk səfər Azərbaycana edildi və tezliklə seçkilərdən sonra Gürcüstan Prezidenti də ilk xarici səfərini Azərbaycana edəcək. Beləliklə, bu iki fakt münasibətlərimizin, qarşılıqlı sadiqliyimizin və dostluğumuzun aydın göstəricisidir".

Dövlət başçımız daha sonra qeyd edib ki, bizi birləşdirən layihələrdən çox danışa bilərik. Onlar yaxşı məlumdur... Ancaq bu layihələr yalnız bizim xalqlarımız və ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün vacibdir. Hazırda isə biz buraya "yaşıl" gündəliyi əlavə edirik. Biz artıq buna qısa şəkildə toxunduq. Bu, Azərbaycan və Gürcüstan üçün yaşıl dəhlizdir. Bu, nəqliyyat dəhlizidir, Orta Dəhlizdir – bunlar qaçılmazdır.

*



**Mövzu ilə bağlı Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov XQ-yə bildirdi:** "Azərbaycan – Gürcüstan birliyi onu göstərir ki, ortaq yanaşmalar iki dövlət arasında müxtəlif sahələrdə özünü göstərir. Bu birlik tarixən hər iki dövlətin güclənməsinə və öz maraqlarını effektiv şəkildə müdafiə etməsinə imkan yaradır. Bu, həm Gürcüstanın daxili siyasətinə, həm də Azərbaycanla əlaqələrin daha da güclənməsinə müsbət təsir göstərir. Üstəlik, regionda uzunmüddətli sülhün və sabitliyin bərqərar olmasına töhfə verir, Qafqazın gələcək inkişafına əlverişli şərait yaradır.

Gürcüstanda yaşayan azərbaycanlıları da unutmaq olmaz. Bu ölkədə baş verən siyasi proseslərdə azərbaycanlıların fəal iştirakı həm regionun sabitliyinə, həm də Azərbaycan – Gürcüstan münasibətlərinin inkişafına mühüm töhfə verir.

Bu gün biz strateji tərəfdaşıq, birliyimiz və qardaşlığımız daha da möhkəmlənib. Bütün məsələlərdə mövqeyimiz eynidir".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli XQ-yə dedi ki,** Azərbaycan – Gürcüstan əməkdaşlığı regionda ciddi dəyişikliyə səbəb oldu: "İlk növbədə regionun geosiyasi və geoiqtisadi arxitekturasını dəyişməklə beynəlxalq əhəmiyyətli layihələr həyata keçirildi. Bu layihələr həm Azərbaycan, həm də Gürcüstanın enerji təhlükəsizliyinin təmin olunmasında fövqəladə rol oynadı. Azərbaycan və Gürcüstanın geosiyasi mövqeyinin möhkəmlənməsinə, gəlirlərinin artmasına, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsinə şərait yaratdı. Bu tip layihələr Azərbaycan və Gürcüstanın iştirakı olmadan Mərkəzi Asiyadan başlayaraq Qafqazı keçməklə Türkiyə və Avropa istiqamətində uzanan enerji layihələrinin reallaşdırılmasının mümkün olmadığını göstərdi. Buna görədir ki, kifayət qədər böyük coğrafi məkanda yeni enerji layihələrinin reallaşmasında Azərbaycan və Gürcüstan açar rolunu oynayan ölkələr kimi qəbul olunurlar. Avropa və region ölkələri layihələrin reallaşması ilə enerji təlükəsizliyi baxımından yeni mənbələr, Azərbaycan isə uzunmüddətli və qanunlarla tənzimlənən bazarlar əldə etdi. Eyni zamanda, Azərbaycanın Gürcüstanın yanacaq təchizatında rolu artır.



Bu gün ARDNŞ Gürcüstanda ən çox vergi ödəyən xarici şirkətdir və onun dövlət büdcəsinin formalaşmasında böyük rolu var.

Gürcüstan və Azərbaycan təkcə özünü doğrultmuş müstəqil ölkələr deyil, həm də dinamik inkişaf edən, öz müstəqil inkişaf yolunu, həm regional, həm də qlobal xarakterli məsələlərə fəal qoşulan dövlətlərdir. Azərbaycan üçün Gürcüstan qardaş dövlət və strateji tərəfdaş olmaqla yanaşı, həm də Azərbaycanın yaxın müttəfiqidir. Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir".

Beləliklə, Azərbaycanın mövcud enerji strategiyası ilə yanaşı, ümumilikdə, həyata keçirdiyi xarici siyasəti uzaq məqsədlərə hesablanıb. Bu siyasət, eyni zamanda, hər iki ölkənin inkişafına xidmət edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Zəfərə zəmin hazırlayan seçki

## Ekspertlər 2018-ci il 11 aprel prezident seçkilərini belə xarakterizə edirlər

**Müstəqillik dövrümüzün siyasi tarixinə nəzər salanda iki dəfə növbədənkənar prezident seçkilərinin keçirildiyinin şahidi oluruq. Birincisi 44 günlük İkinci Qarabağ müharibəsindən təxminən iki il yarım əvvəl – 2018-ci il aprelin 11-də, ikincisi isə işğalçı Ermənistan üzərindəki şanlı Zəfərimizdən təxminən 3 il 3 ay sonra – 2024-cü il fevralın 7-də keçirilmiş seçkilər. Mütəxəssislərin fikrincə, 2018-ci il seçkiləri bizim ərazi bütövlüyümüzün bərpası istiqamətində on illər boyu apardığımız siyasi-diplomatik mübarizənin Ermənistan və onun havadarları tərəfindən lazımınca qiymətləndirilmədiyinə görə daha qətiyyətli addımlar atılmasına zəmin yaratmışdısa, ikinci növbədənkənar prezident seçkiləri dövlət başçımıza ölkənin bütün ərazilərində səs verilməsini təmin etmək məqsədini daşıyırdı.**

2018-ci ildə Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü dövlət rəhbərliyi tərəfindən müsbət qarşılanmış, Azərbaycan Prezidenti İlham Əliyev həmin təşəbbüsə uyğun olaraq fevralın 5-də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" sərəncam imzalamışdı. Sərəncama əsasən seçkilər 2018-ci il aprelin 11-nə təyin edilmiş və yüksək səviyyədə reallaşdırılmışdı.

Səsvermənin ilkin nəticələri elan edildikdən dərhal sonra Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində xüsusi olaraq vurğulamışdı ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən geriyə bir addım da olsun atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir: "Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan Bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdırlar".

Azərbaycan xalqının növbəti dəfə öz qətiyyətli liderinə səs verməsi, üstəlik, seçkilərdən dərhal sonra Prezident İlham Əliyevin "Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur", – deyə düşmənə xəbərdarlıq etməsi nəinki Ermənistan rəhbərliyini, həm də beynəlxalq aləmdəki erməni lobbisini və anti-Azərbaycan qüvvələri çox ciddi şəkildə narahat etmişdi. USAID-in maddi dəstəyi və sorosçuların düzüb-qoşduğu planla , yəni "məxməri inqilab"la Ermənistan rəhbərliyinə gətirilmiş Nikol Paşinyan dərhal bəyan etmişdi ki, Azərbaycan Qarabağ münaqişəsinin həllini istəyirsə, onda "Artsax" rəhbərliyi ilə danışsın. Yəni bu gerizəkalı adam Azərbaycan Prezidentinin Xankəndidə məskən salmış vəhşi təfəkkürlü quldurlarla danışıq masası ətrafında oturmasını təklif edirdi.



Yeri gəlmişkən, bu adam 2016-cı ildəki Aprel döyüşlərindən sonra – hələ müxalifətdə olanda – daha dərindən sarsaqlamışdı: "Diplomatik sahədə isə Artsax danışıqlar masasında əyləşməlidir. Ermənistan aydın şəkildə bildirməlidir ki, Qarabağın təmsilçiləri olmadan Qarabağ ilə bağlı danışıqlara getməyəcək. Heç kim Qarabağ təmsilçiləri olmadan danışıqlar aparmaq səlahiyyətinə malik deyil. Qarabağın tanınması isə konfliktin həlli yollarından biridir".

Ancaq 2018-ci ilin 11 aprel prezident seçkiləri Azərbaycan Prezidentinin "əlini elə möhkəmləndirdi" ki, biz nəinki separatçı "Artsax"ın mövcudluğuna son qoyduq, hətta haqqında miflər yaradılmış işğalçı Ermənistan ordusunun diz çökdürülməsini, bu əldəqayırma dövlətin üç prezidentinin və bir baş nazirinin regionda və dünyada rüsvay olunmasını təmin etdik.

Qətiyyətlə deyə bilərəm ki, bu gün Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Azərbaycan ərazisidir", yaxud, "Biz Azərbaycanla sülh sazişi imzalamağa hazırıq" deməsinin təməlində 2018-ci il aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkilərinin nəticələri dayanır. Birmənalı həqiqətdir ki, Azərbaycanın 2020-ci ilin payızında yaratdığı yeni reallıqların əsas səbəblərindən biri də məhz 2018-ci

**Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.**

**Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətindən
Bakı, 11 aprel 2018-ci il**

ilin aprel seçkiləri idi. Yəni cənab Prezidentin özünün də dediyi kimi, nəyi, nə zaman, necə etmək lazım olduğunu dövlət başçımız hamıdan yaxşı bilir.

Mütəxəssislər yazırlar ki, 2018-ci ildə növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən bir neçə xüsusi məqam var idi. Qeyd etdiyimiz kimi hər şeydən əvvəl, Azərbaycan ərazilərinin uzun illər boyu davam edən işğalına tezliklə son qoymaq üçün dövlətin daha da gücləndirilməsi bu addımı zəruri edirdi. İkinci, ölkə daxilində islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə etimadının bir daha sınaqdan çıxarılmasına, güvənməsinə əmin olmaqdan ötrü növbədənkənar seçkilərin keçirilməsi lazım idi. Üçüncü, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını irəli sürürdü. Nəhayət, dördüncü, regional və qlobal miqyasda proqnozlaşdırılmayan proseslər getdiyindən keçirilən daha bir demokratik seçki həm də Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirə bilərdi. Xatırladaq ki, nəzərdə tutulan bu tezislərin hamısı yüksək səviyyədə özünü doğrultdu və ardıcıllıqla reallaşdırıldı.

Onu da əlavə edək ki, həmin seçkilərdə ölkənin siyasi palitrasını əhatə edən əsas partiyaların, demək olar ki, hamısı iştirak edirdi. Təkcə onu xatırlatmaq kifayətdir ki, prezidentliyə namizədlər arasında yeddi siyasi partiyanın təmsilçisi var idi. Güman edirəm ki, həmin partiyaların və namizədlərin adlarını sadalamağımız yerinə düşər:

Prezident İlham Əliyevin namizədliyi Yeni Azərbaycan Partiyası, Araz Əlizadənin namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası, Qüdrət Həsənquliyevin namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Fərəc Quliyevin namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası, Hafiz Hacıyevin namizədliyi Müasir Müsavat Partiyası, Sərdar Məmmədovun namizədliyi Azərbaycan Demokrat Partiyası, Razi Nurullayevin namizədliyi Cəbhəçilərin təşəbbüs qrupu, Zahid Orucun namizədliyi isə özü tərəfindən irəli sürülmüşdü. Həmin seçki həm də Azərbaycanda hansı partiyanın nə qədər elektoratı olduğunu da ortaya qoymuşdu, siyasətçilərin xalq arasındakı nüfuzunu da.

Həm də bu nəticələri tək biz, daha doğrusu, Azərbaycanın Mərkəzi Seçki Komissiyası deyil, bir neçə nüfuzlu beynəlxalq təşkilat da təsdiqləmişdi. Hamının yadındadır ki, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq "exit-poll" keçirməkdən ötrü Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası "AJF&Associates İnc." təşkilatı, ABŞ-ın Vətəndaş Cəmiyyəti Uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi, "Opinion Way Sosioloji" Tədqiqatlar İnstitutu, Fransanın "ELS" Müstəqil Araşdırmalar Mərkəzi və Rəy Monitorinq Mərkəzi MSK-da qeydiyyatdan keçmişdilər. Avropalı müşahidəçilər "exit-poll"ların nəticələri ilə MSK-nın nəticələri arasında cüzi fərq olduğunu görəndə mat qalmışdılar. Halbuki, onların bəziləri MSK-nın deyil, "exit-poll" keçirən qurumların nəticələrinə inanacaqlarını söyləmişdilər.

Beynəlxalq müşahidəçilərin MSK ilə "exit-poll" keçirən qurumların nəticələri arasında elə də ciddi fərq olmadığını söyləməsi bir daha sübut etmişdi ki, ölkəmizdə vətəndaşlar dövlətin gələcək inkişafını məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasi kursun Prezident İlham Əliyevin mövcud şəraitə uyğun olaraq davam və inkişaf etdirilməsində görür. Azərbaycan xalqı yenə də real işlərə, sabit, davamlı inkişafa, tərəqqiyə və təhlükəsizliyə səs vermişdi.

Seçkinin nəticələri rəsmi elan edildən sonra – aprelin 18-də dövlət başçısı kimi and içən Prezident İlham Əliyevin əsas tezisi belə idi: Biz öz torpaqlarımızı azad edəcəyik! Cənab Prezident əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

Bütün dünya şahiddir ki, cənab İlham Əliyev 2018-ci il aprelin 11-də "dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına, xalqa ləyaqətlə xidmət edəcəyinə" and içmiş və qısa müddətdən sonra – 2020-ci ilin payızında həmin andına şərəflə əməl etmişdi. Biz də məmnunuq ki, "Xalq qəzeti"nin kitabxanası" seriyasından ərsəyə gəlmiş "And və əməl" adlı birinci kitab məhz həmin vədlərin reallaşdırılmasına, Prezident İlham Əliyevin sözünün də imzası qədər kəsərli olduğuna həsr edilmişdir.

2024-cü ildə keçirilmiş ikinci növbədənkənar prezident seçkiləri isə müstəqillik tariximizə Azərbaycanın bütün şəhər, kənd və hətta məhəllələrini də əhatə edən, otuz illik işğaldan azad olunmuş ərazilərimizin hamısında dalğalanan Dövlət Bayrağımızın altında keçirilmiş ilk möhtəşəm siyasi tədbir kimi düşmüşdür.

Bayrağın həmişə uca olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ***

# Geosiyasətdə yeni ünvan: Aİ–Mərkəzi Asiya tərəfdaşlığı

**Müasir dövrdə beynəlxalq münasibətlərin konturları dəyişdikcə qlobal güclər öz xarici siyasət prioritetlərini yenidən nəzərdən keçirməyə məcbur olurlar. Belə bir məqamda, uzun müddət Avropa İttifaqının xarici siyasət gündəmində arxa planda qalan Mərkəzi Asiya regionu bu gün Brüsselin strateji diqqət mərkəzinə çevrilməkdədir. Geosiyasi balanslar, enerji təhlükəsizliyi, ticarət yollarının yenidən qurulması və yaşıl keçid hədəfləri kimi faktorlar fonunda Aİ-nin Mərkəzi Asiyaya yönəlik siyasəti sakit bir diplomatik təşəbbüs olmaqdan çıxaraq açıq geosiyasi mövqe nümayişinə çevrilir.**

2025-ci il aprelin 4-də keçirilmiş Aİ–Mərkəzi Asiya sammiti bu baxımdan mühüm dönüş nöqtəsi oldu. Bu görüşdə Aİ-nin rəhbər şəxsləri ilə yanaşı, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistanın xarici işlər nazirləri də iştirak edirdilər. Tərəflər arasında siyasi dialoqun dərinləşdirilməsi, ticarət və investisiya imkanlarının artırılması, enerji keçidi və iqlim dəyişikliyi ilə bağlı əməkdaşlıq, regional sabitlik və təhlükəsizlik, eləcə də Əfqanıstanla bağlı məsələlər müzakirə olundu. Ən diqqətçəkən məqamlardan biri isə Avropa İttifaqının Transxəzər Nəqliyyat Marşrutu – daha çox "Orta Dəhliz" kimi tanınan layihəyə tam dəstəyini ifadə etməsi və bu çərçivədə 10 milyard avroya qədər sərmayə yatırmağa hazır olduğunu bəyan etməsi oldu. Bu marşrut Çinlə Avropanı birləşdirən alternativ ticarət yolu kimi, Rusiyanı və digər riskli keçid zonalarını aradan qaldırmaqla strateji əhəmiyyət kəsb edir.



Bəs nə üçün məhz bu anda Mərkəzi Asiya Avropa İttifaqının maraq dairəsində bu qədər önəmli yer tutur? Burada birinci faktor enerji təhlükəsizliyi məsələsidir. Qazaxıstan və Türkmənistan kimi ölkələr təbii qaz, neft və nadir metallar baxımından olduqca zəngindir. Rusiya ilə enerji asılılığını aradan qaldırmağa çalışan Avropa bu regionu alternativ enerji mənbəyi kimi görür. Üstəlik, yaşıl keçid məqsədləri kontekstində hidrogen və bərpa olunan enerji sahələrində əməkdaşlıq da getdikcə aktuallaşır. İkincisi, geosiyasi balans baxımından bu regionu həm Çin, həm də Rusiya təsirindən ayırmaq istəyən ölkələr üçün üçüncü yol – yəni Qərb ilə əməkdaşlıq fürsətidir. Aİ bu ölkələrin suverenliyinə hörmət edən, qaydalara əsaslanan əməkdaşlıq modelini təklif edərək Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə alternativ yaratmağa çalışır.

Mərkəzi Asiyanın coğrafi mövqeyi də onu Avropa üçün cəlbedici edir. Bu region Çinlə Avropa arasında mühüm quru keçid nöqtəsi olmaqla yanaşı, Cənubi Qafqaz və Xəzər hövzəsi vasitəsilə Avropaya inteqrasiya imkanları yaradır. "Orta Dəhliz" məhz bu baxımdan Aİ-nin "Global Gateway" təşəbbüsündə əsas yerlərdən birini tutur. Digər tərəfdən, regionun sabitliyi və təhlükəsizliyi də Aİ üçün prioritetdir. Əfqanıstandakı vəziyyətin Mərkəzi Asiyaya təsiri, narkotik ticarəti, dini radikallaşma və qeyri-qanuni miqrasiya kimi təhdidlər Avropanı bu bölgədə daha fəal olmağa vadar edir. Avropa burada sərt güc tətbiq etmədən, iqtisadi əməkdaşlıq, idarəetmə islahatları və təhlükəsizlik



üzrə təlim proqramları vasitəsilə bölgənin dayanıqlığını gücləndirməyə çalışır.

Əslində, Aİ və Mərkəzi Asiya arasında əməkdaşlıq yeni deyil. 1991-ci ildə SSRİ-nin dağılmasından sonra Avropa bu ölkələrə əsasən texniki yardım və inkişaf proqramları çərçivəsində yanaşırdı. 2007-ci ildə Aİ-nin Mərkəzi Asiya üçün ilk rəsmi strategiyası qəbul olundu və bu sənəddə qanunun aliliyi, təhsil, ətraf mühitin mühafizəsi kimi sahələr ön planda idi. 2019-cu ildə isə daha dinamik yanaşmanı ehtiva edən yeni strategiya qüvvəyə mindi – burada dayanıqlılıq, rifah və regional əməkdaşlıq əsas sütunlar kimi müəyyənləşdirildi. 2022-ci ildən sonra Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi sarsıntılar fonunda isə Mərkəzi Asiya artıq təkcə tərəfdaş kimi deyil, strateji bir məkan kimi nəzərdən keçirilir.

Hazırda Avropa İttifaqı regionda təkcə infrastruktur və ticarət marşrutları deyil, eyni zamanda, dəyərlər əsaslı siyasi və sosial institutların gücləndirilməsini də hədəfləyir. "Global Gateway" təşəbbüsü çərçivəsində regionda dəmir yolları, rəqəmsal əlaqələr, hidrogen istehsalı, su ehtiyatlarının idarə olunması və iqlim dəyişikliyinə uyğunlaşma sahələrində iri layihələr həyata keçirilir. Bundan əlavə, "Erasmus+", "Horizon Europe" kimi proqramlar vasitəsilə Aİ region gəncliyi ilə insan resurslarının inkişafı istiqamətində əməkdaşlığı da artırır.

Təbii ki, bu əməkdaşlıq yolunda çətinliklər də var. Bəzi Mərkəzi Asiya ölkələrində insan hüquqları və demokratik idarəetmə ilə bağlı problemlər daha dərin siyasi inteqrasiyaya mane ola bilər. Üstəlik, Çin və Rusiya hələ də regionda iqtisadi və təhlükəsizlik baxımından ciddi təsirə malikdir. Avropa hərbi güc baxımından burada təsir imkanlarına malik olmasa da, uzunmüddətli və qarşılıqlı faydaya əsaslanan model təqdim etməklə öz mövqeyini möhkəmləndirməyə çalışır.

Nəticə etibarilə Mərkəzi Asiya artıq Brüssel üçün "kənar" region deyil. Bu bölgə indi enerji təhlükəsizliyi, ticarət, geosiyasi balans və "yaşıl enerji" keçidinin qovşağında yerləşir. Aİ-nin bu istiqamətdə artan marağı və milyardlarla avroluq investisiya planları təkcə iqtisadi deyil, həm də siyasi mesajdır. Avropa İttifaqı Mərkəzi Asiyanın gələcəyində müşahidəçi deyil, fəal tərəf olmaq niyyətindədir – və bu, yalnız bu region üçün deyil, bütövlükdə, qlobal güc balansı üçün də önəmli siqnaldır.

***Şəbnəm ZEYNALOVA,
siyasi elmlər üzrə fəlsəfə doktoru***

Təəssüf

# Qardaş mediası, yoxsa Azərbaycana qarşı qərəz xoru...

## *Türkiyənin bəzi qəzetlərinə nə (isə) olub?*

**Prezident İlham Əliyev aprelin 9-da ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumda qardaş Türkiyənin və dost İsrailin Azərbaycan üçün əhəmiyyətini vurğulayan fikirlər səsləndirdi. Dövlətimizin başçısı bu iki ölkə arasındakı ziddiyyətli duruma da toxundu.**










Əvvəla, onu deyək ki, Azərbaycan dövlətində və cəmiyyətində Türkiyəyə və İsrailə, eləcə də Ankara–Təl-Əviv gərginliyinə münasibətdə ortaq baxış var. Prezident Əliyevin dilə gətirdikləri məhz həmin baxışın ifadəsidir. Ümumən, biz nə Türkiyənin, nə də İsrailin haqq işimizə dəstəyini unuda bilərik. Ona görə də mövqeyimiz budur ki, ölkələr arasındakı xoşagəlməz durum tezliklə aradan qalxsın. Dövlətimizin başçısının dedikləri də mövcud xüsusda idi: "Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir. İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq... Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik".

Hesab edirik ki, Azərbaycanın mövqeyi, kifayət qədər, konkret və aydındır, hansısa mübahisə üçün əsas vermir. Amma nədən, mübahisə edənlər tapılır. Özü də Türkiyədə. Söhbət Prezident İlham Əliyevin bildirdiklərinə qardaş ölkənin bəzi media orqanlarının – "Sabah", "Milli gazete", "Doğruhaber", "Ortadoğu" kimi nəşrlərin son dərəcə isterik tərzdə reaksiya verməlırindən gedir. İstər-istəməz, düşünürsən: belə reaksiya müəlliflərinin fikirləşdikləri, ağıllarından keçirdikləri nədir? Onlar hansı məqsədi güdürlər?

Azərbaycan mediası, Türkiyə cəmiyyətində olduğu kimi, ölkəmizin daxilində də İsrail–Fələstin münaqişəsinə münasibətdəki həssas yanaşmanı yetərincə duyur. Ölkəmizdə də bu münaqişə nəticəsində dinc və günahsız insanların həyatlarını itirmələrini bu və ya digər tərəfin günahı, əzazilliyi, səriştəsizliyi, bacarıqsızlığı, mənasız inadı və sair kimi dəyərləndirənlər var və onlar fikirlərini bildirməkdə sərbəstdirlər. Müsəlman Fələstinin nə üçün ermənipərəst mövqe tutduğunu müzakirə predmetinə çevirənlər də həmçinin.

Yeri gəlmişkən, sonuncu məsələ indi də sosial şəbəkələrin Azərbaycan seqmentinin müzakirə mövzusudur. Haqqında əvvəldə söz açdığımız konsensus isə bütün bu fikir müxtəlifliyi nəzərə alınmaqla ortaya çıxmış reallıqdır və indiki durumda Azərbaycan mediasının peşəkarlığı məhz bu konsensusu nəzərə alaraq fəaliyyət göstərməklə ölçülür. Müvafiq olaraq, belə nəticəyə gəlirik ki, jurnalistikamız obyektiv və peşəkardır. Həm də ona görə peşəkardır ki, ayrı-ayrı sosial şəbəkə profillərindəki hədyanları ictimai rəyin məhsulu kimi təqdim etmir. Hər halda, hədyan tirajlayanların, qərəz yağdıranların zaman-zaman Türkiyəni də hədəfə aldıqları diqqətdən yayınmayıb və jurnalistlərimiz belə mənfi təzahürlərə qarşı həqiqətləri yaymaqla, fundamental məsələləri qabartmaqla mübarizə aparıblar.

Türkiyənin hədəfə götürülməsindən söz düşmüşkən, bu ritorika müəlliflərinin bir neçə həftə əvvəl türkiyəli media nümayəndələrinin Ermənistana səfərinə və baş nazir Nikol Paşinyanla görüşmələrinə görə qardaş ölkə ilə bağlı xoşagəlməz ifadələrə yer verdiklərini də gördük. Əlbəttə, mövzu həssasdır. Ancaq həssaslıq dərəcəsini dəyərləndirmək və cəmiyyəti düzgün yönləndirmək jurnalistikanın işidir. Elə isə görəsən, Türkiyənin adlarını çəkdiyimiz media orqanları Prezident İlham Əliyevin fikirlərinə görə dövlətimiz əleyhinə çıxarkən, hansı işi görmək istəyir, hansı mesajı vermək niyyəti güdürdülər? Əlbəttə ki, anlaşılmır. Amma anlaşılmayan tək bu deyil. Ona görə də nəticəyə gələ bilərik. Hansı nəticəyə, bu barədə sonda söz açacağıq.

Hələlik isə bir qədər də konkretləşdirək. Təsəvvür edin, Prezident İlham Əliyevin sözügedən forumda ölkəmizin Ankara və Təl-Əviv arasında vasitəçilik missiyasından söz açması ilə demək olar eyni vaxtda "TRT Haber" Türkiyənin Milli Müdafiə Nazirliyinə istinadən Azərbaycanda Türkiyə və İsrail rəsmilərinin texniki görüşünün təşkil olunduğunu yazıb. Görüşün məqsədi də açıqlanıb: Suriyada xoşagəlməz insidentlərin qarşısının alınması üçün deeskalasiya mexanizminin yaradılması.

Mövzu bu qədər aydınkən, "Sabah", "Milli gazete", "Doğruhaber", "Ortadoğu" kimi media orqanlarının dramatizmi, müsəlman təəssübkeşliyi notlarına köklənmiş sentimentallığı və mövcud xüsusda dövlətimizin siyasətini qeyri-dost davranış kimi qələmə vermələri böyük təəssüf hissi doğurmaqdadır. Digər məqamın üzərində dayanaq.

Həm Prezident İlham Əliyev, həm də ölkəmizin rəsmiləri indiyədək Azərbaycan–Türkiyə strateji tərəfdaşlıq və əməkdaşlığının dönməzliyinə dair çoxsaylı fikirlər səsləndiriblər. Dövlətimizin başçısı ADA Universitetində düzənlənmiş forumda da eyni mövqeni qürurla bölüşdü. O zaman təəssürat yaranır ki, qardaş ölkənin bəzi nəşrləri İranın müəyyən dairələrinə xas media qurumlarının dəst-xəttinə uyğun şəkildə fəaliyyəti təzə sınaqdan çıxarırlar. Axı, ilk baxışdan mövzuya kompleks yanaşmaq, düzgün nəticə çıxarmaq çətinlik törətməməlidir. Elə isə nəticəyə gəlirik ki, "Sabah", "Milli gazete", "Doğruhaber", "Ortadoğu" və sair media orqanları üçün çətinlik həqiqətləri görmək və onlar barədə söz açmaqdır.

Əlbəttə, biz türkiyəli həmkarlarımızın kimlərinsə "sifarişləri" əsasında hərəkətə keçdiklərini iddia etmək niyyətindən uzağıq. Onların İranın bəzi dairələrinin anti-Azərbaycan təbliğatına xas qərəzli klişeləri biləkdən tirajladıqlarına da inanmırıq.

Bu nəticəyə də gəlmək istəmirik ki, sözügedən media orqanları regionun gələcəyinin müəyyənləşdirilməsinə, ümumilikdə, türk dünyasının işıqlı perspektivinin təminatına hesablanmış Azərbaycan–Türkiyə qardaşlığı və bu qardaşlığın ən bariz göstəricisi olan strateji tərəfdaşlıq xəttini sıradan çıxarmaq, inamsızlıq mühiti yaratmaq naminə təlimatlandırılıblar. Bizimki sadəcə ümiddir.

Ümid edirik ki, Türkiyənin adlarını çəkdiyimiz media orqanları bundan sonra, heç olmasa, susacaq, sərsəm təfəkkürlərin mücərrəd guşələrində bəslənilmiş pislikləri media məhsulu kimi təqdim etməkdən vaz keçəcək, hadisə və proseslərə dərindən yanaşma potensiallarını üzə çıxarmağı bacaracaqlar. Hər halda, yaradıcılığın imkanları genişdir. Hətta çox geniş.

***XQ-nin analitik qrupu***

# Babayanın gecikmiş etirafları

**Azərbaycanın işğal edilmiş ərazilərində 32 il (1991-ci il sentyabrın 2-dən 2023-cü ilin sentyabrın 28-dək) mövcud olmuş qondarma rejimin başçılarının Bakıda keçirilən məhkəməsində hamıya məlum olan bir çox faktlar öz təsdiqini tapır. Keçmiş xunta rejiminin başçılarının ifadələri Azərbaycan dövlətinin həmin şəxslərlə bağlı əvvəldən bəyan etdiyi mövqeyinin nə dərəcədə doğru olduğunu göstərir. Bu ifadələr ədalət mühakiməsi ilə bağlı xaricdəki erməni lobbisinin və onların maddi nemətlərlə ələ aldıqları şəxslərin ölkəmizin ünvanına səsləndirdikləri tənqidlərin nə dərəcədə əsassız və qərəzli olduğunu da bir daha ortaya qoyur.**



Aprelin 7-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində 2021-2023-cü illərdə keçmiş qondarma rejimdə "xarici işlər naziri" olmuş David Babayan ifadə verib. Təqsirləndirilən şəxs dövlət ittihamçısının sualını cavablandırarkən etiraf edib ki, vaxtilə işğal altında olan ərazilərdə yaşayan erməni sakinlərinin Azərbaycana reinteqrasiyasına qarşı olub. O, "reinteqrasiya mümkünsüz idi" deyib. D.Babayan digər təqsirləndirilən şəxslər – Arayik Arutyunyanın, Ruben Vardanyanın, habelə qondarma rejimin başqa "vəzifəli" şəxslərinin də reinteqrasiya əleyhinə olduqlarını etiraf edib: "Heç bir "vəzifəli" şəxs belə bir inteqrasiyanın perspektivini görmürdü".

D.Babayan bununla, əslində, 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal xarakterli antiterror əməliyyatının keçmiş rejim "rəhbərliyi"nin təqsiri üzündən baş verdiyini etiraf etmiş olub. Hamının yaxşı yadındadır ki, 2020-ci il noyabrın əvvəlindən etibarən Azərbaycan Ordusunun müzəffər yürüşü daha intensiv xarakter almışdı. Əgər müharibənin ilk dövrlərində azad edilən yaşayış məntəqələrinin sayı gün ərzində 5-6 idisə, noyabrın əvvəllərindən bu rəqəm onlarca idi. Noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən sonra təcavüzkar ordunun qoşunları pərən-pərən düşmüşdü. Şuşadan baxdıqda ovuc içi kimi görünən separatçıların özlərinə mərkəz seçdikləri Xankəndi şəhəri isə üzük qaşı kimi dövrəyə alınmışdı. Həmin vaxt Xankəndiyə çatmaq Azərbaycan Ordusu üçün çox asan idi. Ancaq Azərbaycan rəhbərliyi əlavə qan tökülməməsi, eləcə də Qarabağın həmin hissəsində yaşayan mülki əhali arasında itkilərin olmaması üçün hərbi əməliyyatları dayandırmaq qərarına gəldi. Bizim üçün məsələnin siyasi tənzimlənməsi mərhələsi başladı.

### ...Görək separatçılar nə sayırlar

Ancaq separatçılar hələ də Ermənistan dövlətinə, xaricdəki havadarlarına, Avropadakı, okeanın o tayındakı, eləcə də bölgəyə müvəqqəti yerləşdirilmiş rusiyalı sülhməramlılara güvənərək, Azərbaycandan gələn təşəbbüsləri, uzanan barışıq əlini, xeyirxah jestləri rədd etməyə başladılar. Onlar Azərbaycanın tərkibində, onun vətəndaşlığını qəbul edərək yaşamayacaqlarını birmənalı şəkildə bildirdilər. 2021 və 2022-ci illərdə keçirilən bir sıra əməliyyatlar da onlara dərs olmadı. Buna paralel olaraq, separatçılar silahlı qüvvələrini gücləndirməyə, ərazilərimizə minalar döşəməyə davam etdilər. Onlar bölgənin su ehtiyatlarının, o cümlədən Sərsəng su anbarının birgə işlənilməsinə dair təşəbbüsləri də qəbul etmədilər. Təbii sərvətlərimizi qanunsuz olaraq talamaqdan əl çəkmədilər. Nəticədə buna etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-dən etibarən qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların Laçın–Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində dinc etiraz aksiyası başlanıldı. Etiraz aksiyası 138 gün davam etdi.

2023-cü il aprelin 23-də növbəti tarixi hadisə baş verdi. Laçın rayonunda, Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da ölkəmizin ərazi bütövlüyünün tam bərpası prosesi başa çatdı. Ermənistanın Laçın yolundan sui-istifadəsinə, silah və sursatların daşınmasına və digər qanunsuz əməllərinə son qoyuldu.

### Sonuncu şans da əldən verildi

Bundan bir ay beş gün sonra – mayın 28-də Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşündə bu gün də dillər əzbəri olan məşhur çıxışını etdi. Əslində, həmin çıxış hələ də yersiz inaddan əl çəkməyən separatçılara verilən sonuncu şans idi. Prezident dedi ki, iki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna şübhə etmir: "Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz saxta "dövlət atributları"nı zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq".

Cənab İlham Əliyev dedi ki, biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalı, özünü "prezident" adlandıran ünsür təslim olmalı, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna, ancaq o təqdirdə hər hansı amnistiyadansöhbət gedə bilər.

Ancaq onlar sonuncu fürsəti də qaçırdılar. Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatları səngimədi. Baş nazir Nikol Paşinyan 2023-cü il sentyabrın 2-də qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin ildönümü ilə əlaqədar təbrik müraciəti ünvanladı. Sentyabrın 9-da isə bölgədə qondarma "prezident seçkiləri" keçirildi. Bütün bunlar bizim səbrimizi daşırdı və hadisələr başqa cür inkişaf etdi. Yəni, antiterror tədbirlərinin həyata keçirilməsi qaçılmaz oldu. Bundan sonra baş verən proseslər, yəni, Qarabağdan erməni əhalinin kütləvi köçü və rejim "rəhbərləri"nin həbs edilərək Bakıya gətirilməsi onların öz təqsirlərinin nəticəsidir. Onlar bu gün dəmir barmaqlıqlar arxasında olmalarına görə başqalarından inciməməli, özlərindən küsməlidirlər. Çünki 2020-ci ilin noyabrından sonra onlara dəfələrlə şans verilmişdi. Onların prosesləri tamamilə başqa cür etmək üçün imkanları var idi. Ancaq onlar fərqli yolla getməyi üstün tutdular. Nəticə göz önündədir.

Hazırda məhkəmədə ifadə verən D. Babayanın da reinteqrasiya təşəbbüslərinə qarşı çıxdıqlarını etiraf etməsi bizim üçün yenilik deyil. Biz bunu bilirdik. İndi isə o, bunu öz dili ilə bəyan edir. Onu da yada salaq ki, sonuncu "vəzifəsi" "dqr prezidentinin müşaviri – xüsusi tapşırıqlar üzrə nümayəndə" olan həmin bu Babayan 2023-cü il martın 10-da BBC-yə verdiyi müsahibəsində deyirdi ki, Azərbaycanın tərkibində olmaq istəmirik, yaxşı qonşu olmaq (?) istəyirik. O, həmçinin təkəbbürlə deyirdi ki, Azərbaycan Respublikasının dövlət bayrağı Qarabağ ərazisində yalnız Xankəndidə səfirlik açacağımız təqdirdə ucaldıla bilər. Bütün bunlar göstərir ki, separatçılar bu taleyi özləri yazdılar.

***Səxavət HƏMİD***
***XQ***

Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA, "World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq**

– Keçmiş qondarma rejimin başçıları xarici havadarlarının vədlərinə arxayınlaşaraq, Qarabağın Azərbaycan torpağı olması fikrini əzəl gündən qəbul etməyiblər. Onların bu fikrə düşməsində zərərli tarixi ideologiya ilə "beyinlərinin yuyulması"nın da özünəməxsus rolu var. Onlar beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Qarabağın Azərbaycan ərazisi olmasına dair qəbul etdiyi sənədlərə məhəl qoymayıblar.

Onlar Ermənistan tərəfindən verilmiş həm sadə, həm də diplomatik pasportlarla bütün dünyanı gəzib dolaşıblar və hesab ediblər ki, Azərbaycan da gec-tez bu vəziyyətlə barışacaq. Halbuki bu, mümkün olacaq hal deyildi. Separatçılar hətta, İkinci Qarabağ müharibəsindən sonra da əvvəlki mövqelərindən əl çəkməyərək reinteqrasiya prosesinə başlamadılar. Xaricdəki havadarları, ideoloqları da bu işdə onlara yardım etdilər. Real vəziyyəti izah etmək əvəzinə, yalan vədlər verdilər. Beləliklə, bir gündən az davam edən antiterror tədbirləri nəticəsində bölgədə qalan Ermənistan silahlı qüvvələri tam tərk-silah edilərək Azərbaycan ərazisindən çıxarıldılar. Qondarma rejimin qalıqlarının isə ləğv olunduğu elan edildi. Azərbaycan öz ərazisində separatçılığa, "boz zona"ya son qoydu. Ancaq keçmiş rejimin "rəhbərləri" rasional şəxslər olsaydılar, Azərbaycanla danışığa gedər və bugünkü aqibətlə üzləşməzdilər.

# Xankəndidəki forum revanşistlərə dərd oldu

**Aprelin 8–9-da Xankəndidəki Qarabağ Universitetində və Bakıdakı ADA Universitetində “Yeni dünya nizamına doğru” mövzusunda keçirilən VII beynəlxalq forum Ermənistanda radikal revanşist kəsimin, necə deyərlər, kürkünə birə salıb. Xüsusilə forumun Xankəndidə keçirilən ilk günü xəstə təfəkkürlü bu kütlənin “qəzəbinə” səbəb olub. Bir neçə gündür ki, Ermənistan mediasında bu barədə məqalələr dərc edilir, müxtəlif şəxslərin açıqlamaları yerləşdirilir. Belə məqalələrdən biri “ArmenianReport” saytında yerləşdirilib.**




Biz Ermənistan dövlətindən və onun xalqından, nəhayət, sülh istiqamətində addımlar atmağı, rasional yanaşma sərgiləməyi gözlədiyimiz bir vaxtda məqalədə suveren ərazimiz olan Xankəndi şəhəri “Azərbaycanın işğalı altında olan Stepanakert” (?) adlandırılıb. Eyni zamanda, Yaponiya, ABŞ, Böyük Britaniya, Çin, Hindistan, İtaliya, Almaniya, İspaniya, Türkiyə, Rusiya, Qazaxıstan, İordaniya Haşimilər Krallığı, ümumilikdə, 44 ölkədən 80 beynəlxalq ekspert və beyin mərkəzlərinin mütəxəssislərinin iştirak etdikləri nüfuzlu forum “daha bir təbliğat tədbiri” kimi verilib. Xarici qonaqların otuz ildən artıq müddətdə erməni separatizminin mərkəzi olan, 2023-cü ilin sentyabrında azadlığına qovuşmuş Xankəndi şəhərini ziyarət etmələri “rəsmi Bakı əvvəlcədən hazırlanmış plan üzrə hərəkət edərək dünyanın müxtəlif ölkələrindən nümayəndələri işğal altındakı Stepanakertə cəlb edir” kimi təqdim edilib. Yenə də köhnə bayatılar üstündə hansısa “dəhşətli cinayətlərdən, etnik təmizləmə”-dən dəm vurulub.

Başdan-ayağa revanşist üslubda yazılan məqalə bu şəxslərin hələ də əvvəlki xam xəyalların ardınca getdiklərinin daha bir sübutu sayıla bilər. Bəli, Prezident İlham Əliyevin də forumda çıxışında qeyd etdiyi kimi, əslində, Ermənistanın dəstəklədiyi və maliyyələşdirdiyi separatçı hərəkat bu şəhərdə, Azərbaycanın əzəli torpağında başlamışdır. Xankəndi adının özü onun Azərbaycan mənşəyini və kökünü, Xanın kəndi olduğunu nümayiş etdirir. Bir daha isbat edilir ki, revanşistlərlə bağlı Azərbaycanın narahatlıqları əsassız deyil. Onlar hələ də nəyəsə ümid edirlər. Hələ də başlarına gələn hadisələrdən nəticə çıxarmayıb, ayılıb, ağıllanmayıblar. Əks-təqdirdə bütün dünyanın Azərbaycanın suveren əraziləri kimi tanıdığı torpaqlarla bağlı bu cür hətərən-pətərən fikirlər səsləndirməz, şəhərin adını təhrif etməzdilər. Bunlar hələ də dərk etmirlər ki, Azərbaycanın hansı bölgəsində tədbir keçirmək, ora hansısa qonağı dəvət etmək bizim daxili işimizdir. Müxtəlif ölkələrdən olan beynəlxalq ekspertlərin böyük bir dəstəsinin qlobal gündəlikdə duran mühüm məsələlərin müzakirəsi üçün Azərbaycana gəlmələri “Odlar yurdu”nu daha da yaxşı tanımağa, ölkənin nəbzini tutmağa xidmət edir.

Məqalədə Nikol Paşinyanın İkinci Qarabağ müharibəsindən öncəki bəyanatları xatırladılıb və onun ünvanına tənələr yağdırılıb: “Biz Ermənistanın hazırkı rəhbərliyinə suallar ünvanlamalıyıq – uşaqlar, özünüzü necə hiss edirsiniz? Axı siz hakimiyyətə gələndə “Artsax”ın bütün dünyada tanınacağına söz vermişdiniz? Siz bizi və bütün dünyanı əmin etmişdiniz ki, Ermənistan “Artsax”ın təhlükəsizliyinin təminatçısıdır. Stepanakertdə “Artsax Ermənistandır və nöqtə” fikrini bəyan edən də ölkəmizin baş naziri idi. O, həmçinin “Artsax” ordusunun düşmən ordusunun öhdəsindən təkbaşına gələcəyini iddia edirdi. Bəs biz indi nə görürük?”

Bu, az imiş kimi, yazıda həyasızcasına Azərbaycanın, guya, Ermənistanın suveren ərazisinin “işğal” etdiyi iddia edilir: “Amma hökumətimiz heç bir real addım atmır və mən situasiyanın dəyişməsi istiqamətində səs-küylü bəyanatlardan danışmıram. Tam əksinə, dəfələrlə deyilib ki, məhz Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla Bakıya “böyük hədiyyə” edib”.

Revanşist ruhlu məqalədə Ermənistan hökumətinə bundan sonra necə hərəkət etməklə bağlı məsləhətlər verilib: “Bu, ölkəmizin xarici işlər nazirliyinin mövqeyidir ki, “respublika”nın buraxılması haqqında fərmanın dərcindən sonra “Artsax xalqı”-nın hüquqları məsələsi sülh danışıqları prosesindən çıxarılıb. Sanki ölkə rəhbərliyi bu qərarın hansı şəraitdə verildiyini bilmir. Sanki İrəvan başa düşmür ki, onlar Bakının planlarına kömək etməkdənsə, tamam başqa cür, əks istiqamətdə hərəkət etməlidirlər!”

Eyni zamanda, yazıda Azərbaycanın həm Türkiyə, həm də İsraillə eyni dərəcədə isti münasibətlərə malik olduğu xatırladılıb: “Bu isə dəfələrlə vurğuladığımız kimi, Ermənistanın bu günü və gələcəyi üçün böyük problemdir. Və bu şəraitdə biz “Artsax xalqı”na dəstəyimizi zəiflətməməli, üçqat enerji ilə çalışmalıyıq. Amma, təəssüf ki, biz tamam başqa mənzərə – daha bir təslimedici hərəkətlər toplusunu görürük”.

Beləliklə, Ermənistanda revanşist qüvvələrin fəallıqlarını artırdıqları, təşkilatlandıqları və son zamanlar daha səylə çalışdıqları barədə Bakıdan verilən bəyanatların kifayət qədər ciddi əsaslarının olduğu bu yazı vasitəsilə bir daha öz təsdiqini tapır. Bu istiqamətdə Prezident İlham Əliyevin elə yuxarıda adı çəkilən beynəlxalq forumda səsləndirdiyi fikirlər diqqəti cəlb edir və böyük maraq doğurur. Dövlətimizin başçısı bildirdi ki, biz Ermənistanda kifayət qədər güclü revanşist qrupların olduğunu bilirik: “Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya, konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər”.

Prezident qeyd etdi ki, onların ölümcül silahları almasının səbəbi də budur. Onlar bəzi silahları pulsuz əldə edirlər. Bu, onların Azərbaycana qarşı yeni hərbi əməliyyatları planlaşdırmalarının səbəbidir. Bu səbəbdən onlar ATƏT-in Minsk qrupunun buraxılmasına dair bizim legitim təklifimizi qəbul etmək istəmirlər. Çünki bizim hamımızın bildiyi kimi, Minsk qrupu Qarabağ münaqişəsi ilə bağlı olan məsələləri həll etmək üçün yaradılmışdır. Əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq buraxılmaması üçün heç bir səbəb yoxdur. De-fakto qrup fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək onların öz vaxtını gözləməsinə işarə edir. Ola bilsin onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verən müəyyən beynəlxalq vəziyyəti gözləyirlər.

Dövlətimizin başçısı onu da bildirdi ki, onlar ABŞ-da seçkilərdən sonra demokratların administrasiyada qalacaqlarına çox güvənirdilər. Lakin Prezident Trampın qələbəsi onları çox məyus etdi. Biz hamımız bunu bilirik. Buna baxmayaraq, Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi, həm də siyasi nöqteyi-nəzərdən. Beləliklə, sülh sazişi imzalanana və Ermənistan da onların konstitusiyasında hələ də mövcud olan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina edənə və Azərbaycanla münasibətlərin normallaşması üçün səmimi davranış sərgiləyənə qədər onlar həmişə yeni hərbi qarşıdurma təhlükəsini törədəcəklər. Burada sonuncu məqam odur ki, 2020-ci ildən bəri artıq beş il ötüb, biz hələ də Azərbaycanın Ermənistana qarşı yeni təcavüz planlaşdırdığına dair tamamilə əsassız olan mülahizə və ittihamlarla üzləşirik. Prezident onu da bildirdi ki, Qarabağın yenidən geri alınmasını xəyal etməyən bir erməni siyasətçisini demək olar ki, tapa bilməzsiniz.

Ancaq bu qüvvələr bilməlidirlər ki, Azərbaycan ayıq-sayıqdır, 30 illik işğalı unutmur, hələ də davam edən “böyük Ermənistan” xəyallarını, Qarabağı yenidən geri almaq xülyasının mövcudluğunu görür və nəzərə alır.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi

**Yeganə HACIYEVA,**
**politoloq**



– Cənubi Qafqazda maraqlı olan kənar qüvvələr Ermənistandan istifadə etməklə bölgəyə yerləşmək siyasəti yürüdürlər. Çünki rəsmi İrəvan bunun üçün kifayət qədər münbit şərait formalaşdırıb. Ermənistandan istifadə etməklə bölgəyə yerləşməyə çalışan qüvvələr İrəvanın uzun illər yürütdüyü işğalçılıq siyasətindən, indi isə milli-etnik nifrət üzərindən formalaşdırdığı revanşizmdən yararlanırlar.

Əgər biz ümumilikdə Ermənistan daxilindəki revanşist qüvvələri təsnifatlandırsaq, qeyd etməliyik ki, revanşistlərin çox kiçik hissəsi İrəvanla birbaşa bağlıdır. Ermənistanla bağlı olan tərəf, əlbəttə, erməni lobbisi və onların bütün dünyadakı havadarlarıdır. Revanşistlərin ikinci qolunu Ermənistanda marağı olan geosiyasi qüvvələr təşkil edirlər. Hamının bildiyi kimi, bunlar böyük dövlətlərdir. Son illərdə geosiyasi oyunçu olmağa iddia edən Hindistan da Avropa–Asiya daşımalarında mövqelərini möhkəmləndirmək üçün Ermənistandan istifadə edir.

Bu gün Ermənistanda revanişist qüvvələrin qalması xaricdən dəstəklənir. Ancaq uzunmüddətli perspektivdə bu fəaliyyət Ermənistana heç bir fayda verməyəcək.

# “Aİ-yə üzvlük İrəvanın növbəti siyasi fırıldağıdır”

**“Ermənistanın Avropa İttifaqına qoşulması prosesinin başlanması ilə bağlı qanun layihəsi hakimiyyətin siyasi fırıldağından başqa bir şey deyil”. Bu barədə “Çiçəklənən Ermənistan” Partiyasının lideri Edmon Marukyan bildirib.**



Aprelin 4-də Ermənistan prezidenti Vaaqn Xaçaturyan ölkənin Aİ-yə daxil olması prosesinin başlanmasını nəzərdə tutan qanunu imzalayıb. Sənəd martın 26-da parlament tərəfindən ikinci və yekun oxunuşda qəbul edilib. Bu qanun layihəsi bir neçə ictimai-siyasi təşkilatın təşəbbüsü ilə irəli sürülüb. Eyni zamanda, belə bir qanunun yaradılmasının lehinə ölkənin 60 min vətəndaşı səs verib. Ermənistan konstitusiyasına görə, mülki qanun layihələrinin parlamentə təqdim edilməsi üçün azı 50 min imza toplanmalıdır.

Marukyanın fikrincə, əgər hakimiyyət, həqiqətən də, Aİ-yə üzv olmaq niyyətində idisə, o zaman ilk növbədə Avrasiya İqtisadi İttifaqından (AİI) çıxmalı, sonra Aİ-dən üzvlüklə bağlı danışıqlara başlamağı rəsmi şəkildə xahiş etməli idi: “Amma bizim hakimiyyət bu cür məqsəd və ideyaları rəhbər tutmur. Bütün bunlar sırf daxili siyasi intriqalar çərçivəsində – seçiciləri cəlb etmək, səs toplamaq üçün edilir. Onların Avropadakı proseslərlə nə dəyər, nə də ideoloji bağlılığı var. Sadəcə olaraq, insanları çaşdırmağa çalışırlar: bəyənin, bizi seçin, sizi Aİ-yə aparaq”.

Partiya sədrinin fikrincə, baş verənlər geosiyasi oyunun bir parçasıdır və Qərb Ermənistanı Aİ-də görmək istəmir. Bu, nə dərəcədə reallığı əks etdirir? Əslində, indiki şəraitdə Ermənistanın AİI-dən çıxması inandırıcı görünmür. Çünki İrəvan ittifaqdan çıxacağı təqdirdə çox şeyi itirəcək, Rusiyanın və qurumdakı digər üzvlərinin bazarına sərbəst çıxış imkanlarından məhrum olacaq. Hayastanda elektrik enerjisi və ərzağın qiymətləri artacaq, təbii qaz tədarükündə problemlər yaranacaq.

Yada salaq ki, bu ölkənin daxili bazarında təbii qazın inhisarçı satıcısı “Qazprom Armenia” şirkətidir. Onun da səhmlərinin 100 faizi Rusiyanın “Qazprom” şirkətinə məxsusdur. İki ölkə hökumətləri arasında müqaviləyə əsasən, Ermənistana ildə 2,5 milyard kubmetr qaz nəql edilir. Hazırda Hayastan Rusiya qazının 1000 kubmetri üçün 165 dollar ödəyir. Avropada isə təbii qazın qiyməti bundan dəfələrlə bahadır. Niderlandın TTF qaz qovşağında təhvil verilmək şərti ilə satılan mavi yanacağın hər 1000 kubmetrinin qiyməti cari ilin yanvarında 517 dollar, fevralında 542 dollar, martında isə 473 dollar təşkil edib. Yəni bu ilin birinci rübündə orta qiymət 509 dolları keçib. Belə olan halda Hayastanın AİI-dən çıxması yanacağın qiymətinin bir neçə dəfə artmasına səbəb ola bilər.

Bundan başqa, Hayastanda bir sıra aparıcı sənaye müəssisələri, dəmir yolları, enerji hasil edən, onun paylaşımını həyata keçirən və maliyyə məsələləri ilə məşğul olan müəssisələr də Rusiyaya məxsusdur.

Onu da nəzərə alaq ki, İrəvanın Aİ-yə daxil olması AİI ilə bazarların bağlanması deməkdir. Brüssellə idxal-gömrük tariflərinin sıfırlanması İrəvanın avtomatik olaraq Moskva ilə gömrük tarifinə qayıdışı deməkdir. Bundan sonra, Rusiyaya və qurumdakı digər ölkələrə göndərilən mallara gömrük rüsumları tətbiq olunacaq.

Onu da qeyd edək ki, Rusiyanın Ermənistanla ticarət dövriyyəsi 2024-cü ildə 50 faizdən çox artaraq 12,7 milyard dollara çatıb. Beləliklə, AİI-dən çıxmaqla iqtisadi əlaqələr zəifləyəcək, Ermənistan mallarının tədarükü 70–80 faiz azalacaq.

Deməli, Ermənistan Avropaya doğru irəliləyirsə, o zaman AİI ilə münasibətlərinə yenidən baxmalıdır. Bu zaman İrəvan yuxarıda qeyd olunanlardan əlavə bir neçə məqamı da nəzərə almalıdır. Birincisi, Rusiya tərəfi Ermənistanın xarici siyasət kursu ilə bağlı sərt mövqe nümayiş etdirir və bu məsələni diqqətdən kənarda qoymaq niyyətində deyil. Moskvanın İrəvana inamının azaldığını və səbrinin məhdud olduğunu göstərir. Rusiya nöqteyi-nəzərindən Ermənistan Avrasiyaya inteqrasiya layihələrinə üstünlük verməlidir. AİI və KTMT-yə üzvlüyün davam etdirilməsini vacib sayan Moskva müntəzəm olaraq xatırladır ki, Ermənistanın təhlükəsizliyinə zəmanət Qərb deyil, Rusiya tərəfindən verilir.

İkincisi, təbii ki, Avropa onunla quru sərhədi olmayan, iqtisadi cəhətdən zəif bir ölkəni quruma qəbul etmək istəmir. Bundan başqa, korrupsiya ilə mübarizə, məhkəmə islahatları və demokratiyanın gücləndirilməsi istiqamətində də problemlər var. Hayastanda qanunun aliliyinə, insan hüquqlarına, etnik azlıqlara hörmət və müdafiəyə zəmanət yoxdur. Ermənistan, ümumiyyətlə, monoetnik dövlətdir.

Eyni zamanda, Aİ həm də genişlənmə nöqteyi-nəzərindən kifayət qədər ləng və həvəssiz hərəkət edir. Qərarlar da mürəkkəb və uzun müddət ərzində, fikir ayrılıqları fonunda qəbul edilir. Bu da prosesin on illərlə uzanacağını ortaya çıxarır. Ermənistanın Aİ-yə namizəd statusu alması uzun illər apara bilər. Çünki Brüsselin bu qərarı təxirə salacağı, geosiyasi oyunlarına davam edəcəyi istisna deyil. Ermənistanın da AİI-dən çıxıb, uzun illər Aİ qapısında gözləmək imkanı yoxdur. Görünür, İrəvan Aİ-yə üzv olmaqda o qədər maraqlı deyil. Sadəcə, qarşıdan gələn seçkilərdə seçiciləri öz tərəfinə çəkmək niyyətindədir. Ermənistanın Aİ-yə üzv olmaq “hoqqabazlığı” da bu məqsədə xidmət edir.

E. Marukyan demişkən, hakimiyyət bu yolla tez-tez öz vətəndaşlarını çaşdırmağa nail olur. Lakin bu cür hiylələr Aİ ilə işləmir. Onun fikrincə, bu qurum İrəvanı üzv qəbul etmək niyyətində deyil: “Əsas göstəricilərdən biri qanun layihəsinin Ermənistan parlamenti tərəfindən qəbul edilməsinə Aİ-nin yüksək rütbəli nümayəndələrindən heç bir rəsmi reaksiyanın olmamasıdır. Nə Avropa Komissiyasının rəhbəri, nə Avropa İttifaqı Şurasının sədri, nə də Aİ xarici diplomatiyasının rəhbəri sənədi dəstəkləyən və ya təsdiq edən bəyanat verməyiblər.

Nəzərə alsaq ki, postsovet ölkəsi, KTMT və AİI üzvü belə bir qanun qəbul edib, Aİ bu qərarı alqışlamalı idi. Bəlkə də Ermənistana nümayəndə heyətləri göndərməli idi. Amma belə bir şey olmadı, çünki Brüssel bunun siyasi saxtakarlıq olduğunu çox yaxşı başa düşür”.

O qeyd edib ki, Aİ tərəfindən verilən hər hansı vəd erməni cəmiyyətində ancaq illüziyalar yaradır. Bundan əlavə, Marukyan xatırladıb ki, Brüssel heç vaxt Ermənistanın təhlükəsizliyinə zəmanət verməyib. Bununla belə, ölkədə, guya, Aİ-nin Ermənistana müdafiə təklif etdiyi ilə bağlı ritorika fəal şəkildə təbliğ olunur: “Təəssüf ki, Aİ-yə qoşulmağın lehinə çıxış edən bir çox vətəndaş əsas səbəb kimi təhlükəsizliyi göstərir. Bu da onların aldadılması deməkdir. İnsanlara izah olunmayıb ki, Aİ təhlükəsizliyi təmin etmir, ancaq onu “istehlak” edir – ilk növbədə isə ABŞ-dan. İndi hakimiyyətə Tramp gəlib və o, Avropanın “təhlükəsizliyi”nə tam zəmanət vermir.

Ermənistanın baş naziri N. Paşinyanın özü belə ölkəsinin Aİ-yə üzvlüyünə şübhə ilə yanaşır. Əks halda, “Ermənistan özünü AİI-də daha rahat hiss edir” – deməzdi.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan yeni dünya nizamına sürətli transformasiya və hərtərəfli inkişafla qovuşur




**ADA Universitetində “Yeni dünya nizamına doğru” mövzusunda VII ADA Siyasi Forumu kimi mötəbər bir tədbirin keçirilməsi dövlətimizin beynəlxalq aləmdəki nüfuzunun parlaq nümayişi olaraq diqqət çəkir. Bu, eyni zamanda, ölkəmizin Cənubi Qafqazda sülh prosesinin bərpasında fəal iştirakına dünya birliyinin mühüm əhəmiyyət verdiyini nümayiş etdirir.**

Belə bir mövqe Prezident İlham Əliyevin forumda regional və qlobal münaqişələrə, millətçiliyin baş qaldırmasına, iqlim məsələlərinə, miqrasiya problemlərinə, proteksionizmi və ticarət müharibələrinə konkret münasibət bildirməsində, postmüharibə dövründə respublikamızla Ermənistan arasındakı münasibətlər barədə beynəlxalq aləmə mesajlarında da bir daha öz ifadəsini tapır.

Etiraf edək ki, hazırda Azərbaycanın beynəlxalq nüfuzlu təşkilatların hesabatlarında öncül yerlərdə qərarlaşması ölkəmizin dünyada ən etibarlı müttəfiq kimi rolunu və əhəmiyyətini getdikcə artırır. Elə ölkəmizin iqtisadi siyasətinin əsas prioritetlərindən biri də məhz beynəlxalq təşkilatlarla, nüfuzlu dövlətlərlə əməkdaşlığı daha da möhkəmləndirməkdən ibarətdir. Sevindirici haldır ki, Azərbaycanın getdikcə artmaqda olan beynəlxalq nüfuzu bu istəyi reallaşdırmağa imkan yaradır.

Beləliklə, respublikamızın beynəlxalq mövqeləri getdikcə möhkəmlənir, istər dünya ölkələri ilə ikitərəfli formatda, istərsə də nüfuzlu təşkilatlarla işbirliyimiz ilbəil güclənir. Bu vacib məqama toxunan Prezident İlham Əliyev çıxışlarının birində deyir: “Artıq Azərbaycan diplomatiyasının fəaliyyət dairəsi genişlənir. Biz ənənəvi, regional tərəfdaşlıqdan yeni bölgələrə, yeni qitələrə çıxırıq–Afrika, Latın Amerikası ölkələri ilə daha sıx əməkdaşlıq qurulur. Bu da həm ölkəmizin yeni statusuna uyğun gəlir, həm ölkəmizin siyasi imicinin təzahür etdirir, eyni zamanda, xarici siyasətlə bağlı fikirlərimizin əlaməti kimi diqqət çəkir”.

Dövlətimizin başçısı VII ADA Siyasi Forumunda İsveçdən olan Svante Kornellinin – “Son zamanlarda Azərbaycanın həm Mərkəzi Asiyada, həm də Yaxın Şərqdə cərəyan edən proseslərdə əhəmiyyətli iqtisadi və siyasi münasibətlərə malik iştirakçı qismində güclü cəlb edildiyinin şahidi olmuşuq. Azərbaycanın, eyni zamanda, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqin bir hissəsi kimi özünü necə görməsi və dünyanın bu üç hissəsini bir araya gətirmək üçün oynaya biləcəyi rolu barədə bizə məlumat verə bilərsinizmi?” sualına cavabında bildirib ki, bu məsələ qismən bizim yerləşdiyimiz coğrafiya və Azərbaycan xalqının tarixi, Azərbaycanın, eyni zamanda, Şərqi və Qərbi coğrafiyanın bir hissəsi olaraq əsrlər boyunca necə inkişaf etməsi ilə bağlıdır.

Ölkə rəhbəri fikrini davam etdirərək Azərbaycanın Xəzər dənizinin o tayındakı və ölkəmizin cənubundakı qonşularımızla, xüsusilə Yaxın Şərq dövlətləri ilə çox güclü münasibətlər qurduğumuzu bildirib. Avropa ölkələri ilə uzunmüddətli əməkdaşlıqdan bəhs edən Prezident İlham Əliyev bu ölkələrin bir çoxu ilə Azərbaycanın strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayaraq qəbul etdiyini diqqətə çatdırıb. Beləliklə, artıq qurulmuş bu platformanın bizə Mərkəzi Asiya və Avropa regionu arasında coğrafi, siyasi, iqtisadi və nəqliyyat körpüsü olaraq önəmli rol oynamağa imkan verdiyini xatırladıb.

Azərbaycan lideri daha sonra deyib: “Praktiki əməkdaşlıq, nəqliyyat, Orta Dəhliz nöqteyi-nəzərdən biz körpülər qurmaq və yükdaşımaların həcmini artırmaq məqsədilə çoxlu işlər görmüşük. Çünki Azərbaycanın nəqliyyat infrastrukturuna, xüsusilə dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu müəssisələrinə və bu gün yaratdığımız digər logistik infrastrukturumuza yatırılan böyük investisiyalar önəmlidir və ildən-ilə biz təkcə Mərkəzi Asiyadan yox, həmçinin Azərbaycanın ərazisindən keçməklə Çindən gedən və Avropadan Çinə gedən yüklərin həcminin artdığını görürük. Hesab edirəm ki, bu, vacib bir aktivdir və Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yaxından qurmaq istəyən istənilən beynəlxalq aktor üçün yenə də xəritəyə və Azərbaycan ilə Mərkəzi Asiya ölkələri liderləri arasında siyasi müstəvidə qarşılıqlı əlaqələrə nəzər salmaq kifayətdir”.

Bəli, həqiqətən də, Azərbaycanın nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğun yenilənməsinin diqqətdə saxlanılması, bu sahəyə xarici investisiyaların yatırılmasına önəm verilməsi nəticəsində nəqliyyat-logistika sistemi yüksək səviyyədə inkişaf edib. Dövlətimizin başçısı çıxışlarının birində bunun təsadüfi olmadığını xatırladaraq bu gün Transxəzər Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) heç vaxt olmadığı qədər ehtiyac duyulduğunu, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını bildirib. Ölkə rəhbəri daha sonra deyib: “Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir”.

Prezident İlham Əliyev sözlərinə əlavə edərək Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inamı olduğunu, həmçinin Azərbaycanda bu marşrutun inkişafı məqsədilə bütün lazımi infrastrukturun, o cümlədən müasir, yeni dəniz limanının inşa edildiyini, hazırda isə onun genişləndirilməsi üzərində iş aparıldığnı diqqətə çatdırıb. Dövləimizin başçısı belə bir fəaliyyətin təsadüfi olmadığını vurğulayaraq sözügedən limanın bugünkü 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyətinin yetərli olmadığnı bildirib: “Biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanınının ümumi yükaşırma qabiliyyətinin 25 milyon tona və 500 yüz min, yaxud, hətta bir milyon TEU-ya çatdırmaq istəyirik ki, təkcə Çindən deyil, həm də Mərkəzi Asiyadan həcmi artan yükləri qəbul etmək imkanımız olsun. Çünki söylədiyim kimi, bugünkü geosiyasi mühitdə bu marşruta ehtiyac var. Biz bu istiqamətdə institusional dəstəklə bağlı başqa addımlar da atırıq”.

Forumda Azərbaycanın olduqca geniş iqtisadi və nəqliyyat gündəliyinə malik olmasını diqqətə çatdıran və ölkəmizin, həmçinin digər mühüm infrastrukturun – Şimal–Cənub dəhlizinin tərkib hissəsinə çevrildiyini qeyd edən dövlətimizin başçısı bağlantı layihələri həyata keçirilərkən Azərbaycandan yan keçməyin mümkünsüzlüyünü də xüsusi vurğulayıb. Ölkə rəhbəri respublikamızın ərazisində avtomobil və dəmir yolu layihələrinin hamısının icra edildiyini bildirib. Azərbaycan lideri daha sonra qeyd edib: “Sadəcə, yükdaşımaların həcminin artacağını nəzərə alaraq, biz hazırda dəmir yolumuzu müasirləşdiririk. Dəmir yolu xətləri mövcuddur, ancaq Cənubdan Şimala və əks istiqamətdə nəql ediləcək yükləri qəbul etmək üçün dəmir yolu genişləndirilməlidir”.

Bütün bunlar isə artıq Azərbaycanın nəqliyyat–tranzit–logistika xidmətləri ilə nəinki regionun, eləcə də Avropanın aparıcı dövlətinə çevrildiyini və bu istiqamətdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin xüsusi önəm kəsb etdiyini deməyə əsas verir.

Xatırladaq ki, 2000-ci ildə Sankt-Peterburqda Rusiya, İran və Hindistan arasında imzalanmış müqavilə ilə start verilən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə Azərbaycan Respublikası 2005-ci ildən qoşulub. Rusiya və Azərbaycanın əməkdaşlığı, ikitərəfli iqtisadi münasibətlərin inkişafı istiqamətində önəmli rol oynayan, Qərbi Avropanı Asiya ilə birləşdirən bu dəhliz ilə daşımaların artırılması, dəhliz boyunca infrastruktur təminatının təkmilləşdirilməsi, sərhəd – keçid prosedurlarının sadələşdirilməsi və digər məsələlər hər iki ölkənin prioritetlərinə daxil edilib.

“Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”nda da bu nəqliyyat dəhlizinin potensial imkanlarını artıracaq çoxsaylı tədbirlər nəzərdə tutulub. Sərhəd-keçid məntəqələrinin infrastruktur təminatının təkmilləşdirilməsi, rəqəmsallaşmanın tətbiqi, yeni buraxılış məntəqələrinin yaradılması, gömrük xidməti ilə dəmir yolu qurumları arasında koordinasiyalı fəaliyyətin təşkili və s. nəqliyyat dəhlizinin imkanlarını reallaşdırmağa və artırmağa kömək edəcək.

Qərb dövlətlərinin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi indiki dövrdə sözügedən beynəlxalq nəqliyyat layihəsi bir ümid dəhlizinə çevrilib. Sanksiyaların qüvvədə olduğu müddətdə Rusiyanın xarici bazarlara çıxışı, Rusiya məhsullarının dəhlizlə Azərbaycan üzərindən Fars körfəzinə daşınması həyati əhəmiyyət kəsb edir. Bu baxımdan hazırda nəqliyyat dəhlizi Azərbaycan–Rusiya iqtisadi bağlantılarında əsas həlqələrdən birinə çevrilib.

İlkin hesablamalara görə, ölkəmiz Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollara yaxın vəsait əldə edəcək. Nəzərə alsaq ki, digər istiqamətlərdə, xüsusilə Trans-Xəzər Beynəlxalq nəqliyyat dəhlizi (Orta Dəhliz) ilə də daşımaların davamlı artırılması istiqamətində ardıcıl layihələr icra edilməkdədir, onda tam əminliklə qeyd etmək olar ki, yaxın gələcəkdə beynəlxalq daşımalardan əldə olunan vəsait dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevriləcək, neft sektorundan sonra nəqliyyatın ölkə üçün ən mühüm sahə olduğu konkret rəqəmlərlə də öz təsdiqini tapacaq.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Azərbaycan iqtisadiyyatının digər sahələrində olduğu kimi, tranzit-logistika istiqamətində fəaliyyətin səmərəli qurulması bir neçə amillə bağlıdır. Əvvəla, son illərdə gerçəkləşdirilən mühüm layihələr nəticəsində respublikamızın Avrasiyaboyu strateji beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində əlverişli geoiqtisadi mövqedə yerləşməsi, eləcə də güclü tranzit potensialı Azərbaycanın transregional ticarətdə mühüm qovşağa çevrilməsini təmin edib. Ölkəmiz beynəlxalq aləmdə Şərq– Qərb, Şimal – Cənub, Cənub – Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin, o cümlədən “Viking” Qatarı layihəsinin fəal iştirakçısı kimi tanınıb.

Forumda Azərbaycanın qarşılıqlı hörmət və maraq əsasında dünya dövlətləri ilə çox güclü əlaqələr qurduğunu, artıq müxtəlif investisiya layihələri üzərində fəal işlər gördüyünü vurğulayan dövlətimizin başçısı bu məsələdə Mərkəzi Asiya ölkələrinin də fərqləndiyini bildirib. Ölkə rəhbəri Mərkəzi Asiya və Körfəz Əməkdaşlığı Şurasına üzv ölkələrin bəziləri ilə bir neçə birgə investisiya fondunun yaradılmasını da bunun bariz ifadəsi kimi səsləndirib.

Əlbəttə, ölkə rəhbərinin vurğuladığı kimi, belə bir sinerjinin yaradılması ölkəmizlə yanaşı, Azərbaycanın əməkdaşlıq etdiyi bütün dövlətlərə də böyük faydası var. Məsələn, 6 ay bundan əvvəl Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə gedəcək “yaşıl” enerji kabelinə dair mühüm bir müqavilənin imzalanması da bunun bariz ifadəsidir. Prezident İlham Əliyevin bu baxımdan sözügedən forumda səsləndirdiyi fikirlər də diqqət çəkir: “Beləliklə, bu müqavilə Mərkəzi Asiyanın artıq mövcud olan və bəzilərinin üzərində iş gedən geniş enerji resurslarını buraya gətirəcək və Azərbaycanın geniş enerji resurslarına əlavə edəcək, enerji təhlükəsizliyi ilə bağlı Avropa ölkələrinə dəstək olacaq... Beləliklə, daşımalar, yaşıl enerji, təhlükəsizlik, sabitlik və əlbəttə ki, regionumuzun dövlətçiliyi və müstəqilliyini qorumaq üçün birgə səylər mühüm beynəlxalq amildir”.

Azərbaycan bu gün “yaşıl” enerji istehsalında olduğu kimi, sosial, təhsil sahələrində də müəyyən layihələrə beynəlxalq tərəfdaşlarla birgə davamlı investisiya yatırır. Məsələn, mövcud vəziyyət Afrikanın timsalında daha aydın nəzərə çarpır. Dövlətimizin başçısının bununla bağlı forumda səsləndirdiyi fikirlər diqqət çəkir: “Cənubi Afrika Afrika qitəsində bizim uzun illərdir səfirliyimizin olduğu az sayda ölkədən biridir. Bizim Afrikada çox səfirliyimiz yoxdur. Lakin səfirliklərin sayı artmaqdadır. Düşünürəm ki, Cənubi Afrika ilklərdən biri olub. Bu, bizim Cənubi Afrika ilə müxtəlif sahələrdə işləməyə olan böyük marağımızı nümayiş etdirir”.

Respublika rəhbərinin sözlərinə görə, Azərbaycan COVID pandemiyası zamanı 80-dən çox ölkəyə maddi və humanitar dəstək göstərib, həmin ölkələrin əksəriyyəti Afrika qitəsində yerləşib. Azərbaycan müxtəlif vasitələrlə təhsil və tibbi proqramları dəstəkləyib. Ölkəmiz Afrikadan olan tələbələrə təqaüdlər verib. Bu, dövlət vəsaiti hesabına, QHT-lər vasitəsilə, Azərbaycanın Xarici İşlər Nazirliyinin tərkibindəki beynəlxalq yardım üzrə agentlik vasitəsilə gerçəkləşib.

Azərbaycan hazırda Afrikadakı bəzi ölkələrə mühüm məsələləri həll etmək üçün aşağıfaizli kreditlər vermək üzrədir. Bunun üçün artıq investisiya portfeli hazırlanır. Beləliklə, bu, humanitar sahənin, eləcə də biznes, investisiya və əlbəttə ki, siyasi münasibətlərin inkişafını sürətləndirir.

Biz belə bir missiyanın COP29-da da şahidi olduq. Başqa sözlə, iqlim savaşında az inkişaf etmiş, ekzistensial təhdidlə üzləşmiş ölkələrin zərərlərinin kompensasıyası məqsədilə onlara dəsdək siyasəti yönəldildi. Bu, beynəlxalq iqlim konfransının sonunda özünü aydın büruzə verdi. Prezident İlham Əliyevin VII ADA Siyasi Forumunda dediyi sözlər xüsusi diqqət çəkdi: “Baxmayaraq ki, bilirəm məqsədi Azərbaycanın sədrliyini nüfuzdan salmaq olan bəzi qondarma ekspertlər deyirdilər ki, maliyyələşməyə nail olunmadı, – biz maliyyələşməni 100 milyard ABŞ dollarından qaldırdıq. Bütün COP-larda, COP28-də əldə olunan səviyyə 100 milyard idi. Ölkəmizdə keçirilmiş COP29-da biz bunu 300-ə qaldırdıq. Beləliklə, bu, nailiyyət deyil? Əlbəttə ki, nailiyyətdir. Biz maliyyələşməni 3 dəfə artırdıq. Biz İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətləri üçün xüsusi proqrama start verdik. Ekzistensial təhdidlərlə əlaqədar İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətlərinə birbaşa dəstək məqsədilə Azərbaycan 10 milyon ABŞ dolları ayırdı, çünki iqlim dəyişikliyi hər kəs üçün problemdir, lakin onlar üçün söhbət onların həyatından gedir, söhbət onların gələcəyindən gedir”.

Forumda bildirildi ki, COP29 zamanı əldə olunmuş başqa mühüm bir nailiyyət karbon bazarının fəaliyyət göstərməsi ilə bağlı razılıq idi. Bu məsələ azı 10 il razılaşdırılmamışdı. Beləliklə, Azərbaycan sədrliyinin səmərəli fəaliyyəti və ən əsası dövlətimizin başçısına olan etimad sayəsində bu məsələ respublikamızda razılaşdırıldı. Dövlətimiz Azərbaycanda Qlobal Cənubla Qlobal Şimal arasında körpülərin qurulmasında mühüm rol oynadı. Eyni zamanda, bu, həm də hökumətin qarşıya qoyduğu mühüm tapşırıqlardan biri idi.

Prezident İlham Əliyev VII ADA Siyasi Forumundakı çıxışında Azərbaycan ilə Çin arasındakı mövcud əməkdaşlığın dinamik inkişafını da yüksək qiymətləndirib. Dövlətimizin başçısı deyib: “Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə mənim Sədr Si Cinpinlə görüşümün nəticəsində qəbul olunub. Bu isə ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətli nailiyyət oldu. Çünki Çin kimi nəhəng ölkə ilə strateji tərəfdaşlıq formatına nail olmaq bizim üçün olduqca vacibdir”.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Azərbaycan hazırda Çin şirkətləri ilə fəal çalışır. Azərbaycan onları müxtəlif sahələrdə, o cümlədən “yaşıl” enerji sahəsində strateji tərəfdaş olmağa dəvət edir.

Azərbaycan bu il “yaşıl” ictimai nəqliyyat vasitələri istehsal edən Çin şirkəti ilə sıx əlaqə yaradıb və cari il artıq istehsal edilmiş ilk avtobuslar istifadəyə veriləcək. Bununla yanaşı, Çin şirkətləri Günəş panelləri istehsalçılarıdır və bu panellər Azərbaycanda başqa ölkələrin sərmayəsi ilə inşa edilən stansiyalarda istifadə olunur. Ölkəmiz, həmçinin Çin şirkətləri ilə “yaşıl” enerji sahəsinə birbaşa sərmayə yatırılması istiqamətində də danışıqlar aparır.

Sonda qeyd edək ki, hazırda Azərbaycan–Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari-iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Təbii ki, belə bir şəraitin davamlı şəkildə formalaşmasına iki ölkə arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlər, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır.

Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə ölkəmiz arasında son illərdə səmərəli investisiya əməkdaşlığı həyata keçirilib. Respublikamızda Çin investisiyalı 300-ə yaxın şirkət qeydə alınıb. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində icra olunan infrastruktur layihələrində Çin şirkətlərinin fəaliyyəti getdikcə genişlənib. Məsələn, “Huawei” şirkəti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında “ağıllı kənd” və “ağıllı şəhər” təşəbbüslərinin gerçəkləşməsində müəyyən uğurlar əldə edilib.

Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin bu dövlətlə ticarət dövriyyəsi davamlı olaraq artır. Çin şirkətləri respublikamızda sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər. Onların ölkəmizə böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiyaya, sahibkarlıq və biliyə əsaslanan sənaye iqtisadiyyatına keçidi uğurla gerçəkləşdirib. Tətbiq edilən vergi və kredit güzəştləri, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb.

***XQ-nin analitik qrupu***

# BVF-nin Azərbaycanla bağlı proqnozları nikbindir

## *Qurum bu il ölkəmizdə iqtisadi artımın 3,5 faiz olacağını bildirib*

**Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər əksər beynəlxalq təşkilatlar tərəfindən bəyənilir, təqdir edilir. Təsadüfi deyil ki, hazırda dünyanın tanınmış maliyyə qurumları da Azərbaycanın gələcək iqtisadi inkişafı ilə bağlı nikbin, ümidverici fikirlər səsləndirir, əvvəlki proqnozlarını mütəmadi olaraq yeniləyirlər. Bu baxımdan Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycanla bağlı növbəti proqnozu diqqət çəkir. Belə ki, qurum ölkəmizin 2025-ci il üzrə iqtisadi artım proqnozunu 1 faiz bəndi artıraraq 3,5 faizə qədər yaxşılaşdırıb.**




Xatırladaq ki, 2024-cü ilin oktyabr ayında BVF-nin Azərbaycanla bağlı iqtisadi artım gözləntiləri 2,5 faiz təşkil edib. Bununla belə, Beynəlxalq Valyuta Fondunda hesab edirlər ki, bu il iqtisadi artım ötən ilə nisbətən yavaşlayacaq. Fond bunu neft və qaz hasilatının azalması, iqtisadiyyata qoyulan yeni sərmayələrin artım dinamikasının nisbətən səngiməsi ilə əsaslandırıb. Bildirilib ki, 2026-cı ildə iqtisadiyyat potensial istehsal səviyyəsinə daha da yaxınlaşacaq. Qurumun proqnozuna əsasən, ölkə iqtisadiyyatında orta müddətdə isə 2,5 faiz artım gözlənilir. "Xarici iqtisadi mühitin orta müddətdə zəifləməsi gözlənilir, karbohidrogen istehsalının və qiymətlərinin azalması ilə ticarət profisitinin daralması və qeyri-karbohidrogen ixracatının zəifləməsi, lakin xarici valyuta ehtiyatlarının güclü qalması proqnozlaşdırılır.

BVF Azərbaycanın qeyri-neft sektorunda iqtisadi artımı 2025-ci ildə 4,5 faiz, 2026-cı ildə 3,7 faiz, 2027-2029-cü illərdə isə 3,5 faiz səviyyəsində müəyyən edib. Qurum bu proqnozları ilə bağlı risklərin, ümumilikdə, balanslı, lakin xarici qeyri-müəyyənliyin yüksək olduğunu vurğulayıb. Qeyd olunub ki, neft və qazın tədarük və tələbdəki dalğalanmalar, enerji keçidindən və ya qlobal yavaşlamadan qaynaqlanan amillər karbohidrogen qiymətlərini azalda bilər ki, bu da iqtisadi artıma, xarici vəziyyətə və fiskal gəlirlərə əhəmiyyətli dərəcədə təsir edə bilər.

Digər risklərin təsirinin isə daha qeyri-müəyyən olduğunu vurğulayan hesabat müəlliflərinin fikrincə, münaqişələrin intensivləşməsi fonunda karbohidrogen qiymətləri artması Azərbaycanın ticarət şərtlərini yaxşılaşdıra bilər. Əks halda ərzaq qiymətlərinin artması ticarət şərtlərini pisləşdirə, dərin parçalanma qeyri-karbohidrogen sektorunun inkişafı və şaxələndirilməsi səylərinə zərər verə bilər. Lakin əgər ticarət və investisiyalar bölgəyə yönləndirilərsə, bu, eyni zamanda imkanlar da yarada bilər.

Beynəlxalq Valyuta Fondunun ölkəmizin 2025-ci il üzrə strateji valyuta ehtiyatları ilə bağlı proqnozu da nikbindir. Qurumda hesab edirlər ki, cari ildə Azərbaycanın valyuta ehtiyatları 71,67 milyard dollara çatacaq. Bununla yanaşı, fond ölkəmizin strateji valyuta ehtiyatlarını 2026-cı ildə 72,36 milyard dollar, 2027-ci ildə 72,22 milyard dollar, 2028-ci ildə 71,75 milyard dollar, 2029-cu ildə isə 72,18 milyard dollar səviyyəsində proqnozlaşdırıb. Yeri gəlmişkən, qurum ölkəmizin strateji valyuta ehtiyatlarının əsas hissəsinin Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri hesabına formalaşacağı qənətindədir. Belə ki, BVF hesab edir ki, ARDNF-in aktivləri 2025-ci ildə 60,91 milyard dollar, 2026-cı ildə 61,797 milyard dollar, 2027-ci ildə isə 61,864 milyard dollara qədər artacaq. Fondun proqnozuna əsasən, 2028-ci ildə 61,594 milyrad dollara qədər azalan aktivlər növbəti ildə yenidən 62,222 milyard dollara yüksələcək.

Bununla belə, Beynəlxalq Valyuta Fondu Azərbaycan Mərkəzi Bankının (AMB) ehtiyatlarının isə qarşıdakı 5 ildə azalan dinamika ilə davam edəcəyini proqnozlaşdırıb. AMB-nin valyuta ehtiyatlarının 2025-ci il üzrə 10,76 milyard dollar təşkil edəcəyini bildirən fondun proqnozuna görə, bu ehtiyatlar gələn il 10,56 milyard dollar, 2027-ci ildə 10,36 milyard dollar, 2028-ci ildə 10,16 milyard dollar, 2029-cu ildə isə 9,96 milyard dollara qədər azalacaq.

İqtisadi artımın ümidverici səviyyəsi, eləcə də strateji valyuta ehtiyatlarının qarşıdakı illərdə artması fonunda Azərbaycanda inflyasiyanın növbəti beş ildə arzuolunan həddə qalacağını söyləməyə imkan verir. Elə Beynəlxalq Valyuta Fondu da ölkəmizdə inflyasiyanın 2025-2029-cu illərdə Mərkəzi Bankın hədəf diapozununda (4±2 faiz) qalacağını proqnozlaşdırıb. Belə ki, 2025-ci ildə Azərbaycanda inflyasiyanın 5,7 faiz təşkil edəcəyini nəzərdə tutan fond bu il üçün proqnozunu 2024-cü ilin oktyabr ayı ilə müqayisədə 0,7 faiz bəndi artırıb. Qurum bu göstəricinin 2026-cı ildə 4,5 faiz, 2027-2029-cu illərdə isə 4 faiz səviyyəsində olacağı qənaətindədir.

Bununla yanaşı, inflyasiyanın Mərkəzi Bankın hədəf diapazonunda qalacağı proqnozlaşdırıldığından Beynəlxalq Valyuta Fondu monetar siyasəti sabit saxlamağı tövsiyə edib. Qeyd olunub ki, son dövrlərdə inflyasiyanın artımı, tənzimlənən qiymətlərdəki düzəlişi bir qədər əks etdirir. "Hazırkı və proqnozlaşdırılan inflyasiyanı nəzərə alaraq, AMB-nin uçot dərəcəsi real mənada, ümumilikdə, neytral olaraq qalır. Lakin həm daxili (büdcə xərclərinin artması və güclü kredit artımından irəliləyən tələbat təzyiqləri), həm də xarici (geosiyasi gərginliklər, qlobal təchizat zəncirlərinin pozulması) inflyasiya riskləri mövcuddur. Mərkəzi Bank bu riskləri yaxından izləməli, diqqətli olmalı və bu risklər reallaşarsa, reaksiya verməyə hazır olmalıdır", – deyə hesabatda bildirilib.

Bütün bunlarla yanaşı, Beynəlxalq Valyuta Fondu ölkəmizdə özəl sektoru gücləndirmək üçün islahatların davam etdirilməsini zəruri hesab edir. Qurum Azərbaycan hökumətini özəl investisiyaların cəlb edilməsi, fiskal risklərin minimuma endirilməsi və islahatların üç əsas istiqamətinin həyata keçirilməsi üçün şərait yaratmağa davam etməyə çağırır. BVF qeyd edir ki, "Azərbaycan 2030" strateji prioritetlərində investisiya fəallığında, iqtisadi artımda və iş yerlərinin yaradılmasında özəl sektorun mühüm rol oynadığı vurğulanır. Bununla bağlı hökumət ötən müddətdə biznesin aparılması və lisenziyalaşdırma prosedurlarını sadələşdirib, eləcə də maliyyə bazarlarının inkişafı istiqamətində addımlar atıb.

Beynəlxalq Valyuta Fondu əsas islahatlar arasında dövlətin iqtisadiyyatda iştirakının azaldılmasını və dövlət müəssisələrinin səmərəliliyinin artırılmasını xüsusi vurğulayıb. Bu baxımdan 2020-ci ildə Azərbaycan İnvestisiya Holdinqinin, 2024-cü ildə isə Azərbaycan Nəqliyyat və Rabitə Holdinqinin yaradılması və bu istiqamətdə həyata keçirilmiş işlər təqdirəlayiq hesab edilib.

# İsrailin innovativ təcrübəsi öyrənilir

**Azərbaycanın İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) rəhbərliyi İsraildə işgüzar səfərdədir. Səfər çərçivəsində İRİA-nın idarə heyətinin sədri Fərid Osmanov bu ölkədə bir sıra məhsuldar görüşlər keçirib.**



İlk görüş İsrailin avtonom idarəetmə və süni intellekt texnologiyaları üzrə qlobal liderlərdən biri olan "Mobileye" şirkətinin rəhbərliyi ilə keçirilib. Görüş zamanı "Mobileye"nin strateji inkişaf modeli, elmi-tədqiqat fəaliyyəti və dövlət – özəl sektor əməkdaşlığı təcrübəsi təqdim olunub. Azərbaycanın rəqəmsal transformasiya və innovasiya gündəliyinə uyğun əməkdaşlıq imkanları da geniş şəkildə müzakirə edilib. Qeyd olunub ki, bu cür tərəfdaşlıqlar yüksək texnologiyaların ölkəyə transferi, innovasiya ekosisteminin inkişafı və rəqəmsal islahatların sürətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, "Mobileye" hazırda 50-dən çox avtomobil istehsalçısı ilə əməkdaşlıq edir və texnologiyaları dünya üzrə 800 milyondan artıq nəqliyyat vasitəsində tətbiq olunur.

Daha sonra nümayəndə heyəti İsrailin aparıcı vençur fondlarından biri olan "OurCrowd" platformasının rəhbərliyi ilə görüşüb. Görüşdə Azərbaycan startap ekosistemindəki potensial, dövlətin innovasiya və sahibkarlığa dəstək mexanizmləri, vençur maliyyələşdirmə infrastrukturu və fəaliyyət göstərən investisiya fondları barədə ətraflı məlumat təqdim olunub. Söhbət əsnasında tərəflər birgə investisiya layihələrinin reallaşdırılması, qabaqcıl texnologiyaların Azərbaycana transferi, həmçinin startaplar arasında təcrübə və bilik mübadiləsi sahəsində əməkdaşlıq imkanlarını dəyərləndiriblər. Azərbaycan nümayəndələri İsrailin inkişaf etmiş innovasiya mühiti ilə tanışlığın və bu sahədə əməkdaşlığın gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayıblar.

Məlumat üçün bildiririk ki, "OurCrowd" dünyanın müxtəlif texnologiya sahələrində fəaliyyət göstərən startaplara investisiya yatıran beynəlxalq platformadır və indiyədək yüzlərlə layihəni maliyyələşdirib.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində İsrailin kibertəhlükəsizlik sahəsində dünya üzrə lider şirkətlərdən biri olan "Checkpoint" təşkilatının rəhbərliyi ilə də görüşüb. Görüş zamanı ölkəmizdə kibertəhlükəsizlik əməliyyat mərkəzlərinin yaradılması, kibertəhlükəsizlik akademiyasının təsis edilməsi və "Checkpoint" şirkətinin qabaqcıl texnoloji həllərinin tətbiqi imkanları geniş şəkildə müzakirə olunub. Bununla yanaşı, şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi və lokal tərəfdaşlıqlar vasitəsilə əməkdaşlığın dərinləşdirilməsi məsələləri ilə bağlı da geniş fikir mübadiləsi aparılıb.




# Tütün sahələri də sığortalanır

**Ölkəmizdə dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi çərçivəsində tütün sahələrinin sığortalanmasına başlanılıb. Aqrar Sığorta Fondunun məlumatına görə, sığorta haqqına tətbiq edilən 50 faizlik dövlət subsidiyası sayəsində fermerlər cüzi məbləğ ödəməklə tütün əkinlərini sığorta edə bilərlər.**

Belə ki, Şəki – Zaqatala regionunda 1000 manatlıq tütün məhsulunun sığorta haqqı 64 manat təşkil edir, bu məbləğin yarısı dövlət tərəfindən qarşılanır, fermer isə 32 manat ödəməklə məhsulunu sığortalaya bilər. Lənkəran – Astara iqtisadi rayonunda isə 1000 manatlıq tütün məhsulunun sığortası fermerə cəmi 12 manata başa gəlir.

Bütövlükdə isə, fermerlər təklif olunan sığorta zərfləri, təminat verilən risklər barədə ətraflı məlumatla Aqrar Sığorta Fondunun rəsmi səhifəsindən (asf.gov.az) tanış ola bilərlər.

Yeri gəlmişkən, 2024-cü ildə ölkədə 5 min 931 ton tütün istehsal olunub ki, bu da əvvəlki ilin istehsal həcmindən 671 ton və ya 12 faiz çoxdur.

# "Araz vadisi"ndə smart televizorlar buraxılacaq




**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenlərinin sırasına daha bir sahibkarlıq subyekti qoşulub. Bugünlərdə "Taube Electronics" MMC-yə də parkın rezidenti statusu verilib.**

İZİA-nın məlumatına görə, şirkət tərəfindən Azərbaycanda ilk dəfə olaraq smart televizorların istehsalı layihəsi həyata keçiriləcək. İnvestisiya dəyəri 3,5 milyon manat olan layihə çərçivəsində 20-yə yaxın daimi iş yeri yaradılacaq.

Məlumatda bildirilib ki, Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisənin illik istehsal gücü 19 min 500 ədəd televizor təşkil edəcək. Müəssisədə 4 müxtəlif ölçüdə (32, 43, 50, 55 düym) smart televizorların istehsalı planlaşdırılır.

Qeyd edək ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Prezident İlham Əliyevin 2021-ci il 4 oktyabr tarixli fərmanı ilə yaradılıb. 200 hektar ərazini əhatə edən sənaye parkında hazırda 17 sahibkarlıq subyekti rezident, 3 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib. İndiyədək parkın ərazisində həyata keçirilmiş işlərə 30 milyon manatdan çox investisiya yatırılıb. Bunun da hesabına 100-ə yaxın daimi iş yeri yaradılıb.

# Qeyri-neft sektorunda ixrac 15 faiz yüksəlib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın aprel sayına əsasən, 2025-ci ilin I rübündə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,7 faiz artaraq 772 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsullarının ixracı 15 faiz artaraq 225 milyon dollara çatıb.**




Bu ilin yanvar-mart aylarında ixrac olunan qiymətli və ya azqiymətli daşlar və metallar ötən ilin müvafiq dövrünə nəzərən 46,7 milyon dollar və ya 3,4 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 9,1 milyon dollar və ya 76,8 faiz, kimya sənayesi məhsulları 21,9 milyon dollar və ya 33,4 faiz, şəkər 976,3 min dollar və ya 18,8 faiz, meyvə-tərəvəz 20,8 milyon dollar və ya 15,7 faiz, alüminium və ondan hazırlanan məmulatlar 4,9 milyon dollar və ya 10,2 faiz, spirtli və spirtsiz içkilər 724 min dollar və ya 5,7 faiz artıb.

Cari ilin yanvar-mart aylarında ixrac edilən aqrar məhsullar 12,3 faiz artaraq 170,5 milyon dollara, aqrar-sənaye məhsulları 17,6 faiz artaraq 69,1 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 13,8 faiz artaraq 239,6 milyon dollara yüksəlib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 86** **Bakı şəhəri, 18 mart 2025-ci il**

**“Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 107 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə” 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanının 6-cı hissəsinin, “Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və “Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 305 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 107 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının (Agentliyin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

___________

*Əlavələr dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 87** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**“Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının 3.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sisteminin (bundan sonra - Sistem) funksionallığının təmin edilməsi, formalaşdırılması, aparılması, həmçinin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq Sistemin “Hökumət buludu”nda yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 88** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**“e-bildiriş”in tərtibi, tətbiqi və uçotu qaydalarının, o cümlədən “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinin formasının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının 3.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “e-bildiriş”in tərtibi, tətbiqi və uçotu Qaydaları” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzi”nin forması təsdiq edilsin (2 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 89** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə həmin Nazirliyin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının 3.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə həmin Nazirliyin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 90** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**“Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2008-ci il 6 sentyabr tarixli 205-24 nömrəli və “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 oktyabr tarixli 296-14 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 173-13 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 406 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında” 2025-ci il 27 yanvar tarixli 298 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 406 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1560 (Cild I); 2024, № 1, maddə 106) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

___________

*Əlavələr dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 91** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında**

“Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının cədvəli bu Qərarın əlavəsinə uyğun olaraq müəyyən edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 92** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**“Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I); 2024, № 2, maddələr 225, 229) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı”nın 3-cü hissəsi ləğv edilsin.

**2.** “Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddən “Cəmiyyəti və Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar” sözləri çıxarılsın;

2.2. həmin Qərarla təsdiq edilmiş “Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”nın 3.9-cu bəndindən “, Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin” sözləri çıxarılsın.

**3.** “Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1614 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 93** **Bakı şəhəri, 19 mart 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın 3.4-cü bəndinin birinci cümləsinə “Təmsilçinin” sözündən sonra “(Təmsilçi yaşayış ünvanında olmadıqda, ailənin yetkinlik yaşına çatmış və əmək qabiliyyətli üzvlərindən birinin)” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 94** **Bakı şəhəri, 1 aprel 2025-ci il**

**“Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar”ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın 5.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarla təsdiq edilmiş meyarlarda adları qeyd olunan dövlət orqanları (qurumları) meyarların 1.2-ci bəndinin icrasını təmin etmək üçün müvafiq tədbirlər görsünlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 96** **Bakı şəhəri, 2 aprel 2025-ci il**

**“Yanacaq ehtiyatının maliyyələşdirilməsi, yaradılması, qorunması, istifadəsi, həcmi və uçotunun həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 yanvar tarixli 2 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında” və “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli 283 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Yanacaq ehtiyatının maliyyələşdirilməsi, yaradılması, qorunması, istifadəsi, həcmi və uçotunun həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 60 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 97** **Bakı şəhəri, 3 aprel 2025-ci il**

**“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 272 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 sentyabr tarixli 192 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 272 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 609) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Bakı Hərbi Kollecinin Nizamnaməsi”nin 7.27-ci bəndinə “gizir” sözündən sonra “(miçman)” sözü əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Gəncə Hərbi Kollecinin Nizamnaməsi”nin 7.27-ci bəndinə “gizir” sözündən sonra “(miçman)” sözü əlavə edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – “Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi”nin 7.27-ci bəndinə “gizir” sözündən sonra “(miçman)” sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 95** **Bakı şəhəri, 1 aprel 2025-ci il**

**“Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 6 (II kitab), maddə 724) ilə təsdiq edilmiş “Ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Atmosfer havasına zərərli maddələrin atılmasına və tullantıların ətraf mühitdə yerləşdirilməsinə görə ödəniş normativlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, su obyektlərinə zərərli maddələrin axıdılmasına görə ödəniş normativlərini Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tətbiq edir. ;

1.2. 5-ci hissə aşağıdakı redaksiyada verilsin;

“5. Təbiətdən istifadəçilər üçün müvafiq müddətə çirkləndirici maddələrin ətraf mühitə atılmasının və tullantılarının yerləşdirilməsinin yol verilən həcmləri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, su obyektlərinə çirkləndirici maddələrin axıdılmasının yol verilən həcmləri Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən qoyulan limitlərlə müəyyənləşdirilir.”;

1.3. 17-ci hissənin dördüncü abzasında “Ekologiya və Təbii Sərvətlər Nazirliyi məhkəməyə müraciət edir” sözləri “bu Qaydaların 4-cü hissəsinə müvafiq olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi və ya Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi məhkəməyə müraciət edirlər” sözləri ilə əvəz edilsin.

**2.** “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərara 1 nömrəli əlavə - “Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları”nda “Azərbaycan Respublikasının Su Təsərrüfatı Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabineti fövqəladə komissiyasının tərkibi”ndə “S.H.Hacıyev - Azərbaycan Respublikası meliorasiya və su təsərrüfatı naziri” sözləri “Zaur Mikayılov - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri” sözləri ilə əvəz edilsin.

**3.** “Dövlət su kadastrının aparılması qaydaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 5 dekabr tarixli 261 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci hissənin birinci abzasında “ Nazirliyinə və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə (yerüstü və yeraltı sular bölmələri üzrə) və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə (sulardan istifadə bölməsi üzrə)” sözləri “Nazirliyinin iştirakı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə” sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissədə “Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

3.3. 3-cü hissədə “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yerüstü və yeraltı sular bölmələri üzrə), Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (sulardan istifadə bölməsi üzrə)” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

3.4. 4-cü hissədə “Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə,” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 195 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 602; (Cild I) ilə təsdiq edilmiş “Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissənin birinci abzasında “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (yerüstü su obyektləri üzrə) həyata keçirirlər” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir” sözləri ilə əvəz edilsin və həmin hissənin ikinci abzası çıxarılsın;

4.2. 6-cı hissədə “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**5.** “Azərbaycan Respublikasının su qanunvericiliyi ilə bağlı bəzi qaydaların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərar iləə təsdiq edilmiş “Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində normalaşdırma Qaydaları” üzrə:

5.1.1. 3-cü hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, “Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın;

5.1.2. 4-cü hissədə “Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Fövqəladə Hallar Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ” sözləri ilə əvəz edilsin, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri çıxarılsın;

5.1.3. 6-cı, 7-ci, 8-ci, 9-cu hissələrdə “Fövqəladə Hallar Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, “, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri çıxarılsın;

5.2. həmin Qərar iləə təsdiq edilmiş “Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları” üzrə:

5.2.1. 3-cü hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, “və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın;

5.2.2. 6-cı hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, “,Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın;

5.2.3. 8-ci hissədə “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

5.2.4. 10-cu hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” və “Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

5.3. həmin Qərar ilə təsdiq edilmiş “Su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərinin işlənib hazırlanması, razılaşdırılması, dövlət ekspertizası, təsdiqi və həyata keçirilməsi Qaydaları” üzrə:

5.3.1. 7-ci hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

5.3.2. 11-ci hissədə “müvafiq olaraq Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatları əsasında” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təqdimatı əsasında” sözləri ilə “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri ilə əvəz edilsin;

5.3.3. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

“8. Yeraltı su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi Baş sxemi, hövzə və ərazi sxemləri Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Azərenerji” Səhmdar Cəmiyyətinin iştirakı ilə hazırlanır.”;

5.3.4. 10-cu hissənin ikinci abzasında “müvafiq olaraq Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

5.3.5. 12-ci hissə aşağıdakı redaksiyada verilsin:

“12. Su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi hövzə sxemləri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Azərenerji” Səhmdar Cəmiyyəti ilə razılaşdırılmaqla Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təsdiq olunur.”;

5.3.6. 13-cü hissə aşağıdakı redaksiyada verilsin:

“13. Su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi ərazi sxemləri yerüstü və yeraltı su ehtiyatları üzrə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təsdiq olunur;”;

5.4. həmin Qərar iləə təsdiq edilmiş “Sudan təsərrüfatdaxili istifadə planlarının və sudan istifadəyə dair ümumsistem planlarının təsdiq edilməsi Qaydası”nın 11-ci bəndinin üçüncü abzasında və 15-ci bəndində ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 637 (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş “Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə”nin 4.8.4-cü yarımbəndində “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I); 2024, № 2, maddə 208) ilə təsdiq edilmiş “Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4-cü hissədə ““,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (yerüstü su obyektləri üzrə)“” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin” sözləri ilə əvəz edilsin, “və Fövqəladə Hallar Nazirliyinin” sözlər çıxarılsın;

7.2. 15-ci hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin və həmin hissədən “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi,” sözləri çıxarılsın.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 17 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 77 (Cild I) ilə təsdiq edilmiş “Suların dövlət uçotunun Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

“5. Suların dövlət uçotu Azərbaycan Respublikasında vahid sistem üzrə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən aparılır.”;

8.2. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

“7. Dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən müəyyən edilir.”;

8.3. 8-ci hissə ləğv edilsin;

8.4. 9-cu hissə aşağıdakı redaksiyada verilsin:

“9. Suların dövlət uçotu sahəsində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

Yerüstü və yeraltı suların, onların istismar ehtiyatlarını nəzərə almaqla dövlət uçotunu aparır, həmin suların rejiminə və keyfiyyətinə müşahidəni təmin edir.

Yerüstü və yeraltı suların dövlət uçotu, onların rejimi və keyfiyyəti monitorinqi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatlarının yeraltı suların kəşfiyyatı, onların rejiminin öyrənilməsi və balansı haqqında materialları əsasında, digər təşkilatların apardığı hidrogeoloji işlər nəticəsində alınmış məlumatlar istifadə olunmaqla Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təsdiq edilmiş forma və müddətlərdə həyata keçirilir;

aidiyyəti müəssisə, təşkilat və idarələri suların dövlət uçotu materialları əsasında yeraltı su obyektləri və onların hidrogeoloji rejimləri haqqında məlumatlarla, habelə müəssisə, qurğu və digər obyektlərin layihələşdirilməsi, tikintisi və istismarı üçün tələb olunan hidrogeoloji proqnozlarla təmin edir;

yerüstü və yeraltı suların çirklənmə səviyyəsi üzərində müşahidə və nəzarəti təşkil edir, aidiyyəti müəssisə, təşkilat və idarələri yeraltı suların çirklənmə səviyyəsi, habelə təsərrüfat fəaliyyəti və hidrometeoroloji şəraitin təsiri nəticəsində yeraltı suların çirklənmə dərəcəsində ola biləcək dəyişikliklər barədə məlumatlarla müntəzəm olaraq təmin edir;

su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunun düzgün aparılmasına və bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə nəzarəti təmin edir;

su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunu aparmaq məqsədilə (yerüstü və yeraltı sular bölmələri üzrə) müvafiq formalar təsdiq edir və onları bütün su istifadəçilərinə çatdırır;

su obyektlərinin istifadəçiləri və su istehlakçılarının hesabatları əsasında respublika üzrə sudan istifadə edilməsinin uçotunu aparır;

su obyektlərinin istifadəçilərinin və su istehlakçılarının qeydiyyatını aparır.”;

8.5. 10-cu hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.”;

8.6. 11-ci hissə ləğv edilsin;

8.7. 12-ci hissə aşağıdakı redaksiyada verilsin:

“12. Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün sudan istifadə edənlər:

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən hazırlanmış forma və müddətlərdə su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunu aparırlar;

bütün sugötürücü və suatıcı qurucularda götürülən və atılan suların həcmini ölçmək üçün ölçü cihazları (su sərfini və səviyyəsini ölçənlər, başqa hidrometrik avadanlıq) və tullantı sularının keyfiyyətini ölçən cihazlar quraşdırırlar;

Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş formalar və onların doldurulma qaydaları əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə suların istifadəsinə dair statistik hesabat təqdim edirlər;

su obyektlərindən götürülən və onlara axıdılan suların müəyyən olunmuş rejiminin pozulması və qəza nəticəsində zərərli maddələrin su mənbələrinə axıdılması hallarında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə təcili xəbər verirlər.”.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 244 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 546 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları”na aşağıdakı dəyişikliklər edilsin:

9.1. 5-ci bənddə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, “və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın;

9.2. 6-cı bənddə “Nazirliyi” sözü “Nazirliyinin iştirakı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

9.3. 18-ci bənddə “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

9.4. 19-cu bənddən “və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

9.5. 20-ci bənddə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 358 (Cild I) ilə təsdiq edilmiş “Xüsusi qorunan su obyektlərinin kateqoriyalara aid edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 6-cı, 7-ci, 9-cu,10-cu və 11-ci bəndlərdə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin, ismin müvafiq hallarında “və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri çıxarılsın;

10.2. 14-cü bəndə “yalnız” sözündən sonra “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin və” sözləri əlavə edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 dekabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 867 (Cild I) ilə təsdiq edilmiş “Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 4-cü, 6-cı, 9-cu hissələrdə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

11.2. 12-ci hissədə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 11 avqust tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 458 (Cild I) ilə təsdiq edilmiş "“Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin tərtib olunma Qaydaları və forması"”nın 4.7-ci bəndində “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin” sözləri ilə əvəz edilsin.

13. “Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısının, mühafizə rejimi və təhlükəsizliyi üzrə Təsnifatı”nın, “Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları”nın və “Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli 109 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 464 (Cıild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Qərarla təsdiq edilmiş “Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısının, mühafizə rejimi və təhlükəsizliyi üzrə Təsnifatı”nın 3.1.1.10-cu bəndində “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin və onun tabeliyində olan qurumların” sözləri ilə əvəz edilsin;

13.2. həmin Qərarla təsdiq edilmiş “Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları”nın 9-cu,11-ci,12-ci, 18-ci və 20-ci hissələrində ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

13.3. həmin Qərarla təsdiq edilmiş “Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları”üzrə:

13.3.1. 5-ci hissədə “ Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin ;

13.3.2. 11-ci hissədə “Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

13.3.3. 12-ci və 13-cü hissələrdə “cəmiyyət” sözü “agentlik” sözü ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 99 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 590 (Cild I) ilə təsdiq edilmiş “Daşqın zonalarının, onların mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin müəyyən edilməsi və istifadəsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 6-cı, 11-ci və 16-cı bəndlərdə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

14.2. 9-cü bənddə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin.

15. “Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin Birliyin uzunmüddətli istifadəsinə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması Qaydası”nın, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişin forması”nın və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişə uyğun olaraq bağlanılan illik müqavilənin forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyul tarixli 138 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2005,№ 7, maddə 671 (Cild I) adında (hər iki halda),1-ci bənddə (hər iki halda) və 2-ci bənddə ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin;

15.1. həmin Qərarla təsdiq edilmiş “Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin Birliyin uzunmüddətli istifadəsinə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması Qaydası”nın 2-ci, 3-cü, 3.6-cı, 3.8-ci, 4-cü, 5-ci, 7-ci, 8-ci, 9-cu, 10-cu, 11-ci və 12-ci bəndlərində ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin;

15.2. həmin qQərarla təsdiq edilmiş “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişin forması”nın adında, bütün mətnində və saziş formasına əlavənin adında ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti"” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin;

15.3. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişə uyğun olaraq bağlanılan illik müqavilənin forması”nın adında və mətnində ismin müvafiq hallarında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti"” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxs” sözləri ilə əvəz edilsin.

**16.** “Meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması Qaydaları”nın və “Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 8 may tarixli 112 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 435 (Cild I); 2024, № 9, maddələr 1090, 1106) aşağıdakı dəyişikliklər edilsin:

16.1. həmin Qərarla təsdiq edilmiş “Meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması Qaydaları” üzrə:

16.1.1. 3.1-ci bənddə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət)” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” (bundan sonra – Agentlik)” sözləri ilə əvəz edilsin;

16.1.2. 3.1.1-ci, 3.1.2-ci, 3.1.3-cü yarımbəndlərdə ismin müvafiq hallarında “Cəmiyyət” sözü “Agentlik” sözü ilə əvəz edilsin;

16.2. həmin Qərarla təsdiq edilmiş “Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması Qaydaları”nın 1.13-cü bəndində “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin” sözləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I); 2024, № 2, maddələr 225, 229) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin siyahısı”nın 4-cü bəndi hissə ləğv edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 202 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 973 (Cıild I) ilə təsdiq edilmiş “Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları”nın 2.1.2-ci yarımbəndində “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin” sözləri ilə əvəz edilsin.

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 976 (Cild I) ilə təsdiq edilmiş “Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları”nın 2.7-ci , 2.10-cu və 2.12-ci bəndlərində ismin müvafiq hallarında ”” Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti” sözləri ismin müvafiq hallarında “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 may tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 989 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş “Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

20.1. 2.1.2-ci yarımbənddə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

20.2. 2.4-cü, 2.5-ci, 2.6-cı bəndlərdə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 oktyabr tarixli 462 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2176 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın 9-cu və 11-ci bəndləri ləğv edilsin.

**22.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli 208 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 943 (Cild I); 2024, № 3, maddə 336) ilə təsdiq edilmiş “Respublika üzrə illik su təsərrüfatı balansının təsdiq edilməsi Qaydası”nın 2.1-ci bəndində “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**23.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I); 2024, № 3, maddə 294, № 4, maddə 455) ilə təsdiq edilmiş “Geoloji Kəşfiyyat Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 3.1.20-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.1.20. Nazirliyin razılığı ilə aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə yeraltı su obyektlərinin monitorinqinin, habelə yeraltı suların istismar ehtiyatlarını müəyyən etməklə dövlət uçotunun aparılmasında iştirak etmək;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakıda beynəlxalq elmi-tibbi simpozium




**Aprelin 10-da Bakıda radionuklid terapiya və nüvə təbabətinə həsr olunmuş ilk beynəlxalq elmi məclis – Radiofarmasevtik Müalicə üzrə Beynəlxalq Simpozium işə başlayıb.**

Nüvə Təbabəti Cəmiyyətinin 6-cı Konfransı ilə birgə keçirilən bu simpoziumda onkoloji xəstəliklərin müasir diaqnostikası və müalicəsi sahəsində dünyanın müxtəlif ölkələrindən tanınmış alim və mütəxəssislər iştirak edirlər. Simpozium, radionuklid terapiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilat – Ümumdünya Radiofarmasevtik və Molekulyar Terapiya Assosiasiyası (WARMTH) ilə birgə əməkdaşlıq çərçivəsində keçirilir.

Simpoziumun ilk iş günü xarici qonaqlar Milli Onkologiya Mərkəzinin Nüvə Təbabəti və Radionuklid Terapiya Mərkəzinə baş çəkib, buradakı şərait və iş prosesi ilə yaxından tanış olublar. Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyev simpozium iştirakçılarına mərkəzin keçdiyi inkişaf yolu, fəaliyyət prinsipləri, son illərdə əldə edilmiş uğurlar barədə geniş məlumat verib.



Simpoziumun açılışında çıxış edən Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini professor Əziz Əliyev ölkəmizdə onkoloji sahəyə göstərilən dövlət dəstəyi barədə məlumat verib.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, Əməkdar həkim Rəşad Mahmudov radionuklid terapiya və nüvə təbabətinin müasir dövrdə xərçəng xəstəliyinin diaqnozunun qoyulmasında və müalicəsində aparıcı istiqamətləri özündə ehtiva etdiyini bildirib: “Son illərdə Azərbaycanın səhiyyə sistemində nəzərəçarpacaq transformasiya, əsaslı dönüşlər baş verib. Onkologiya xidmətinin keyfiyyəti yaxşılaşıb, səhiyyə sahəsində çalışan işçi qüvvəsinin potensialı gücləndirilib”.

Nüvə təbabəti şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Fuad Novruzov isə ölkəmizdə aparılan radionuklid terapiya və yerli radiofarmasevtik dərman vasitələrinin istehsal imkanları barədə təqdimatla çıxış edib.

Simpoziumun ilk günündə ABŞ Nüvə Təbabəti Cəmiyyətinin prezidenti Keti Katler, Beynəlxalq Atom Enerjisi Agentliyinin nümayəndəsi Diana Paez, WARMTH prezidenti professor Kalevi Kairemo da daxil olmaqla bir sıra beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Onlar radionuklid terapiya sahəsindəki trendlər, qlobal əməkdaşlıq imkanları və perspektivlərlə bağlı elmi mülahizələrini təqdim ediblər.

Beynəlxalq simpozium aprelin 12-dək davam edəcək.

***XQ***

# Azərbaycanda Qətər Mədəniyyəti Günləri





**Aprelin 10-da Heydər Əliyev Mərkəzində Qətər Mədəniyyəti Günlərinin rəsmi açılış mərasimi keçirilib.**

Əvvəlcə qonaqlar Dənizkənarı Milli Parkda təşkil olunan müxtəlif təyinatlı pavilyonlarda Qətərin zəngin mədəni irsi ilə tanış olublar. Burada ziyarətçilərə Qətərin milli geyimləri, mətbəxi, musiqisi, toxuculuq və kalliqrafiya sənətinin incə nümunələri təqdim edilib.

Heydər Əliyev Mərkəzində keçirilən Qətər Mədəniyyəti Günlərinin rəsmi açılış mərasimində isə Qətərin incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə geniş konsert proqramı təqdim olunub.

Tədbirdə mədəniyyət naziri Adil Kərimli, Qətərin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani, diplomatlar, mədəniyyət xadimləri və digər qonaqlar iştirak ediblər.

Aprelin 10-dan 13-dək Bakıda keçiriləcək Qətər Mədəniyyəti Günləri çərçivəsində müxtəlif sərgilər, konsert proqramları və müzakirə platformaları təşkil olunacaq.

Xatırladaq ki, bundan əvvəl ölkəmizdə Qətər Mədəniyyəti Günləri 2009-cu ilin iyun ayında keçirilib. Qeyd edək ki, 2024-cü ilin fevral ayında Qətərin paytaxtı Dohada təşkil olunan Azərbaycan Mədəniyyəti Günləri dost ölkədə mədəniyyətimizin təntənəli təqdimatı ilə yadda qalıb.

***XQ***

MƏHKƏMƏDƏ ETİRAF

# Ermənistan vətəndaşı hərbi xidməti Füzulidə keçib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 10-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Təqsirləndirilən şəxs Melikset Paşayan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərində qanunsuz olaraq hərbi xidmət keçdiyini etiraf edib.

Ermənistan Respublikası Silahlı Qüvvələrində xidmət etmiş M.Paşayan ona “Kalaşnikov” silahı təhkim olunduğunu bildirib.

Müddətli həqiqi hərbi xidməti 1989-1991-ci illərdə Uzaq Şərqdə keçdiyini deyən M.Paşayan 1993-cü ildə “Əsgəran alayı”na qoşulduğunu bildirib və əlavə edib: “1993-cü ilin, təxminən, may ayından 1994-cü ilə – atəşkəsə qədər döyüş postunda oldum. Tabor komandirimiz Vilen Safaryan idi”.

M.Paşayan Birinci Qarabağ müharibəsi zamanı 31-ci taborda xidmət etdiyini, hərbi hissənin komandirinin Vitali Balasanyan olduğunu da deyib.

O, Əsgəran, Ağdərə və Ağdam rayonlarının müxtəlif kəndlərində döyüş postlarında olduğunu söyləyib. Təqsirləndirilən şəxs döyüş postlarında avtomat, pulemyot və minaatan silahların olduğunu açıqlayıb.

İkinci Qarabağ müharibəsində də ona “Kalaşnikov” avtomatının təhkim olunduğunu deyən M.Paşayan silahın kimə qarşı istifadə etmək üçün verilməsi barədə suala “Azərbaycan Ordusuna qarşı...” cavabını verib.

M.Paşayan 2023-cü il may ayından sentyabr ayına qədər Xocalı rayonunun Aşağı Yemişcan kəndində yaradılmış silahlı birləşmədə olub.

Təqsirləndirilən şəxs qondarma rejimin “igidliyə görə” medalı ilə təltif olunduğunu bildirib.

Digər ərazilərlə yanaşı, Ağdam rayonunun Sarıcalı, Güllücə və digər kəndlərində də döyüş postlarında durduğunu təsdiqləyən təqsirləndirilən şəxs dövlət ittihamçısının sualına cavabında “Ağdam Azərbaycan Respublikasının rayonudur” deyib. Lakin Azərbaycan ərazilərində nəyi kimdən qoruması barədə suala cavab verə bilməyib.

M.Paşayana döyüş postlarının ətrafına mühəndis-istehkamçılar tərəfindən minalar basdırıldığını da deyib.

O, həm Birinci, həm İkinci Qarabağ müharibələri zamanı, həm də sonrakı müddətdə hərbi xidmətinə görə maaş aldığını bildirib.

Daha sonra təqsirləndirilən şəxs Davit Allahverdiyan dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırıb. O,













“Xankəndi universiteti”ndə təhsil aldığını, 2006–2008-ci illərdə Əsgərandakı hərbi hissədə hərbi xidmətdə olduğunu, Ağdamda döyüş növbətçiliyi həyata keçirdiyini bildirib və deyib: “Hərbi hissənin komandiri Artur Harutyunyan idi. Hərbi xidmətdə olarkən mənə snayper silahı təhkim edilmişdi”.

Onun sözlərinə görə, hərbi xidmətdən qayıdarkən ali təhsilini davam etdirib. Lakin həmin vaxt təhsil aldığı ali məktəb Ermənistan Aqrar Universitetinin “filialı”na çevrilibmiş.

Bundan sonra Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran D.Allahverdiyan 2020-ci il sentyabrın 1-də Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində yaradılmış qondarma rejimin “Təhlükəsizlik şurası”nın “kənd təsərrüfatı sektorunun müdiri”, sonra isə rejimin “kənd təsərrüfatı nazirinin müşaviri” “vəzifələr”ində çalışdığını deyib.

44 günlük müharibə zamanı hərbi xidmətə çağırıldığını söyləyən təqsirləndirilən şəxs ona avtomat silah təhkim edildiyini bildirib. O, daha sonra 2023-cü ilin yanvar ayında qanunsuz silahlı birləşmənin tərkibinə qoşulub. Silahlı birləşmənin tərkibində olduğuna görə isə hərbi xidmət günlərinin sayına görə maaş alıb.

Kənd təsərrüfatı sahəsi üzrə “vəzifəli şəxs” olmuş D.Allahverdiyan Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində taxıl əkildiyini və məhsulun Ermənistana göndərildiyini etiraf edib.

Daha sonra təqsirləndirilən şəxs Levon Balayan dövlət ittihamçılarının suallarını cavablandırıb. L.Balayan 1978-ci ildə Bakı şəhərində anadan olduğunu, 44 günlük müharibədə Azərbaycana qarşı döyüşdüyünü bildirib.

Bu zaman təqsirləndirilən şəxs David Babayan suallara cavab verməsində Levon Balayana kömək etdiyinə görə hakim D.Babayana xəbərdarlıq edib.

L.Balayan müharibədən sonra aylıq maaş müqabilində qanunsuz hərbi birləşməyə qoşulduğunu, Ermənistan dramı ilə 400-500 ABŞ dolları ekvivalentində əməkhaqqı aldığını deyib.

Təqsirləndirilən şəxs Qurgen Stepanyan dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən Ermənistan Respublikasının vətəndaşı kimi 2006-cı ildə hərbi xidmətə çağırıldığını, hərbi xidmətini 2 il müddətində Azərbaycan Respublikasının həmin vaxt işğalda olan Füzuli rayonunda çəkdiyini bildirib.

“Ermənistanın Cermux şəhərində yaşayırdım. Məni hərbi xidmətə Ermənistan dövləti çağırmışdı”, - deyə o əlavə edib.

Q.Stepanyan xidmət etdiyi hərbi hissədə zabitlər arasında Ermənistan vətəndaşlarının sayca üstünlük təşkil etdiyini də deyib.

Sonrakı dövrdə “Xocavənd alayı”na qoşulduğunu deyən təqsirləndirilən şəxs xidməti müqabilində bank kartı vasitəsilə maaş aldığını etiraf edib.

Təqsirləndirilən şəxs Vasili Beqlaryan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zaman 2012–2013-cü illərdə Ağdərədə müddətli hərbi xidmətdə olduğunu, 2018-ci ilədək Xocavənd rayonunun Edilli kəndində, sonra isə 2022-ci ilədək Ermənistanın İrəvan şəhərində yaşadığını deyib.

Həmin ilin sentyabrında Xankəndiyə gələrək müddətli hərbi qulluqçu kimi xidmətə başladığını deyən təqsirləndirilən şəxs ayda 400 min Ermənistan dramı maaş aldığını söyləyib.

Təqsirləndirilən şəxs Erik Qazaryan Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarına cavab olaraq 2021-ci ildə müddətdən artıq hərbi xidmət üçün Ermənistanın Qafan şəhərindən Azərbaycanın Xankəndi şəhərinə getdiyini deyib.

“Ermənistandan istənilən vətəndaş hərbi xidmət üçün müraciət edə bilərdi”, – deyən təqsirləndirilən şəxs bunun üçün yeganə şərtin qeydiyyat yerinin dəyişdirilməsi olduğunu bildirib və əlavə edib: “Bir aya yaxın müddətdə Qafan qeydiyyatından çıxıb Ağdərə qeydiyyatına düşdüm”.

O, müddətdən artıq hərbi xidmətə görə ayda 400 min drama yaxın (təxminən 800 ABŞ dolları) maaş aldığını deyib.

Təqsirləndirilən şəxs Azərbaycan hərbçiləri tərəfindən saxlanılarkən üzərində avtomat silahı olduğunu da bildirib.

Məhkəmənin növbəti iclası aprelin 11-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

***XQ***

# Süni intellekt – gələcəyin möcüzəli güc mənbəyi

**Müasir dünya əsaslı transformasiyadan keçir–“soyuq müharibə”dən sonra yaranmış sistemi əvəz edən yeni dünya nizamı formalaşır. Bu proses Qərb hegemonluğunun zəifləməsi, çoxqütblülüyün artması, texnoloji və iqtisadi yenidən konfiqurasiya, regional güclərin rolunun güclənməsi ilə xarakterizə olunur. Xüsusilə də texnoloji inqilab sayəsində dünya nizamı dəyişikliklərə məruz qalır və ölkələri milli maraqlarına uyğun addımlar atmağa vadar edir. Bəs hansı texnologiyalar dünya nizamına daha çox təsir göstərir?**

Sürətlə inkişaf edən bir neçə texnologiya iqtisadiyyat, siyasət, cəmiyyət və beynəlxalq münasibətlərə dərin təsirləri ilə yeni dünya nizamının formalaşmasında əsas rol oynayır. Bu texnologiyalar arasında özünü qabarıq hiss etdirən süni intellekt alətidir. Biz tarixin həmişə qaliblər tərəfindən yazıldığını bilirik, amma bu gün tarixi həm də kod yazır. Süni intellekt indi, sadəcə, texnologiya deyil, o, yeni reallığın da təməlinə çevrilir. İqtisadiyyat, müdafiə, siyasət, cəmiyyət – bütün sahələr yeni mərhələyə qədəm qoyur, burada süni intellekt nəinki prosesləri sürətləndirir, həm də oyun qaydalarını dəyişir.





Süni intellekt sürətlə güc mənbəyinə çevrilir. Böyük verilənlərə, hesablama resurslarına və qabaqcıl modellərə çıxışı olanlar strateji üstünlük əldə edirlər. Təsadüfi deyil ki, süni intellekt ABŞ, Çin, Avropa İttifaqı və digər texnologiya mərkəzləri arasında şiddətli rəqabət obyektinə çevrilir. Nüvə enerjisi bir vaxtlar güc balansını dəyişdirdiyi kimi, süni intellekt də yeni nəzarət və tarazlıq sistemi yaradır – yalnız indi nəzarət və tarazlıq rəqəmsaldır. Buna görə də, əminliklə deyə bilərik ki, XXI əsrin həqiqi yarışı silahlanma yarışı deyil, alqoritm yarışıdır.

Təəssüf ki, süni intellekt insanların rəqəmsal profillərini yaratmağa, məlumatları idarə etməyə və hətta digər ölkələrdəki siyasi proseslərə təsir göstərməyə də imkan verir. Bu xüsusiyyətinə görə də mütəxəssislər yeni bir güc növünün yaranmasından – alqoritm dominantlığından danışmağa başlayıblar. Burada da təsir ordu vasitəsilə deyil, neyron şəbəkələri və platformalar vasitəsilə həyata keçirilir.

Bundan başqa, kibertəhlükəsizlik ərazi təhlükəsizliyi qədər vacib hala gəlir. Yəni kiber komandanlıqlar artıq ordunun bir hissəsi sayılır və “rəqəmsal casuslar” da ənənəvilər kimi yüksək qiymətləndirilir.

Süni intellekt qlobal bərabərsizliyi də artırmaq potensialına malikdir. Belə ki, güclü süni intellekt infrastrukturuna və mütəxəssislərinə malik olan ölkələr təsirlərini artıracaq, geridə qalanlar isə rəqəmsal asılılığa düşmək riski ilə üzləşəcəklər. Bu, sadəcə, “texnoloji boşluq” deyil, sivilizasiyanın təbəqələşməsidir.

Süni intellekt həm də etik suallar doğurur: intellekt kimə məxsusdur? Dünya bu dilemma ilə üz-üzədir: ya ədalətli rəqəmsal sivilizasiya qurulacaq, ya da bütün prosesləri həll edəcək “alqoritm avtokratiyası” qalib gələcək. Əlbəttə, insan zəkası bu gün ikinci seçimə qarşıdır.

Artıq heç kimə sirr deyil ki, süni intellekt böyük gücləri daha da gücləndirir. Texnologiya və məlumatları idarə edən bir neçə rəqəmsal blok meydana çıxır. Bunun nəticəsində də dünyada yeni bir “rəqəmsal soyuq müharibə” yaranır.

Vəziyyəti qəlizləşdirən məqamlardan biri də budur ki, süni intellekt nəzarətsiz inkişaf edir, dövlətlər tərəfindən idarə olunmayan muxtar iqtisadi və siyasi sistemlər yaranır. Nüvə və ya biotexnologiyadan fərqli olaraq, süni intellekt hələ də beynəlxalq nəzarət çərçivəsinə malik deyil və bu hal onu yeni dünya nizamında ən gözlənilməz qüvvələrdən birinə çevirir.

Süni intellekt hökumətlərin onu tənzimləyə biləcəyindən daha sürətlə inkişaf edir. Bundan başqa, süni intellektdə liderlik uğrunda amansız mübarizə aparan ABŞ, Çin və Aİ özlərini ümumi qaydalarla məhdudlaşdırmaq istəmirlər. Buna görə də, süni intellekt sahəsində etik qaydaları OpenAI, Google, Meta və digər nəhənglər müəyyənləşdirirlər. Təbii ki, hər biri öz maraqları çərçivəsində qaydalara əməl edirlər.

Süni intellekt milli təhlükəsizliyə də təhdidlər yarada bilər. Məsələn, döyüş dronları və süni intellektlə işləyən kiber silahlar nəzarətdən çıxa bilər. Çox sayda ölkələrdə sabitliyi poza biləcək miqyasda dezinformasiyanın yayılması da təhlükələr sırasındadır. Bundan başqa, süni intellekt mühüm infrastrukturu (elektrik şəbəkələri, banklar, dövlət qurumları) çökdürə bilər ki, bu da ölkələrə böyük təhdidlər yaradır.

Bu proseslərə Azərbaycan necə cavab verməlidir? Əlbəttə, iqtisadiyyatda süni intellektin tətbiqi neft-qaz sektorunun avtomatlaşdırılmasına, ağıllı şəhərlərin, rəqəmsal hökumətin inkişafına şərait yaradacaq. Amma süni intellekt hücumlarına qarşı milli müdafiə sistemlərinin yaradılması da diqqət mərkəzində saxlanılmalıdır. Bunun üçün yerli texnoloji şirkətlərə dəstək verən mütəxəssislərinin hazırlanmasına ehtiyac yaranır. Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nda bu mühüm məsələlərə xüsusi diqqət ayrılır.

Bir sözlə, süni intellekt rəqəmsal dövrün “Vəhşi Qərb”idir. O, özü ilə böyük imkanlar, həm də böyük risklər gətirir. Süni intellekt, sadəcə, alət deyil, sürətlə dünyanın yeni məntiqinə çevrilir. Onu mənimsəyənlər gələcəyi də formalaşdıracaqlar. Buna görə də, yeni dünya nizamında zəkanın özünü güc kimi qabarıq göstərməsi danılmaz reallıqdır. Ancaq burada mühüm bir suala cavab vernək lazım gələcək: bu intellekt kimin olacaq – maşınların, korporasiyaların, yoxsa hər halda insanın?

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Kamran Əliyev növbəti dəfə BPA-nın vitse-prezidenti seçilib



**Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 59-cu iclasında yekdilliklə qəbul olunmuş qərara görə, Azərbaycanın Baş prokuroru Kamran Əliyevi növbəti dəfə BPA-nın vitse-prezidenti seçilib.**

Xatırladaq ki, Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 7–9-da Argentinanın Buenos-Ayres şəhərində keçirilmiş BPA-nın İcraiyyə Komitəsinin 59-cu iclasında iştirak edib.

Heydər Məmmədov tədbirdə çıxış edərək ötən il Bakıda keçirilmiş BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağının nəticələrinə dair geniş hesabat təqdim edib.

***XQ***

# “Kür” Borçalının Kürüstü bölgəsinə mənəvi işıq saçacaq



**Diasporla İş üzrə Dövlət Komitəsi “Azərbaycan həqiqətlərinin və mədəni irsinin Gürcüstanda təbliği” layihəsi çərçivəsində Marneuli rayonunun Keşəli kəndində “Kür” Tədris və İnkişaf Mərkəzi yaradıb.**

Açılış mərasimində mərkəzin rəhbəri Savalan Osmanlı bildirib ki, yeni maarifləndirici qurum Keşəli ilə yanaşı, Borçalının Kürüstü kəndlərinə də xidmət göstərəcək. Mərkəz yerli gənclərin anadilli mənbələrə əlçatanlığını təmin edəcək, onların milli-mənəvi dəyərlərlə bağlı mədəni inkişaf tələbatını ödəməyə çalışacaq. O, gərəkli layihənin gerçəkləşməsinə yardımçı olmuş xeyriyyəçi iş adamlarına minnətdarlığını bildirdi.

Gürcüstan parlamentinin sabiq deputatları Mahir Dərziyev, Ramiz Bəkirov, İnkişaf və Təhsil Mərkəzinin rəhbəri Emin Əhmədov, “Aktual media”nın baş direktoru İlkin Hüseynov və digər natiqlər “Kür”ə səmərəli fəaliyyət arzuladılar. Onlar qeyd etdilər ki, mərkəz tədris yönümlü olmağı ilə yanaşı, bölgədə ictimai və mədəni fəallığa da dəstək verəcək.

Sonda Aşıq Mirzə oynaq ifaları ilə ictimai  maarif ocağına xeyir-dua verib, mərasimə şən əhval gətirib.

***P.ƏMİRCANOV***
***XQ***

Sağlam həyat

# Yaz sağlamlıq və gümrahlıq gətirir

## *Bəs nasazlıqların artması nədəndir?*



**Bahar süstlüyü yazın başlaması ilə bağlı yorğunluq, güc itkisi və ya depressiya vəziyyətidir. Bu halın isti temperaturlara orqanizmin reaksiyası nəticəsində yaranması mümkündür və allergiya, yaxud əks-mövsümi pozuntu kimi tibbi əsaslara malik ola bilər. Rusiyalı professor Tatyana Petrova bahar yorğunluğundan danışarkən deyib: “Bu hala vitamin, əsasən, vitamin D çatışmazlığı, orqanizmin qışda normadan kənar istehsal etdiyi melatonin artıqlığı, fəsillərin dəyişməsinə reaksiya xasdır. Bu zaman sinir, immun və endokrin sisteminin fəaliyyəti dəyişir.**

Professor onu da bildirib ki, emosional olaraq qeyri-sabit, xroniki xəstəlikləri və tükənmişlik sindromu olan insanlar yazda orqanizmdə baş verən dəyişikliklərə adekvat reaksiya verə bilmirlər. Bu fəsildə onların həyatında daim narahatlıq olur. Belə süstlüyə günəş işığı ən təsirli kömək hesab edilir. Günəş fiziki və ruhi sağlamlığı dəstəkləyir, enerji və əhval-ruhiyyə yaradır. İşıq terapiyası insana bioritmlərinin tənzimlənməsini sürətləndirməyə, enerji səviyyələrini və əhval-ruhiyyəsini yüksəltməyə və yorğunluğu azaltmağa kömək edə bilər. Qışdan sonra təbiətin yaşıl rəngləri gözləri rahatladır və beyini dincəldir. Qadınlarda estrogenlərin, kişilərdə isə androgenlərin ifrazı artır.

Diaqnoz olmayanda yaz yorğunluğu xəstəliyin əlamətlərindən hesab edilmir. Sağlam insan buna tez uyğunlaşır. Bununla belə, fəsillərin dəyişməsindən təsirlənən insanlar xəstəliklərin mövsümi kəskinləşməsini yaşayırlar. Belə insanlar üçün bu dövr çox çətin ola bilər.

***Bizim ölkəmizdə necədir? Belə hallarla bağlı həkimə müraciət edən olurmu? Tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyeva XQ-yə müsahibəsində xroniki yorğunluq sindromundan bəhs etdi:***

– XX əsrin tibb təcrübəsində kəşf olunan xəstəliklərdən biri kimi xroniki yorğunluğun etiologiyası tam şəkildə məlum deyil. Geniş yayılmış bu xəstəlik hələ 1930–1950-ci illərdə ABŞ və Avropada qeydə alınıb. 80-ci illərin əvvəllərində Amerika alimlərinin araşdırmaları sindromun təbiətini müəyyən qədər öyrənməyə və onu mövcud xəstəliklərin siyahısına daxil etməyə imkan verib, lakin bu günə qədər xəstəlik haqqında xeyli müəmmalar mövcuddur.

Xroniki yorğunluq sindromu ilk dəfə 1984-cü ildə həkim Pol Çeyni tərəfindən təsvir edilib. Bu xəstəlik gənc ali təhsilli insanlar arasında geniş yayıldığı üçün onu bəzən məcazi mənada “cavan karyeristlərin qripi” də adlandırıblar. ABŞ-da müxtəlif yaşlarda olan gənc və yaşlılar üzərində aparılan araşdırmalara əsasən, ölkədə 10 milyonadək insan bu sindromdan əziyyət çəkir.

***– Doktor, xəstəlik özünü necə göstərir?***

– Xəstəliyin klinikasından danışanda öncə onu deməliyik ki, psixoterapevtlərin fikrincə, əgər insan gün ərzində 10 saatdan çox iş barədə fikirləşirsə, bu artıq xroniki yorğunluq sindromudur. Alimlər bu sindromun yaranma səbəblərini axtarmağa çalışdığı bir vaxtda xəstəlik epidemiya kimi geniş yayılır. Mütəxəssislərin fikrincə, xroniki yorğunluq sindromu immun-əsəb sisteminin pozulması ilə yaranır. Xəstəliyin səciyyəvi cəhətləri kimi insanın özünü daim yorğun hiss etməsi, uzun müddət istirahət etməsinə baxmayaraq, bu halın keçməməsi göstərilir. Bir az konkretləşdirərək əsas əlamətlər kimi tez yorulmanı, diqqətin və yaddaşın pozulmasını, tez özündən çıxma, əhval-ruhiyyənin hətta cüzi təsir nəticəsində tez-tez dəyişməsi, ağlağanlıq, deyingənlik, hər hansı xəstəliklə əlaqədar və tez-tez təkrarlanan baş ağrıları, bəzən miqren tutmaları, yuxunun pozulması – gecələr yuxusuzluq, gündüzlər yuxulama hallarını göstərmək olar.

Xəstələrdə iş qabiliyyətinin getdikcə zəifləməsi baş verir, onlar əmək qabiliyyətini artırmaq məqsədilə psixostimulyatorlar, gecə normal yatmaq üçün yuxugətirici dərmanlar qəbul edirlər. Bəzi xəstələr isə çıxış yolunu gündüzlər siqaret çəkməkdə, gecələr isə əsəb-psixi oyanıqlığı aradan qaldırmaq üçün spirtli içkilər qəbul etməkdə görürlər ki, bu da xəstəliyin gedişini daha da ağırlaşdırır, bəzi hallarda alkoqoldan asılılığa gətirib çıxarır. Eləcə də bir qrup insanlarda çəkinin azalması, azhərəkətli həyat tərzi sürən imkanlı şəxslərdə isə əksinə, 1–2-ci dərəcəli piylənmə yaranır. Oynaqlarda, xüsusən də iri oynaqlarda və onurğa sütunu əzələlərində uzun müddət davam edən ağrılar, ruh düşkünlüyü, əhval-ruhiyyənin aşağı olması, süstlük, soyuqluq, bəzən isə təlaş da xəstəlik üçün səciyyəvidir. Belə xəstələr, adətən, tez-tez depressiyaya düşür, yalqız qalmaq istəyirlər, saçları tökülür, barmaq izləri yox olur.

***– Xroniki yorğunluğun yaranma səbəbləri və əlamətləri hansılardır?***

– Şəkərli diabet, böyrəküstü vəz problemləri, mineral və vitamin çatışmazlığı, qan azlığı, revmatizm, xroniki bağırsaq xəstəlikləri, depressiya, iş stresi, infeksiya, müxtəlif mənşəli yaralar xroniki yorğunluğu yaradan başlıca səbəblərdir. Xəstəliyin əsas simptomları kimi – baş ağrısı, daimi gərginlik, depressiya, arterial hipertoniya, impotensiya, əzələ ağrıları, yuxululuq və yuxusuzluq hissi, mədə-bağırsağın funksional pozğunluğunu misal göstərə bilərik.

Pasiyentlərin çoxu belə halsızlığın hər hansı xəstəliyin təsirindən yarandığını düşünərək xroniki yorğunluq sindromunun başlamasından şübhələnmirlər. Yorğunluğu, halsızlığı digər orqanlarda baş verən dəyişikliklərlə əlaqələndirirlər.

***– Xəstəliyə məruz qalmamaq üçün nə edək? Nə tövsiyə edirsiniz?***

– Konfliktdən uzaq durmaq, hər şeyə müsbət tərəfdən yanaşmaq, özünü sevmək və təmiz havada gəzməkdən çəkinməmək, sifəti soyuq su ilə yumaq, hər gün havada 1–1,5 saat gəzmək, ən nəhayət və vacib olan – həftə sonlarını təbiət qoynunda keçirmək lazımdır.

Tövsiyəm odur ki, iş və istirahət rejimində yaşayın, eyni vaxtda oyanıb, eyni saatda yatın, əsəbləşməyin və idmanla məşğul olun. Unutmayın ki, yuxu və oyaqlığın balanslaşdırılmış növbəsi hormonların düzgün ifrazını dəstəkləyir və bu, ümumi rifaha təsir edir.

İdman bədənə lazım olan hormonların – endorfin, dofamin və serotoninin səviyyəsini artırmağa və saxlamağa imkan verəcək. Sağlam qidalanmaq və spirtli içkiləri azaltmaq yazda rifahı xeyli yaxşılaşdırır. Eləcə də bol maye qəbul etmək, mövsümi meyvə-tərəvəzlərə üstünlük vermək nəinki xroniki yorğunluq yaranmasının qarşısını alır, hətta sindromu aradan qaldırır.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Bir filmin söylətdikləri

# “İrəvan xalçalarında ilmələrin rəqsi”

**Əsrlərin o üzündə adi kənd daxmalarında yaranan və tədricən incəsənətin ən mühüm növlərindən birinə çevrilən xalçaçılıq sənəti zənginliyi ilə seçilir. Qızların, gəlinlərin arzu ifadəsi, sabaha “məktub”ları olan bu zərif matahlar hər zamankı kimi, bu gün də göz-könül oxşayır. Təsadüfi deyil ki, Nizami Kino Mərkəzində “İrəvan xalçalarında ilmələrin rəqsi” bədii-sənədli filminin təqdimat mərasimi hər kəsi yetərincə duyğulandırdı.**



Mərasimdən əvvəl foyedə təşkil edilmiş maraqlı sərgi ilə tanışlıq oldu. Sonra “Qeyd – Sosial Maarifləndirmə” İctimai Birliyinin baş katibi Aysel Tahirova layihənin İrəvan xalçaçılıq məktəbinin qorunması və tanıdılması baxımından önəmini vurğuladı. Əsas məqsədin İrəvan xalçaçılıq ənənələrinin qorunması, xalçalar üzərində əks olunan milli-mədəni dəyərlərin gələcək nəsillərə çatdırılması və bu sahəyə olan marağın artırılması olduğunu bildirdi.

Filmdən öncə çıxış edən Milli Məclis sədrinin müavini Musa Qasımlı İrəvanın tarixindən və Azərbaycan üçün onun irsinin öyrənilməsinin vacibliyindən danışdı: “Bizim millət dünya mədəniyyəti yarada bilən xalqdır. Hər millət bu gücə sahib deyil. Azərbaycan mədəniyyətinin beşiklərindən biri İrəvandır. Bu səbəbdən bu irsin öyrənilməsi Azərbaycan üçün həm sosial, həm də iqtisadi baxımdan önəmlidir. Bu kimi layihələr erməni saxtakarlıqlarına qarşı mübarizədə də mühüm rol oynayır”.

...Bir müddət öncə erməni xalçasatanın bu sənətin Zəngəzur qoluna aid nümunəsini Amerika bazarında öz ulu nənəsinin əl işi kimi sırımaq istədiyi barədə məlumata rast gəldim. Əsas ornamenti qartal olan həmin xalçanın şəkli də verilmişdi. Saxtakar tacirin cəfəngiyyatında qartal qanadlı günəşin və guya, Urartu tanrısı Çaldın təsviri kimi təqdim olunurmuş. Bunu görən bir soydaşımız “Arsax-Sünik məktəbi” örnəyi kimi sırınan mənimsəmə malını baha qiymətə alaraq, əslində, Zəngəzur xalçası olduğunu söyləyib və haramzadə ermənini ifşa edib.

Bu kimi hallar çoxdur və hətta beynəlxalq sərgilərdə, muzeylərdə, kolleksiyalarda da mədəni irs nümunələrimiz erməni məhsulu kimi az tanıdılmayıb. Hay lobbisi Qarabağın işğalı dövründə bu sahədə daha da “qızışmışdı”. Yaxşı ki, 2010-cu ildə Azərbaycan xalçaları Şərq xalçaçılıq sənətinin bir qolu kimi UNESCO-nun “Qeyri-maddi Mədəni İrs” siyahısına salınıb. Bu sənət nümunələrimiz daha “İran xalçası”, “Qafqaz xalçası” və digər qondarma adlarla elə də çox təqdim olunmur.

Milli xalçaçılıq sənətinin İrəvan qoluna aid bənzərsiz ornament və ilmələrin sirli dünyasını sərgiləyən filmin kadrları bir-birini əvəz etdikcə mədəni irsimizin sorağının çox uzaq əsrlərdən gəldiyinin bir daha şahidi olduq. Gözlərimiz önündə qədim İrəvanın coğrafi, etnik, mədəni özəlliyi canlandı. Ulu türk-oğuz tayfalarının yaşadığı mahallar, bu ərazilərin böyük bir qismini erməni vandallarının məhv etdiyi tarixi abidələri – qala, saray, istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sərdabələr, eləcə də at, qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar xatırlandı. Əzəli-əbədi yurd yerlərimizin aborigen əhalisinin dünya duyumundan soraq verən mədəni irsimizlə, xalçaçılığın mifik görüşləri – mifoloji quşlar, semantik elementlərlə yenidən qürur duyduq.

Mütəxəssislər qeyd edirlər ki, Qərbi Azərbaycan mahallarında yaşayan azərbaycanlı-türk xanımlar əsrlər boyu həm xovlu, həm də xovsuz texnika əsasında xalça və xalça məmulatları toxuyublar. Xalça sənətinin ibtidai dövrü olan ilk mərhələdə dəvə və qoyun yunundan, pambıqdan toxunan bəzəksiz, saya yerlikli palazlar və cecimlər ərsəyə gəlib. Həm texniki, həm də bədii cəhətdən nisbətən təkmilləşmə duyulan 2-ci mərhələdə sadə keçirtmə, dolama texnikası ilə yundan, pambıqdan, bəzən də ipəkdən toxunan kilimlər yaranıb. İrəvan dəst-xəttində kilimlərin üzərində romb, üçbucaq və trapesşəkilli naxışlar, ornamentlər öz əksini tapıb. Sonrakı dövr vərni (ipək və yun), şəddə (yun, ipək, pambıq), zili (yun, pambıq, ipək), ladı (yun və pambıq) kimi xovsuz xalça məmulatları ilə səciyyələnib. İrəvan şəddələri və vərniləri, əsasən, maldarlıqla məşğul olan əhalinin məişətində geniş istifadə edilirdi. Vərnilər şahmat damaları fonunda iri əjdaha təsvirlərindən ibarət olurdu. Qərbi Azərbaycan zililərinin bəzilərinin yerliyi palaz texnikası – sadə keçirtmə üsulu ilə naxışlanıb. Xalçaçılıq sənətinin bu mərhələsi, eyni zamanda, xovsuz məişət əşyalarının yaranması ilə də yadda qalıb. Məfrəş, xurcun, heybə, çuval,




çul, yüküzü, sicim, çatı və s. kimi məişət əşyaları yaranıb.

Filmin kadrlarını elə heyranlıqla izlədik ki, bu mövzu sözün əsl mənasında, gözümüzü-könlümüzü məşğul etdi. Evə qayıdınca, müxtəlif mənbələrdən Qərbi Azərbaycan xalçaçılığı ilə bağlı məlumatlara nəzər saldıq. Öyrəndik ki, Ağbaba və Şörəyel mahalları ərazisində toxunmuş xalça məmulatları bu ərazinin təbiətindən irəli gələn çalarları ilə birgə, kompozisiya quruluşuna görə Qazax–Borçalı xalça qrupunun nümunələrinə yaxındır. Bu xalçalar ağır çəkisi, hündür xovu, yumşaq və parlaq yunu ilə seçilir. Loru və Pəmbək mahallarında toxunmuş xalçalar təbii rənglərlə məxsusi çalarlar qazanıb. Naxışları bədii sənətkarlığın mürəkkəb nümunəsi hesab olunub. Göyçədə yaşayan soydaşlarımızın toxuduğu xalçalar isə kompozisiya quruluşuna görə Qarabağ və Gəncə xalça qrupuna yaxındır. Tarixən naxışları yaddaşında yaşadan, onu sevgi ilə əriş-arğaclı ilmələrə köçürən toxucular Göyçə xalçalarına gözəllik bəxş ediblər. İrəvanla coğrafi yaxınlığı Zəngibasar bölgəsinin mədəni mühitinin formalaşmasına öz təsirini göstərib. Bölgənin Arbat, Aşağı Necilli, Qaraqışlaq, Dəmirçi, Zəngilər, Zəhmət, Rəncbər, Uluxanlı, Hacı Elləz, Şorlu kimi ellərində toxunan xalçalar öz incəliyi, zərifliyi ilə seçilib. Zəngəzur mahalının xalçaçılıq vərdişləri isə daha çox Qarabağ qrupunun ənənələrinə yaxındır. Buna səbəb Zəngəzurun tarixən Qarabağ xanlığı və burada yaşayan əhali ilə mədəni, iqtisadi yaxınlığı olub. Bu anlamda Zəngəzuru Qarabağdan ayırmaq mümkün deyil. Avropanın bir çox tarixi mənbələrində “Zaqafqaziyanın İsveçrəsi” adlandırılan Dərələyəz mahalının da Azərbaycanın xalçaçılıq sənətinin beşiklərindən biri olduğuna əminliyimiz daha da gücləndi.

Beləliklə, sənədli filmdən aldığımız təəssüratlar və mənbələrdən öyrəndiklərimiz İrəvan qrupu xalçalarının Azərbaycan dekorativ sənətinin ayrılmaz tərkib hissəsi, tarixi keçmişimizin əvəzsiz yadigarı olduğunu bir daha təsdiq elədi.

*Ə.ƏLİYEV*
*XQ*

MƏNƏVİ QAYNAQLARIMIZ

# “Tarixi-Nadir”in nadir nüsxəsi

**3 əsr əvvəl (1736–1747-ci illərdə) hakimiyyətdə olan, “Şərqin Napoleonu” və ya “İkinci Makedoniyalı İskəndər” kimi rəğbətləndirilən türksoylu Əfşarlar sülaləsinin banisi Nadir şah haqqında yazılmış “Tarixi-Nadir” kitabının orijinal nüsxəsi Masallı rayonunun Ərkivan qəsəbə sakini, din xadimi Hacı Həmid Məmmədovun evində qorunub saxlanır.**



Zamanında Azərbaycan, İran, Türküstan və Hindistanda hökmranlıq etmiş Nadir şahdan fars dilində bəhs edən bu nadir kitabın əsl adı “Kitabi tarixi cahənkəşan məşhur və Tarixi Nadir”dir. Hicri-qəməri tarixi ilə 1272-ci ildə (1851) çap edilib. Müəllifi Mirzə Mehdi xandır, Molla Saleh adlı şəxsin emalatxanasında yığılıb və Əmir Yusif Milani tərəfindən qələmə alınıb. Kitabda 3 möhür var, bunlar Şahın, kitabı çap edən emalatxananın və müəllifin möhürləridir.

Böyük bəstəkar Üzeyir Hacıbəylinin məşhur ”O olmasın, bu olsun” operettasında Məşədi İbadın dediyi “Mən özüm “Tarixi-Nadir” kitabını yarıya qədər oxumuşam, amma sənin dediyini anlamıram. Bu bisavadlar neyləsin?” ifadəsi də məhz sözügedən kitabdan qaynaqlanır. Məsələ burasındadır ki, Məşədi İbadın bu sözləri sonradan məşhur zərb-məsələ çevrilib. Adətən, adamlar nəyisə anlamayanda bu cümləni işlədirlər. Əksəriyyət də “Tarixi-Nadir”in 3 səhifədən ibarət olduğunu zənn edir. Amma elmi mənbələrdən bilindiyi və Hacı Həmidgildə olan nüsxədən göründüyü kimi, bu kitab nə az–nə çox, düz 147 səhifədən ibarətdir.

Bu da var ki, dahi Üzeyir bəy operettada tamam ayrı məsələlərə toxunub. Belə ki, o “Tarixi-Nadir”i yarıyacan oxumağı deyəndə heç də əsərin həcmini nəzərdə tutmur, sadəcə, bununla Məşədi İbadın köhnəlik qalığı olduğunu göstərirdi. Çünki “Tarixi-Nadir”i oxumaq bir zamanlar yalnız köhnəliyin əlaməti sayılırdı.

...Telefon söhbətimizdən sonra bizi Ərkivana dəvət edən Hacı Həmid kitabı göstərərək dedi ki, bunu onlara 47 il əvvəl qonşu Bədəlan kəndindən olan yaşlı bir kitab təmirçisi satıb və atasından qalan miraslardandır.

– 2009-cu ildə məlum olub ki, “Tarixi-Nadir” orijinal nüsxədir, – deyə o bildirdi. – Həmin il Həcc ziyarətindən yenicə qayıtmışdım. Radio kanallarından birində “Din və cəmiyyət” mövzusunda müzakirə gedirdi və mən də müsahibə verirdim. Söhbət vaxtı bir söz işlətdim. Xanım aparıcı da qeyri-ixtiyari olaraq “Mən “Tarixi-Nadir” kitabını yarıya qədər oxumuşam, dediyinizdən heç nə anlamadım” cümləsini işlətdi. Məndə o kitab olduğuna və axıra qədər oxuduğuma görə soruşdum ki, “Tarixi-Nadir” kitabı neçə səhifədir?” Aparıcı 3 səhifə olduğunu bildirdi. Bu dəfə ona başqa sualla müraciət etdim: “Xanım, siz şah olsaydınız, bir çox ölkəni fəth etsəydiniz, haqqınızda cəmi 3 səhifəlik kitab yazılmasına razı olardınızmı?”. Xanım “Əlbəttə, yox” – dedi”. Ona bildirdim ki, həmin kitabın nüsxəsi məndə var və 147 səhifədir...



Bir müddət sonra isə AMEA-dan Ərkivana – Hacı Həmidgilə bir komissiya gəlib. Kitabın əsl nüsxə, yəni orijinal olması təsdiq edilib və ondan sonra da “3 səhifəlik “Tarixi – Nadir” kəlməsinin yanlışlığı təsdiqlənib.

Farsca bilməsək də, kitaba maraqla baxdıq və xatırladıq ki, alimlər rəylərində “Tarixi-Nadir”in qəliz ibarələrlə dolu çətin yazı üslubu olduğunu bildirirlər. Mirzə Mehdi xan Nadir şahın bütün döyüşlərini, islahatlarını, məktublarını və digər bu kimi nəsnələri tam dəqiqliyi ilə salnaməyə köçürüb. Lakin nə səbəbdənsə, bəzi tarixlərdə təhriflərə yol verib. O da vurğulanır ki, bəzi nüsxələrdə miniatürlərdən də istifadə edilib. Onu dilimizə çevirmək elə də asan deyil. Bu fikir AMEA-nın Əlyazmalar İnstitutunun direktor müavini işləmiş mərhum Paşa Kərimovun (şair Əli Kərimin oğlu) 2014-cü ildə verdiyi müsahibədə də təsdiqlənir: “İnstitutumuzda o kitabın nüsxələri çoxdur. Nəstəliq, nəfisi xətləri ilə yazılanları da var. Bu əsəri dilimizə çevirmək o qədər də asan deyil. Çünki “münşaat dili” deyilən bir anlayış var. Bu, həm də orta əsrlər Şərq nəsrinin dili kimi qəbul olunub. Əsər o üslubda yazılıb”.

Bəli, bir vaxtlar çoxumuz arzu edirdik ki, çətin də olsa, “Tarixi-Nadir” əsəri Azərbaycan dilinə tərcümə olunsun. Bu, nəhayət, ötən ildə baş tutdu və kitabın 1-ci hissəsi İbrahim Quliyevin tərcüməsində və Rəna Məmmədovanın elmi redaktorluğu ilə “Elm və təhsil” nəşriyyatında çapdan çıxdı. Hazırda 2-ci hissə nəşrə hazırlanır. Ölkəmizin tarixi ilə bağlı maraqlı məlumatların da yer aldığı (o cümlədən İrəvan xanlığının Azərbaycanın tərkibində olması və s.) kitab tarixçilər və geniş oxucu kütləsi üçün misilsiz mənbədir. Orijinal nüsxələri isə yenə də eyni qayğı ilə qorunur.

*Əli NƏCƏFXANLI*
*XQ*

ƏBƏDİYYƏT YOLÇULARI

# Ozan-aşıq sənətinin sinədəftəri, bilicisi

**79 il şərəfli ömür sürmüş və Azərbaycan folklorunun yorulmaz tədqiqatçısı olmuş filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli bu il martın 21-də haqq dünyasına qovuşub. Son 25 ildə AMEA Folklor İnstitutunun Aşıq yaradıcılığı şöbəsinin müdiri vəzifəsində çalışmış qələm dostumuz artıq xatirələr aləmində urvatlı yerini tutur.**



Tarixən alimlərə və yaradıcı insanlara böyük ehtiram olub. “Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edir, – deyiblər. Onlardan biri də Elxan Məmmədli idi. Məhz belə alimlərin çalışmaları sayəsində elm daha da dərinləşir, zəkalara işıq saçır. Elxan Məmmədli zamanın ruhunu duyması, folklorumuzla bağlı ciddi araşdırmalar aparması, əhatəsindəki insanlarla xoş ünsiyyət yaratması sayəsində kamil bir ziyalı kimi tanınmışdı. O, zəngin aşıq sənətimizin mühüm nümunələrini toplayaraq, kitab şəkilində, qəzet səhifələrində, internet saytlarında dərc etdirib və bu sənətin televiziya ekranlarında təbliğatını həyata keçirib. Düz 40 il Azərbaycan radio və televiziyasında “Bulaq”, “Ustadnamə”, “Sazın-sözün sehrində”, “Gözəlləmə” və “Sarıtel” verilişlərinin müəllifi və aparıcısı olub. Məhz ekran vasitəsilə Elxan Məmmədli neçə-neçə saz-söz ustadını xalqımıza tanıtdırıb.

Araşdırma işinin nə dərəcədə ağır olması bir tədqiqatçı kimi mənə də bəllidir. Bu sahədə çoxillik təcrübəsi olan Elxan Məmmədli müxtəlif dillərdə yazılmış ədəbiyyat nümunələrini oxuyaraq, zərgər dəqiqliyi ilə təhlil edib, bir neçə ölkədə yerləşən arxivlərdə mühüm sənədləri əldə etmək üçün xeyli çabalar göstərib, vaxtına qızırqalanmayıb, unudulmuş aşıq sənəti ustadlarını tanıtdırıb, onların şeir nümunələrini antologiya şəkilində çap etdirib və bütün bunları həyatda əsas missiyası sayıb. Ozan sənətinin, onun müxtəlif regional məktəblərə məxsus nümayəndələrinin bioqrafiyasının, yaradıcılıqlarının tədqiqində Elxan Məmmədlinin xüsusi xidmətləri vardır.

O, 1998-ci ildə “Azərbaycan aşıq yaradıcılığında təcnis” mövzusunda namizədlik dissertasiyasını müdafiə edib, 2 monoqrafiya (“Təcnis sənətkarlığı” və “Şair Nəbi Borçalı: həyatı, mühiti, sənəti”), 10-dan çox toplama-tərtib kitabını ərsəyə gətirib, 30-dan çox kitabın redaktoru, rəyçisi olub. Bu xidmətlərinə görə 2008-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Elxan Məmmədliyə xas olan keyfiyyətlər hansılar idi? Yaradıcı adam kimi duyğulu, alim kimi dərin zəkalı, araşdırmaçı kimi iradəli olması! Bu keyfiyyətlər onun mənliyinin mahiyyətini təşkil edirdi. Olduqca sadə, mədəni, vacib diskussiyalarda son dərəcə ciddi bir alim idi. O, daim öz biliklərini aşıq sənətində yetişən gənc mütəxəssislərə həvəslə aşılamağa çalışırdı.

Elxan Məmmədlinin təcrübəli pedaqoq, peşəkar tədqiqatçı kimi yetişməsində nəsil şəcərəsi böyük rol oynayıb. Genetik ziyalı kodu onun sabitqədəm xasiyyətinin, şəxsiyyətinin formalaşmasına güclü təsir göstərib. Onun nəslinin bir çox nümayəndələri öz şəxsi mənafelərini unudub, başqalarının qeydinə qalmaları, öz maraqlarını isə, bütövlükdə, cəmiyyətin mənafeyinə tabe etmələri ilə tanınıblar. Bu, bir çoxlarına agahdır. Elxan Məmmədli istər məişətdə, istərsə də öz iş yerində olanda ətrafda olan insanların problemlərinə biganə qala bilmirdi. Özünü oda-közə vurur və çətin alınan işləri yoluna qoyandan sonra rahat nəfəs alırdı. Məhz bu kübar xasiyyətinə görə həmkarları onu humanist insan kimi dəyərləndirirdilər.

Gələcək – insan üçün bir müəmmadır, ona görə də insan, əsasən, keçmişdə qazandığı biliklərə söykənir. Keçmişdən ibrət götürməyən gələcəyə gedən yolu tapa bilməz. Elxan Məmmədli daim bu həqiqətə sadiq qalır, eyni zamanda, bilgilərini artırmaqdan usanmırdı. Onun tədqiq etdiyi yaradıcı sahə daha çox ürək və hisslərə bağlı olsa da, bir müəllif kimi, təfəkkür və zəka meyarlarını arxa plana keçirmir, aşıq ədəbiyyatı haqqında düşüncələrini dünya dərki prizmasından təqdim etməyə çalışırdı. Təsadüfi deyil ki, o, həm yaradıcı ziyalı, həm də zəhmətkeş alim imici qazanmışdı. Əhatəsində olanlar ondan öyrənir, məsləhət alır, onunla hesablaşırdılar.

Elxan Hüseynqulu oğlu Məmmədli Yeni ilin ilk günü – 1 yanvar 1946-cı ildə Borçalı mahalının Faxralı kəndində anadan olub və Şərq aləmində Novruz adı ilə tanınan müsəlman Yeni ilinin ilk günündə – 21 mart 2025-ci ildə dünyasını dəyişib. Yəqin ki, bunun da bir rəmzi mənası var. Axı, o, daim yeniliyə, müjdəyə, işığa can atan bir şəxsiyyət idi.

Görkəmli folklorşünasın ömür tarixçəsinə nəzər salaq: 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Bir müddət pedaqoji fəaliyyətlə məşğul olduqdan sonra Pedaqoji Elmlər İnstitutunda elmi işçi (1976–1979) vəzifəsinə və sonra müsabiqə yolu ilə Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsinə işə qəbul olunub. 1994-cü ilə kimi orada kiçik elmi işçi, ardınca isə Folklor Elmi-Mədəni Mərkəzində böyük elmi işçi kimi əmək fəaliyyətini davam etdirib.

İstər oxuduğu orta məktəbdə və ali təhsil ocağında, istərsə də çalışdığı elmi müəssisədə onu başqalarından fərqləndirən əsas keyfiyyəti elə hey oxuyub öyrənməsi olub. Heç vaxt bildikləri ilə kifayətlənməyib. Zəkası, zehin aydınlığı, hafizəsi, təmkini, vüqarı ilə seçilib həmişə. Saatlarının, günlərinin çox qismini kitabxanalarda yeni-yeni mənbələr axtarışına həsr edib və tapıb da. Onun təxəyyülü o qədər geniş, fantaziyası o qədər güclü idi ki, araşdırdığı, təhlil etdiyi kitab müəlliflərinin cürət edib açıq demədikləri fikirlərini də həmən oxumağı bacarırdı. Bir sözlə, istirahət bilmədən elmi-nəzəri axtarışlarının əsirinə çevrilmişdi.

Elxan Məmmədlinin bir pedaqoq kimi həyat amalı tələbələrə dərin əsaslı bilik verməkdən ibarət idi. İnsan psixologiyasına yaxından bələd olan fəlsəfə doktoru öncə hissi kateqoriyalardan başlayıb, sonra maddi varlıqların əsaslarını öyrətməklə dərslərinə yekun vurardı. Mənəvi yetkinliyi, daxildən gələn böyüklüyü, halallığı, saleh əməlləri, alicənab davranışı onu qısa bir müddət ərzində müdrikləşdirmiş və Nizami adına Ədəbiyyat İnstitutunun Folklor Elmi-Mədəni Mərkəzində fəaliyyət göstərən bütün əməkdaşların gözündə ağsaqqallıq zirvəsinə qaldırmışdı.

Onun dostları və yetirmələri – tələbələri, aspirantlar, alimlər xatirəsini yalnız xoş sözlərlə yad edirlər. Elə haqqında yazılmış “Elxan Məmmədli – 60” və 70 illiyi münasibətilə çap olunmuş “Elxan ömrü – saz ömrü” kitablarında da nurlu insanın bu məziyyətlərinə xeyli yer ayrılıb.

***Ramiz DƏNİZ,***
***yazıçı-publisist***

# “İRS-Heritage” jurnalı ingilis dilində

**Azərbaycanın zəngin tarixi və mədəni irsini dünyaya tanıdan “İRS-Heritage” jurnalının yeni nömrəsi nəşr olunub.**




Jurnalın baş redaktoru Musa Mərcanlının giriş məqaləsində Azərbaycanın mədəni irsinin qorunması və beynəlxalq ictimaiyyətə təqdim olunmasının əhəmiyyəti vurğulanır. Bu nömrədə yer alan yazılar Azərbaycanın tarixən formalaşmış mədəni irsinin qorunması və dünyaya tanıdılması istiqamətində görülən işlərə xüsusi diqqət ayırır.

Jurnalın yeni nömrəsində gedən məqalələr arasında ikisi diqqəti cəlb edir. Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun “Azərbaycanın birgəyaşayış ənənələri” sərlövhəli məqaləsində ölkəmizdə müxtəlif etnik və dini qrupların sülh içində birgə yaşama təcrübəsi və multikulturalizm ənənələri təhlil olunur.

“Xudavəng monastırı: tarixi faktlar və saxtakarlıqlar” – Azərbaycanın qədim alban irsinin qorunması və bəzi dairələrin bu tarixi saxtalaşdırmaq cəhdlərinə qarşı aparılan tədqiqatlar işıqlandırılır. Müəllif tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədovdur.

“İRS” jurnalının ingilis dilində dərc olunan bu nömrəsində oxucular Azərbaycan tarixi, etnoqrafiyası, rəngkarlığı, turizm potensialı haqqında bir-birindən maraqlı yazılarla da tanış ola biləcəklər.

Həmişəki kimi, jurnalın bu nömrəsi də Azərbaycanın zəngin tarixini, incəsənətini və elmi nailiyyətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır.

***XQ***

Qəzənfər Qəribov – 70

# Qərib məzar

*Öz Vətənində qərib olanları görmüsünüzmü? İndi bu suala təsdiqləyici cavab vermək o qədər asandır ki...*




**Uzaq keçmişə ehtiyac yoxdur. Erməni-müsəlman savaşının sonuncu dəfə alovlanmasının 40 ilə yaxınlaşdığı (əslində, ermənilərin başlatdığı, "erməni-azərbaycanlı qarşıdurması" deyilməli olan soyqırımı) və birtərəfli köç elə anaları ağlar qoydu ki, Azərbaycanın öz içərisində, az qala, hər yaşayış məntəqəsində qərib məzarlıqları yarandı. Biz bir yandan dünyanın hər tərəfinə səpələnsək və hər yerdə özünə güzəran qura biləcək qüdrətdə olsaq da, digər tərəfdən qəriblik mərəzinə çox tez tutuluruq.**

Hamının müşahidə etdiyi haldır: üç-beş kilometrlik məsafədə yerləşən iki kənddən biri o birinə gəlin köçürəndə onun adı ömürlük "qərib" olaraq qalır. Sumqayıt şəhəri də Qərbi Azərbaycandan zorla çıxarılan həmvətənlərimizin qərib dayanacağı və əfsuslar olsun, bir çoxunun son mənzili oldu. Keçən əsrin 70-ci illərində Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin parlaq yetirmələrindən biri, tələbəlik dövründə, mətbuatımızın müxtəlif orqanlarında çalışdığı müddətdə təvazökarlıq, peşəkarlıq və ən əsası təmizlik və səmimiyyət mücəssəməsi olan Qəzənfər Qəribov da qısa ömür yolunu başa vurub Sumqayıt torpağında son dayanacağını tapdı. "Qəribliyi bilinməsin deyə" anası, qardaşı da yanında yer aldılar.

Uzun müddət qəriblikdə yaşayan və bu qəbildən olan insanlarla ünsiyyət saxlayan biri kimi qəribin hansı hallarda necə davrandığını yaxşı bilirəm deyərəm. Hətta bu mövzunun acısını azaltmaq, bir növ zarafata çevirmək üçün şəhərə gəlib özlərini qərib yox, yerli kimi aparmağa çalışanlara "şəhərli kəndçilər" adlı "şeir" də yazmışdım. Bir bəndi beləydi:

**Oğlumuzun adı Qərib,**
**Yeməklərin dadı qərib,**
**Şahsənəmə yaddı Qərib.**
**Biz ta kənddən evlənmərik,**
**Biz şəhərli kəndçilərik.**

Halbuki etirafı nə qədər arzu olunmasa da, kənddən şəhərə gəlib ən yüksək mərtəbələrə yüksələnlər belə ömür boyu yad ocağında qızınan qəriblərdir. Tutduğu vəzifə, aldığı bilik, dünyanı dəyişən kəşflər də onun mayasındakı ilkin təbiiliyi, özəyi dəyişmir. Bu həqiqəti ən çox "mən kənddən çoxdan çıxmışam, geri dönsəm orada yaşaya bilmərəm" deyənlər bilir.

Bu il 70 yaşı tamam olacaqdı Qəzənfərin. Gənc yaşlarında dünyasını dəyişənlər yaddaşlara elə gənc də həkk olunurlar. Onları yaşlı təsəvvür eləmək çətindir. Bəzilərinin taleyinə bu dünyaya güclü yağış zamanı çaxan şimşək kimi gəlib bir anda hər yanı işıqlandıraraq, o andaca yox olmaq yazılır. Əli Kərim kimi, Mikayıl Müşfiq kimi. Bu, müqayisə deyil. Qəzənfər də həyatda olduğu müddətdə ətrafındakılar üçün adlarını çəkdiyim bu insanlar qədər sevilən idi.

Sevdiyin adam barədə danışmaq da, xatirə söyləmək də müşkül işdir. Çünki onun barəsində düşündüklərini əllərin kağıza köçürə bilmir, beynində dolaşan fikirlər istədiyin sözlərə çevrilmir, sadələşir, bəsitləşir. Düşündüyünü eynilə başqasına çatdıra bilmək xüsusi istedad tələb edir.

Onun jurnalistlik fəaliyyəti, həyatı və yaradıcılıq yolu barədə həmkarları müxtəlif vaxtlarda yazıb, xatirələrini kitab şəklində nəşr ediblər. Mən isə tələbəlik illərimizin ən şirin xatirələrindən bəzilərini növbəti dəfə qələmə alıram ki, hüznlü söhbətin ahəngi dəyişsin.

Əlaçı idi. Amma heç vaxt başqalarından öndə olduğunu hiss etdirməzdi. Səsinin tonu yüksəlməzdi. Amma hər mübahisəni sakit tərzdə söylədiyi dəlillərlə qazanardı.



Kibrit qutusundan radio düzəldirdi. Onun üçün Moskvadan belə "ehtiyat hissələr" gətizdirirdi. Tələbə yoldaşımız Məsaim o vaxt Moskva Dövlət Universitetinə göndərilmişdi və bu sifarişləri o, yerinə yetirirdi.

Böyük sənətkarımız, Xalq artisti Flora Kərimovanı çox, lap çox bəyənirdi. Onun mahnılarına qulaq asanda, sanki, başqa aləmə köçürdü. Bu zaman ona yanaşmağa belə cəsarət etməzdik.

Yumor hissi güclü idi. Həm də bayağılıqdan, şitlikdən uzaq yumora üstünlük verərdi. Ələddin Əsədovun danışıq tərzinə "Qoqolvari" deyərdi. Onun sayəsində yataqxanadakı otağımızda tez-tez şən zarafatlar olurdu.

Son kurslarda tələbələrin çoxunun məhəbbət qapısı açılmış, hərə bir bəxt ulduzunun izinə düşmüşdü. Kimi artıq nişanlanıb, kimi hələ sınaq müddəti keçirdi. Yasamaldakı tələbə yataqxanaları oğlanların və qızların ayrı yaşadıqları beşmərtəbəli binalar idi və qızlar yataqxanasına tələbə qızların ata və qardaşlarının belə girməsi qadağan idi. Qızlar yataqxanasının ön tərəfi axşam çağlarında sevgililərin görüş yerinə çevrilir, saat 11-də görüşlər bitirdi.

Bizim otağın dörd sakinindən ikisi bu görüşlərin, ikisi isə başqa yerdəki görüşlərin iştirakçısı idi. Uzağa görüşə gedənlər yataqxanaya erkən dönür, yaxındakılar isə gec gəlirdilər deyə, hamının bir yerə toplanması uzun çəkirdi. Bir qış günü tələbə yoldaşlarımız – mərhum Elbrus Məmmədov və Qulu Məhərrəmli Qəzənfərin gec gəlişinə görə onu "cəzalandırmaq" üçün bir səhnə düzəltdilər. Sadəcə improvizə olan bu "tamaşada" baş rol Qəzənfərin idi. O, qapını döymədən açaraq içəri girdi və paltosunu çıxarmaq istəyirdi ki, Elbrus cəld ona yardım etdi, paltonu alıb şkafdan asdı. Qəzənfər qol saatını açanda Qulu saatı iki ovucu içinə alıb pəncərənin önünə qoydu. Elbrus təkrar yaxınlaşıb: "Şahım, indi nə buyurursunuz"– deyə soruşdu. Otağın ortasına yaxınlaşan Qəzənfər, adət etdiyi bir ritualı təkrar edirmiş kimi, barmağını yuxarı qaldırıb: "Rəqqasələr gəlsin" dedi. Elbrusun gözəl plastikası vardı və əcnəbi rəqsləri ifa edirdi. O dəqiqə hind qızları kimi rəqsə başladı. Ələddinlə mən gülməkdən halsız olmuşduq ki, qapı aralandı, yataqxanaya az-az gələn tələbə yoldaşımız Yusif Hüseynov başını içəri saldı. Nə baş verdiyini anlamadan "Şəbeh çıxarırsız?" dedi.

Bu "səhnəciyin" iştirakçıları sonralar Azərbaycan mətbuatının görkəmli simalarına çevrildilər.

Qəzənfər olduğu hər kollektivdə, ən kiçik toplantıdan tutmuş çoxsaylı iştirakçısı olan yığıncaqda ən qısa zamanda özünə böyük hörmət qazanırdı. Zahirən azdanışan, hətta bəzən "qaraqabaq" təsiri bağışlasa da, tezliklə səmimiyyəti ilə müsahibini "ovsunlayırdı". Bu qədər sevgi dolu bir insanın "sevgililər günü"ndə həyata göz yumması taleyin istehzasımı? Özü əcəllə can çəkişirkən belə hər kəsə qarşı şəfqətli idi. Gücünün, səlahiyyətinin verdiyi imkandan çox yardım etməyə çalışar, istəyi baş tutmayınca çox üzülərdi.

Ağır mərəz onu çox incitdi və 2002-ci il fevral ayının 14-də Qəzənfər əbədiyyətə qovuşdu. Sumqayıtda onu son mənzilə yola salan izdiham tələbə və iş yoldaşları ilə yanaşı, öz vətənlərində qərib olan, adlarının önünə ünvan kimi "qaçqın", "köçkün" sözləri əlavə olunmuş insanlar, Qərbi Azərbaycanın Amasiya rayonunun cənnət məkanı Güllübulaqdan gəlmiş həmyerlilərindən ibarət idi.

Həyatdan vaxtsız köçmüş əziz dostum Qəzənfər Qəribovun əziz xatirəsinə 2003-cü il noyabrın 8-də (həmin gün Qəzənfərin toyunun 25 ili tamam olurdu) qəlbimin dərinliklərindən gələn aşağıdakı sətirlər o gün–bu gün mənimlə dolaşır, yaşayır, keçmişə işıq tutur, içimdəki hüznü isə azaltmır ki, azaltmır...

...Bir dostum vardı. Əl çatmaz– ün yetməzdi ucalığına.

Bir dostum vardı. Sadəlik, səmimilik mücəssəməsiydi. Tanıyanlar tanıdıqlarına görə bəxtəvər sayırdılar özlərini.

Bir dostum vardı. Təmizliyin, paklığın abidəsiydi. Çox pisliklərə, çirkinliklərə rast gəlib təmizliyinə zərrə qədər ləkə vurmamağı bacardı bir ömür içində.

Bir dostum vardı. Təmkinin, mənəvi toxluğun nümunəsiydi. Ac qaldı, evsiz qaldı, işsiz qaldı, qulu olmadı nəfsinin, özünün pis gününü arzulamadı bir kimsəyə, həsəd aparmadı iş başında, məqam kürsüsündə oturanlara.

Bir dostum vardı. Varlığı sərvətimdi. Təbəssümü sevincimdi. Tənqidi məlhəmimdi. Dostluğu dünyamdı.

Bir dostum vardı. Sevincimi yoxaltdı, qəlbimə dağ çəkdi, dünyamı daraltdı, məni müflis etdi.

Yanına gedəcəyəm. Çətin gedib çıxam bərabərinə. O yüksəkliyə qalxmaq hər oğulun işi deyil. Hərarəti yandırar. Dözə bilməz hər adam onun dözdüyünə. Keçilməz onun keçdiyi körpülər. Ona görə onun üzünə açılan cənnət qapıları hər qulun üzünə açılmaz.

**Bir dostum vardı...**

***Cəfər SADIQ***

**Moskva**
**7 aprel 2025-ci il**

Təbiət abidələrimiz

# Xocalının "göz yaşları"



## *Damcılı bulaq həm də şəfa mənbəyidir*

**Füsunkar təbiəti, əsrarəngiz mənzərələri, başı buludlardan nəm çəkən uca dağları, yamyaşıl meşələri ilə qəlbləri riqqətə gətirən Qarabağımız həm də bir-birindən gözəl, saf sulu bulaqları ilə məşhurdur. İllər boyu dizlərimizi yerə atıb ürəyimizin təşnəsini söndürmək üçün həsrətini çəkdiyimiz, yuxularımızda gördüyümüz həmin bulaqlar indi əsl sahiblərinin qayıdışına sevinir, şırıl-şırıl axaraq azad Vətən torpaqlarına can verir.**

Hələ bu bulaqların içərisində eləlləri var ki, yerinə, axışına, süzülüşünə heyrət etmədən baxmaq mümkün deyil. Xocalı rayonunda yerləşən Damcılı bulaq kimi.

Xankəndi–Ağdərə yolunun Xocalının Ballıca kəndindən keçən hissəsində, yolun lap yaxınlığında yerləşən Damcılı bulağı düz yanına getməsən görə bilməzsən. Hətta tanımayanlar dəfələrlə böyründən ötüb-keçsələr də burada ulu yaradanın belə bir möcüzəsinin mövcudluğundan xəbərsiz qalarlar. Kənardan baxanda yalnız boyu uca, yaşı qoca ağaclar görünür. Kimin ağlına gələr ki, bu ağacların altında bir mağara var və o mağaranın "tavanı"ndan, divarlarından "göz yaşları" damçılayır. Ha baxırsan, ağacların köklərinin harada torpağa bağlanıb rişə götürdüyünü, bulağın suyunun haradan gəldiyini anlamaq mümkün olmur.

Yəqin, bu yazını oxuyanların çoxu ölkəmizin müxtəlif yerlərində olan damcılı bulaqları xatırlayacaqlar. Haqlıdırlar da. Allah Azərbaycanımızı, bax belə, fərqli, özünəməxsus yaradıb. O bulaqların bir çoxunda olmuşam. Ən məşhurlarından hesab edilən Qazaxın "Damcılı mağara"sında da. Ancaq dağların dibində daşlardan suyun süzülməsi gözəl olduğu qədər də həmin dağlar mənbə rolunu oynadığı üçün təbii görünə bilər. Xocalının Damcılı bulağı isə, sanki, bir möcüzədir!

Vaxtilə bu yerlərdə yaşamış, indi yenidən öz azad ata-baba torpaqlarına qayıtmış sakinlərlə söhbət zamanı bulağın bir məziyyətini də öyrəndim: Damcılının suyu da, süzüldüyü mağaranın divarlarındakı palçıq da şəfa mənbəyidir. 75 yaşlı Kərim Əkbərov dedi ki, hələ erməni işğalından əvvəl, Sovet vaxtı insanlar dəri xəstəliklərinin müalicəsi üçün axın-axın Damcılı bulağına gəlirmişlər. Buranın palçığını əllərinə, ayaqlarına, bədənin dərisində qaşıntı, yara olan yerlərinə sürtür, gedəndə də özləri ilə aparırmışlar. Çünki Damcılının palçığının xeyrini istifadə edən hər kəs görürdü.



Suyunun müalicəvi xüsusiyyətləri haqqında isə müxtəlif fikirlər olduğu üçün yazmağı düzgün hesab etmirəm. Bunu dəqiqləşdirmək mütəxəssislərin işidir. Ancaq yolunuz Xankəndiyə, Xocalıya düşsə, mütləq vaxt edib Damcılı bulağa – təbiətin "göz yaşı" möcüzəsinə siz də baş çəkin. Peşman olmazsınız...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# "Xəzri-2025" təliminin planlaşdırma konfransı



**Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə cari ildə keçiriləcək "Xəzri-2025" birgə taktiki təliminin planlaşdırma konfransı olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, tədbirdə Qazaxıstan Respublikasının Dəniz Qüvvələri Baş Komandanının birinci müavini – Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin Baş Qərargah rəisi, 1-ci dərəcəli kapitan Kanat Niyazbəyov və Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanının birinci müavini – qərargah rəisi, 1-ci dərəcəli kapitan Teymur Mürşüdovun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.

Görüşün sonunda Xəzər dənizinin Qazaxıstana məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimə aid konfransın yekun protokolu imzalanıb.

Təlimin məqsədi Azərbaycan və Qazaxıstan hərbi dənizçilərinin peşəkarlıqlarının daha da artırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

***XQ***

"Məktəbli və Tələbə İaşə" ATSC səhmdarlarının nəzərinə!

5 iyun 2025-ci il saat 16.00-da "Məktəbli və Tələbə İaşə" ATSC səhmdarlarının illik ümumi yığıncagı keçiriləcəkdir.

Yığıncagın gündəliyindəki məsələlər:

**1.** Səhmdar cəmiyyətin 2024-cü il üzrə illik balansının yekunlarının təhlili.

**2.** Dividendlərin bölünməsi.

**3.** 2025-ci ildə qarşıda duran məsələlər.

**4.** Digər məsələlər.

İclasda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə nömrəsi – 050-361-55-64.

Ünvan – Bakı şəhəri,7-ci mikrorayon, "Büllur Saray" ticarət mərkəzi.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 70 (30764) 11 aprel 2025-ci il, cümə

# Milli cüdonun liqaları da yaradıldı



**Azərbaycanda inkişaf etmiş idman növlərindən biri olan cüdonun daha da tərəqqi etməsi, bu idman növü üzrə perspektivli atletlərin yetişməsi üçün görülən işlər davam edir. Aprelin 10-da Azərbaycan Cüdo Federasiyası (ACF) Cüdo Liqalarının yaradılması ilə bağlı layihə təqdim etdi.**

Bu münasibətlə keçirilən mətbuat konfransında çıxış edən ACF-nin baş katibinin müavini və idman direktoru Kamran Talıbov Cüdo Liqalarının yaradılmasında əsas məqsədin yeni potensiallı idmançıların aşkarlanması, yerli cüdo idman təşkilatları arasında sağlam rəqabətin və əlaqələrin yaranması, idmançılara və məşqçilərə maddi dəstək göstərilməsi, eləcə də klubların infrastrukturunun yaxşılaşdırılması olduğunu bildirdi. O qeyd etdi ki, bundan sonra yığmaların heyəti yalnız Azərbaycan çempionatı və ya birincilikləri əsasında deyil, il boyu keçirilən daxili yarışlarda, eləcə də bu liqalarda toplanacaq reytinq xalları əsasında müəyyən ediləcək. Bu da, seçimin daha obyektiv olmasını şərtləndirəcək:

– Cüdo Liqaları ilə bağlı layihə üzərində bir müddət idi ki, iş aparırdıq. Sonda U-14, U-17 və böyüklər liqalarının yaradılması ilə bağlı qərar verdik. Böyüklərdə yalnız kişi cüdoçular, U-17 və U-14 liqalarında isə həm oğlan, həm də qız cüdoçular iştirak edəcək. Liqa yarışları açıq status daşıyacaq və şərtlərə cavab verən bütün cüdoçular liqalarda çıxış edə biləcəklər.

Böyüklər liqasında 3, U-17 və U-14 liqalarında isə 4 yarışın keçirilməsi nəzərdə tutulur. İdmançılara Liqa yarışlarında göstərdikləri nəticələrə müvafiq reytinq xalları veriləcək. Bu da, öz növbəsində, məşqçilərin və klubların reytinqini formalaşdıracaq. Yekun reytinq cədvəlində yuxarı pillələrdə qərarlaşmış cüdoçulara və onların məşqçilərinə pul mükafatı veriləcək. Klublarda cüdonun inkişafı müxtəlif istiqamətlər üzrə dəstəklənəcək.

Kamran Talıbov söylədi ki, aprelin 19–20-də U-14, 21–22-də U-17, mayda isə böyüklər arasında liqalar başlayacaq. Yarışlar Abşeron Olimpiya Kompleksində təşkil ediləcək.

Mətbuat konfransında bölgələrimizdə cüdonun inkişafı üçün yeni layihələrin həyata keçiriləcəyi də bildirildi. Diqqətə çatdırıldı ki, Azərbaycanın qərb və şimal-qərb bölgələrində cüdo yarışlarında rəqabət daha yüksək olur. Gələcəkdə bölgələrdə də liqalar formalaşdırılacaq. İlkin mərhələdə bu, sınaq məqsədi daşıyacaq.

Qeyd edildi ki, Azərbaycanın regionlarında cüdo məşqçiləri üçün peşəkar inkişaf proqramı hazırlanıb. Hər bölgədə ayrı-ayrılıqda seminarlar təşkil ediləcək. Vurğulandı ki, ilkin mərhələdə müəllimlər dəvət ediləcək, bütün zallarda uşaqlara məşqlər keçiriləcək. Aprelin 14-dən 19-na qədər Goranboyda ilk seminar təşkil olunacaq.

**ACF-nin yarışların təşkili və keçirilməsi komitəsinin sədri Ağayar Axundzadə Cüdo Liqalarında iştirakın sərbəst olduğunu dedi:**

– Yarışlarda mübarizə aparmaq üçün əsas şərt cüdo bacarıqlarının olmasıdır. Liqalarda potensialı olan bütün cüdoçular iştirak edə bilərlər. Yəni bunun üçün hansısa turnirdə yer tutmaq və s. kimi xüsusi tələb yoxdur. İnanırıq ki, layihə daha bacarıqlı idmançıların aşkar edilməsi üçün imkanları daha da genişləndirəcək.

Sonda jurnalistlərin sualları cavablandırıldı.

*Leyla QURBANOVA*
*XQ*

## İdman

### Paraüzgüçümüzdən Gimnaziadada bürünc medal




**Serbiyada keçirilən ISF U15 Gimnaziada İdman Oyunlarında paraüzgüçümüz Səlim Məmmədov (S12) fəxri kürsüyə yüksəlib.**

O, 200 metr kompleks (qarışıq) yarışda finişə 3:10.69 dəqiqəyə çataraq bürünc medal qazanıb.

Dünən həmçinin, boksçuların yarışı başlayıb. Bir boksçumuz 3-cü yeri tutub, 5 təmsilçimiz isə döyüşlərini qələbə ilə başa vurduqları üçün özlərinə azı bürünc medalı da təmin ediblər. Komandamızın digər 5 üzvü isə finala vəsiqə qazanıb. Bununla da yığmamızın əldə etdiyi medal sayı 55-ə yüksəlib.

Xatırladaq ki, aprelin 12-dək davam edəcək və 56 ölkədən 2 min 742 idmançının mübarizə apardığı yarışda Azərbaycan 18 idman növündə, ümumilikdə, 191 atletlə təmsil olunur.

### Qəbələ–Xankəndi ultramarafonu



**Qəbələ–Xankəndi ultramarafonunda ilk mərhələ başa çatıb.**

Qəbələdən Ağdaşadək 55 kilometr məsafə qət edən marafon iştirakçıları arasında türkiyəli atlet Üzeyir Söyləməz qalib adını qazanıb. İkinci pillədə onun həmyerlisi Ömər Alkanoğlu, üçüncü yerdə isə gürcüstanlı Giorgi Lomidze qərarlaşıblar.

Ultramarafonda Türkiyə, Ukrayna, Rusiya, Moldova və Gürcüstandan 81 atlet iştirak edib. "İdman paytaxtı" Qəbələ şəhərindən başlayan marafonun iştirakçıları 192 kilometr məsafəni qət edərək Xankəndidə finişə çatacaqlar. İştirakçılar bundan sonra Ağdaş–Bərdə (65 kilometr), Bərdə–Ağdam (44 kilometr), və Ağdam–Xankəndi (28 kilometr) mərhələləri üzrə mübarizə aparacaqlar.

*L.AZAD*
*XQ*

# "İndiqo və qırmızı"nın rəngli nağılları



**Səttar İncəsənət Studiyasında Azərbaycan rəssamlarının abstraksiya sənəti mövzusunda "İndiqo və qırmızı" adlı rəsm sərgisi keçirildi.**

Sərginin təşkilatçısı, studiyanın rəhbəri rəssam Şəms Səttarzadə bildirdi ki, əsas məqsəd Azərbaycan incəsənətində gənc rəssamların abstrakt janrda olan təcrübələrini sınamaqdır:

– Burada 20 rəssamın fərqli əl işləri sərgilənir. Düşünürəm ki, ölkəmizdə belə sərgilərin keçirilməsi yaxşı haldır. Bu mövzuda əsərlər yaradan gənc rəssamlar üçün də böyük stimuldur. Bu cür sərgilər daha çox olmalıdır ki, Azərbaycanda incəsənət sahəsi inkişaf etsin və gələcəyin rəssamları yetişsinlər.

Sərgidə gələcəyin rəssamlarının əl işləri ilə tanış olduq.

**Məsmə Qarayeva:**

– Əsərimin adı "Qara yalnızlığa məhkum" adlanır. Rəsmdə qəfəsin içində mələk təsvir olunub. Burada onu insan olaraq göstərməyə çalışmışam. Ətrafda isə parlaq günəş və əlvan rənglər əks olunub. Daxili dünyamız nə qədər qaranlıq olarsa, başqa rəngləri görə bilmərik. Mənfi düşüncələrlə yaşayanda pis hadisələrlə qarşılaşmaq ehtimalımız yüksək olur. Bu da insanı bataqlığa aparıb çıxarır. Hər kəsi qara fikirlərdən uzaq durmağa çağırıram. Rəsmdə də bunu göstərməyə çalışmışam.

**Ayişə Hüseynova:**

– Mən əsəri yağlı boya ilə işləmişəm. Burada hər kəs fərqli mənzərələr – su, dağ, təbiət və s. görə bilər. Sərbəst formada rəsm çəkməklə məşğul oluram. Xüsusilə, ev dizaynlarına uyğun müasir və abstrakt janrda rəsmlər üzərində çalışıram. "İnstagram" səhifəm də var.

Qeyd edək ki, abstraksionizm XX əsr incəsənətində reallığın görünən təsvirini sırf formal elementlər – xətt, müstəvi, rəng ləkəsi, mücərrəd konfiqurasiya vasitəsilə göstərən bir sənət növüdür. 1910-cu illərin əvvəlində yaranmış bu sənətin baniləri məşhur rəssamlar – Vasili Kandinski, Kazimir Maleviç, Pit Mondrian, Frantişek Kupka, Rober Delone olmuşlar. Azərbaycanlı rəssamlar arasında isə M.Zeynalov, F.Qulamov və H.Abdullayevin abstrakt janrda maraqlı əsərləri var. Onlar güclü rəmzləri ilə seçilir.

*Fidan SALMANOVA*
*XQ*

# "Güclü cəmiyyətin zərif simaları" İmişlidə

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Regional İnkişaf" İctimai Birliyinin əməkdaşlığı ilə birgə həyata keçirilən "Güclü cəmiyyətin zərif simaları" layihəsi çərçivəsində İmişli rayonunda tədbir keçirilib.**






Layihənin məqsədi regionlarda yaşayan qadınlar, yeniyetmə və gənc qızların şəxsi və liderlik bacarıqlarının inkişafına dəstək vermək, ictimai fəallığını təşviq etmək, eləcə də gənc qızların rəqəmsal bacarıqlarının artırılmasıdır.

Çıxış edənlər bildiriblər ki, dövlət tərəfindən həyata keçirilən uğurlu qadın siyasətinin nəticəsi olaraq ölkəmizdə qadınların səlahiyyətləndirilməsi, onların cəmiyyətin hər sahəsində öz potensiallarını reallaşdırması və layiqli mövqe tutması üçün geniş imkanlar yaradılır. Bu sahədə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən layihə və tədbirlərin xüsusi əhəmiyyət daşıdığı qeyd edilib.

Azərbaycan qadınının yüksək insani keyfiyyətlərindən, mənəvi dəyərlərin formalaşması, inkişafı, qorunması və nəsildən-nəslə ötürülməsində müstəsna rolundan danışılıb.

*F.SALMAN*
*XQ*

## HAVA

# Abşeronda yağmursuz, bölgələrdə yağış və duman



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var.**

Güclü şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 6-8°, gündüz 10-13° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-10°, gündüz 11-15°, dağlarda gecə 0-4°, gündüz 4-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## SAĞLAMLIQ

# Pəhriz saxla – yaddaşını yoxla

**Demensiya son illərin daha çox müşahidə edilən xəstəliklərindən biridir. Oksford Universitetinin alimləri araşdırmalarla müəyyən ediblər ki, qidalanma ilə xəstəliyin irəliləməsinin qarşısını almaq olar.**



Onlar araşdırma nəticəsində belə qərara gəliblər ki, 48–70 yaş arasında düzgün qidalanmaq – yəni, balıq, paxlalılar və tərəvəz yemək sonrakı illərdə demensiya (yaddaşın itməsi) riskini azaltmağa kömək edir.

Araşdırmada 512 britaniyalı iştirak edib. 21 il ərzində elm adamları könüllülərin pəhrizləri haqqında məlumat toplayıb, onların hər birinin bel və omba ətrafını ölçüblər. Nəticələr balıq, zeytun yağı, tərəvəz, meyvə və paxlalılar yeyən könüllülərin idrak qabiliyyətlərinin daha yaxşı olduğunu, zəifləmədiyini göstərib.

Pəhriz saxlayan insanlar beyinin informasiya və yaddaşın emalında əsas rol oynayan sol hipokampus və ilk növbədə, vizual məlumatı emal edən oksipital lob arasında əlaqənin yaxşılaşdığını göstəriblər.

Alimlər onu da qeyd ediblər ki, düzgün qidalanmanın ən əsas qoruyucu təsiri 48–70 yaş arasında müşahidə olunur.

Ona görə, qırmızı, yağlı ət yeyən insanlara tövsiyə olunb ki, 46 yaşdan sonra mütləq qidalanmanı dəyişin. Bu, demensiyaya tutulmaq təhlükəsini azaldar.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev ailəsi ilə birlikdə Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifova atası

**RAUF ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3361
SİFARİŞ 650
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00